Elxan Süleymanov
Vurğun Süleymanov

# Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri

- 10454 -
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı - 2012

S 95

**Məsləhətçilər:**
**Jan Pol Murman,**
Belçika Konstitusiya Məhkəməsinin hakimi

**Eduard Lintner,**
Almaniya millət vəkili (1976-2009)

**Çingiz İsmayılov,**
coğrafiya elmləri doktoru, professor

AVCİYA-nın prezidenti, Şamaxının millət vəkili, AVRONEST Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü **Elxan Süleymanovun** və iqtisad elmləri üzrə fəlsəfə doktoru **Vurğun Süleymanovun** müəllifi olduğu **"Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri"** kitabında təcavüz nəticəsində Azərbaycana vurulmuş maddi və mənəvi zərərin müəyyənləşdirilməsinə yönəlmiş kompleks məsələlər ilk dəfə olaraq araşdırılır. Kitabda həmçinin, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi və geosiyasi kökləri tədqiq olunur, beynəlxalq təşkilatların Ermənistanın Azərbaycan ərazilərini işğalı faktını tanıması mühüm sənədlər vasitəsilə çatdırılır.

*Kitabda AzərTAc-ın, Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin (http://qmkdk.gov.az) və www.azerbaijan.az portalının fotomateriallarından istifadə olunmuşdur.*

06050010405
———— qrifli nəşr
036-2012

ISBN 978 9952-8134-7-8

© *Elxan Süleymanov & Vurğun Süleymanov 2012*



# Giriş

Ermənistanın silahlı təcavüzü nəticəsində Azərbaycan ərazilərinin 20 faizi, o cümlədən keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) və digər 7 rayon işğal edilmiş, 20 min azərbaycanlı həlak olmuş, 50 min insan yaralanmış və müxtəlif dərəcəli xəsarət almış, 5 mindən artıq azərbaycanlı əsir və itkin düşmüş, Ermənistanın öz ərazisində və işğal etdiyi Azərbaycan ərazilərində həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdir. Müharibə nəticəsində 900-dən çox yaşayış məntəqəsi dağıdılmış və qarət edilmiş, mülki əhalinin ümumilikdə 9 milyon $m^2$ sahədə evləri, dövlət müəssisələri və sosial obyektlər dağıdılmış və yandırılmışdır. Ümümiyyətlə, Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və Azərbaycan ərazilərinin işğalı nəticəsində ölkəmizə bilavasitə dəyən zərərin miqdarı onlarla milyard dollar hesablansa da, müxtəlif mənbələrdə bu barədə dəqiq məlumat verilmir. Ümumiyyətlə, vurulmuş zərər deyəndə həm dövlətin özünə vurulmuş zərər, həm də onun vətəndaşlarına, təşkilatlarına və kommersiya strukturlarına vurulmuş zərər nəzərdə tutulur.

Bununla yanaşı, Ermənistanın silahlı təcavüzü və işğalı nəticəsində Azərbaycana bilavasitə ziyanlarla yanaşı, dolayısı ilə ziyanlar da dəymişdir. Bu ziyanların miqdarı işğal altında olan ərazilər azad edilməyənədək hər il artmaqda qavam edir. Uzun müddətdir ki, Azərbaycan ərazilərinin dinc yolla işğaldan azad edilməsi istiqamətində danışıqlar aparılır, əgər danışıqlar nəticəsində Azərbaycan ərazilərinin azad edilməsinə nail olunmasa belə, Azərbaycan beynəlxalq hüquq normalarına müvafiq olaraq özünü müdafiə hüququndan istifadə edərək işğala son qoyacaq və hazırda işğal altında olan ərazilərdə öz dövlət müstəqilliyini bərpa edəcəkdir. İstənilən halda Azərbaycan Respublikası beynəlxalq məhkəmələrdə ona dəyən ziyanın ödənilməsi barədə iddia qaldırmaq və müvafiq təzminatlar al-

maq hüququna malikdir. Odur ki, Ermənistanın silahlı təcavüzü və Azərbaycan ərazilərinin işğalı nəticəsində ölkəmizə dəyən ziyanın müəyyənləşdirilməsi böyük aktuallıq kəsb edir.

Lakin indiyədək Azərbaycana vurulmuş maddi və mənəvi zərərin ödənilməsinə yönəlmiş kompleks xarakterli beynəlxalq-hüquqi məsələlərin tədqiqi ayrıca araşdırmanın predmeti olmamışdır. Bu boşluğu müəyyən dərəcədə doldurmaq məqsədlə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin politoloji, beynəlxalq-hüquqi, iqtisadi aspektlərinin, Azərbaycana dəymiş ziyanın ödənilməsi istiqamətində beynəlxalq-hüquqi əsaslarının araşdırılması dövlət əhəmiyyətli vacib məsələ hesab edilməlidir. Belə ki, Azərbaycana qarşı təcavüzə və Azərbaycan torpaqlarının işğalına görə Ermənistanın beynəlxalq-hüquqi məsuliyyətinin yaranmasından irəli gələn Azərbaycana vurulmuş maddi və mənəvi zərərin ödənilməsi probleminin araşdırılması işğalın nəticələrinin aradan qaldırılmasının və bütövlükdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həll edilməsinə yönəlmiş vacib məsələlərdən biridir.

Eyni zamanda qeyd edilməlidir ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının, silahlı təcavüzünün, Dağlıq Qarabağ bölgəsinin və ətraf rayonların işğalının indiyədək əsasən ümumi xarakterli siyasi və hüquqi aspektləri tədqiq edilmişdir. Lakin Ermənistanın təcavüzü nəticəsində Azərbaycana vurulmuş maddi və mənəvi zərərin ödənilməsinə yönəlmiş kompleks məsələlərin tədqiqi araşdırma predmeti olmamışdır və təqdim edilən tədqiqat çərçivəsində həyata keçirilən belə bir araşdırmanın aparılmasına cəhd göstərilir. Bu isə, öz növbəsində, tədqiqatın aktuallığını və yeniliyini müəyyən edir və sübhəsiz ki, Ermənistan tərəfindən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və ətraf rayonlarının işğalına dair dünya dövlətləri birliyində və dünya ictimai fikrində Azərbaycan tərəfinin mövqeyinin əsaslı, qanuni və ədalətli olmasının sübutedici bazasını daha da gücləndirir.





## 1. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi və geosiyasi kökləri

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi etnik azərbaycanlıların 1988-1989-cu illərdə cəmi bir neçə ay ərzində öz tarixi torpaqları olan indiki Ermənistan Respublikası ərazisindən deportasiyası və bu dövlətin zor tətbiq etməklə yeni ərazilər əldə etmək siyasətinin davamı kimi Azərbaycan Respublikasına qarşı silahlı təcavüzü nəticəsində baş vermişdir.

Qeyd edilməlidir ki, Azərbaycana qarşı silahlı təcavüz ölkənin Dağlıq Qarabağ bölgəsində erməni separatçı qrupların hüquqazidd hərəkətləri ilə başlanmışdır. Ermənistanın hakimiyyət orqanları isə separatçıların bu əməllərini özlərinin beynəlxalq hüquq normaları ilə ziddiyyət təşkil edən qərarları ilə dəstəkləmiş və Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürmüşdür. Bu qərarlar sırasında Ermənistan SSR Ali Sovetinin "Ermənistan SSR ilə Dağlıq Qarabağın birləşdirilməsi haqqında" 1 dekabr 1989-cu il tarixli qərarı və Ermənistanın dövlət suverenliyi haqqında 23 avqust 1990-cı il tarixli bəyannamə xüsusilə vurğulanmalıdır. Ermənistan tərəfindən qəbul edilmiş beynəlxalq hüquq normaları ilə ziddiyyət təşkil edən həmin sənədlərə görə, digər bir dövlətin ərazisinin bir hissəsi - Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi "Ermənistan Respublikasının ayrılmaz hissəsi" elan edilirdi. Ermənistan SSR Ali Sovetinin qeyd edilən qərarları bu dövlətin silahlı qüvvələrinin Azərbaycan Republikasına qarşı silahlı təcavüzü nəticəsində reallaşdırıldı. Azərbaycana qarşı silahlı döyüşlərə muzdlulardan ibarət silahlı qeyri-qanuni birləşmələr geniş cəlb edilmişdi. Bununla yanaşı, Ermənistanın silahlı təcavüzü bu dövlətin xüsusi xidmət orqanlarının və beynəlxalq erməni terror təşkilatlarının tək cəbhəyanı və sərhədyanı ərazilərdə deyil, eyni zamanda cəbhə və sərhəd xətlərindən uzaqlarda Azərbaycan xalqına qarşı terror əməliyyatlarının kəskin şəkildə intensivləşməsi fonunda

həyata keçirildi. Ermənistan silahlı birləşmələrinin tammiqyaslı hərbi əməliyyatları 1991-ci ilin sonu və 1992-ci ilin əvvəllərində Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) inzibati ərazisi hüdudlarında aparılırdı, 1992-ci ilin mayından isə döyüş əməliyyatları keçmiş DQMV hüdudlarından kənara çıxaraq, Azərbaycanın digər rayonlarına yayılmağa başladı.

Ermənistanın silahlı təcavüzü nəticəsində Azərbaycan Respublikasının keçmiş DQMV və 7 ətraf rayonu, o cümlədən cəbhəyanı və sərhədyanı rayonların bir sıra yaşayış məntəqələri də daxil olmaqla Azərbaycan Respublikasının 20% ərazisi işğal edildi. Rusiya Federasiyasının vasitəçiliyi ilə 1994-cü ilin 12 may tarixində tərəflər arasında atəşkəs haqqında protokol imzalandı və hazırda münaqişənin sülh yolu ilə tənzimlənməsi ilə bağlı ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə danışıqlar aparılır.

Xüsusilə qeyd edilməlidir ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin meydana gəlməsinin tarixi və geosiyasi kökləri mövcuddur. Belə ki, bu münaqişənin əsası "ləng açılan bomba" şəklində 1988-ci ildən xeyli əvvəl, daha dəqiq desək, XIX əsrin əvvəllərində qoyulmuşdur. Belə ki, çar Rusiyası hələ XVII əsrin sonu və XVIII əsrin əvvəllərindən başlayaraq Osmanlı dövlətinin torpaqlarının bölüşdürülməsi, Aralıq dənizinə və Şərqə çıxış əldə etmək məqsədilə dəfələrlə Türkiyə və İrana qarşı müharibələr aparmışdır. Bu müharibələrin nəticəsi kimi, 1813 və 1828-ci illərdə çar Rusiyası və İran arasında müvafiq olaraq Gülüstan və Türkmənçay müqavilələri imzalanmışdır. Bu müqavilələrin imzalanması nəticəsində Azərbaycan xalqına qarşı tarixi ədalətsizlik rəsmiləşdirildi və Azərbaycan torpaqları iki dövlət arasında bölüşdürüldü. Beləliklə, həmin müqavilələrin faciəli nəticəsi kimi Azərbaycan xalqı bölündü, Azərbaycanın tarixi torpaqları parçalandı.

Türkmənçay müqaviləsində uzağagedən geosiyasi oyunların və gələcək fəlakətlərin əsası qoyulmuş oldu. Belə ki, həmin müqavilə imzalandıqdan sonra 1828-ci ildən başlayaraq İran və Türkiyədə yaşayan ermənilərin Rusiyanın işğal etmiş olduğu Zaqafqaziyaya (Cənubi Qafqaza) kütləvi köçürülməsinə başlanmışdır. Müharibədən sonrakı iki il ərzində, 1828-ci ildən 1830-cu ilə kimi Cənubi Qafqaza İrandan 40 mindən, Türkiyədən isə 84 mindən çox erməni köçürüldü. Cənubi Qafqaza köçürülən ermənilər strateji baxımdan əhəmiyyət kəsb edən Yelizavetpol (Gəncə) və İrəvan quberniyalarında yerləşdirilirdilər. Rus tədqiqatçısı N.N.Şavrov bu məsələ ilə bağlı yazırdı ki, "Yelizavetpol quberniyasının dağlıq hissəsi və Göyçə gölünün sahili həmin ermənilər tərəfindən məskunlaşdırılmışdır". N.N.Şavrov daha sonra göstərirdi ki, 1908-ci ildə "Zaqafqaziyada yaşayan 1 milyon 300 min erməninin 1 milyondan çoxu diyarın köklü sakinləri olmayıb bizim tərəfimizdən məskunlaşdırılmışdır" [1].

Beləliklə, Çar Rusiyası tərəfindən ermənilərin kütləvi şəkildə Cənubi Qafqaza, o cümlədən Qarabağın dağlıq hissəsinə köçürülməsi bu regionda demoqrafik vəziyyətə ciddi təsir göstərmiş və ermənilərin gələcək ərazi iddialarının əsasını qoymuşdur.

Əvvəlcə çar Rusiyasının, sonra isə Sovet İttifaqının apardığı siyasət nəticəsində son 200 il ərzində Cənubi Qafqazda demoqrafik vəziyyət ciddi şəkildə dəyişdirilmiş, azərbaycanlılar öz tarixi torpaqlarından, doğma yurdlarından sıxışdırılaraq məcburi köçürülmələrə məruz qalmışlar. Təkcə XX yüzillik ərzində azərbaycanlılar ən azı beş dəfə təqiblərə və deportasiyalara məruz qalaraq, öz tarixi torpaqlarından didərgin düşmüşlər. 1905-1907-ci illərdə ermənilər azərbaycanlılara qarşı bütün Azərbaycanı, eləcə də indiki Ermənistan ərazisindəki əzəli azərbaycanlı yaşayış məntəqələrini əhatə edən genişmiqyaslı qanlı əməliyyatlar həyata keşirmiş, yüzlərlə yaşayış məntəqəsini yerlə yeksan etmiş, minlərlə azərbaycanlını vəhşicəsinə qətlə yetirmişlər. Daha sonra 1917-ci ilin dekabrından başlayaraq 1918-ci ilin iyun ayınadək təkcə keçmiş İrəvan xanlığı ərazisində 200 azərbaycanlı kəndi yandırılaraq məhv edilmişdir. Bolşevizm bayrağı və əksinqilabçı ünsürlərə qarşı mübarizə adı altında Stepan Şaumyanın rəhbərlik etdiyi silahlı dəstələr 1918-ci ilin martından etibarən Bakı quberniyasında azərbaycanlıların məhv edilməsi üzrə dəhşətli plan həyata keçirməyə başladı

və qısa müddət ərzində Bakının xeyli hissəsi xarabalığa çevrildi. Azərbaycanlılara qarşı soyqırımı əməliyyatları Bakıda, Şamaxıda, Qubada, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və digər bölgələrdə xüsusi qəddarlıqla həyata keçirildi. Dinc əhali yalnız etnik azərbaycanlı olması səbəbindən kütləvi şəkildə öldürülür, yaşayış məntəqələri yandırılır, milli-mədəniyyət abidələri, məktəblər, xəstəxanalar, məscidlər və digər tikililər dağıdılaraq məhv edilirdi. Bu dövrdə Cənubi Qafqazda erməni qüvvələri tərəfindən təxminən 100 mindən çox etnik azərbaycanlı məhv edildi.

Azərbaycan 28 may 1918-ci ildə dövlət müstəqilliyi elan etdikdən sonra yenidən ermənilərin ərazi iddiaları ilə üzləşdi. Yaranmış tarixi-siyasi vəziyyəti nəzərə alaraq, əsasən də ermənilərin ərazi iddialarına son qoyulması və ermənilərin azərbaycanlılara qarşı silahlı hücumlarının dayandırılması müqabilində Azərbaycan tərəfi 1918-ci ildə İrəvan şəhərinin ermənilərə verilməsi barədə qərar qəbul etdi. Bununla da, tarixi Azərbaycan torpaqlarında paytaxt İrəvan şəhəri olmaqla Ermənistan dövləti yaradıldı. Lakin erməni tərəfi bundan sonra da ərazi iddialarından əl çəkmədi və azərbaycanlıların zorakılıqla öz tarixi torpaqlarından qovulması davam etdirildi. Nəhayət, ermənilərin silahlı təcavüzü nəticəsində Zəngəzur mahalı işğal edildi və erməni tərəfi İranla sərhəd qurulmasına nail oldu.

SSRİ tərkibində Zaqafqaziya Federasiyasının qurulması və ləğvi, Azərbaycan SSR və Ermənistan SSR-in yaradılması dövründə sərhədlərin dəqiqləşdirilməsi bəhanəsi ilə Azərbaycan əraziləri yenidən Ermənistan SSR-in tərkibinə qatılır, yerli Azərbaycan əhalisi isə bu və ya digər yollarla öz doğma yurdlarını tərk etməyə məcbur edilirdi. Ermənistan SSR-də yaşayan azərbaycanlılara qarşı etnik təmizləmə və deportasiya siyasəti İkinci Dünya Müharibəsindən sonra da SSRİ rəhbərliyi səviyyəsində davam etdirildi. Misal üçün, Ermənistan SSR-ə xaricdən gələn ermənilərin yerləşdirilməsi bəhanəsilə İ.V.Stalinin imzaladığı "Kolxozçuların və digər Azərbaycan





əhalisinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür–Araz ovalığına köçürülməsi haqqında" 1947-ci il 23 dekabr tarixli 4083 saylı və "Kolxozçuların və digər Azərbaycan əhalisinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür–Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" 1948-ci il 10 mart tarixli 754 saylı SSRİ Nazirlər Sovetinin qərarlarına əsasən 150 minədək azərbaycanlı özlərinin tarixi torpaqlarından deportasiya olundu.

Qeyd etmək lazımdır ki, çar Rusiyasının XIX əsr boyu və XX əsrin əvvəllərində Cənubi Qafqazda demoqrafik vəziyyəti ciddi şəkildə dəyişdirməyə nail olmasına baxmayaraq, 1918-ci ildə cəmisi 9 min km$^2$ ərazidə yaradılmış Ermənistan dövlətində 575 mindən çox azərbaycanlı yaşayırdı ki, bu da Ermənistan əhalisinin üçdə birindən çox idi. Sonradan SSRİ dövründə Azərbaycanın ərazisinin 114 min km$^2$-dən 86,6 min km$^2$-ə qədər azaldılması hesabına Ermənistanın əraziləri artırıldı və bu ərazilərdə müxtəlif bəhanələrlə yerli azərbaycanlı əhaliyə qarşı açıq və gizli şəkildə etnik təmizləmə siyasəti həyata keçirildi. Nəhayət, 1988-ci ilin sonu və 1989-cu ilin əvvəllərində indiki Ermənistan dövlətinin ərazisindən son 250 mindən çox azərbaycanlı deportasiya edildi. Rəsmi Yerevanın ardıcıl və davamlı şəkildə həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində hazırda bu ölkə ərazində bir nəfər də azərbaycanlı qalmamışdır.

Etnik təmizləmə və indiki Ermənistan ərazilərinin azərbaycanlıların tarixi torpaqları olması barədə izlərin belə silinməsi siyasətinin növbəti mərhələsi 1988-ci il noyabrın sonunda başlandı. Rəsmi hakimiyyət orqanlarının dəstəyi və sanksiyası ilə indiki Ermənistan dövlətinin ərazisində məskunlaşmış son 250 mindən artıq azərbaycanlı qısa bir müddət ərzində öz tarixi torpaqlarından deportasiya olundu. Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinin növbəti faciəvi mərhələsi olan bu kütləvi qovulma aksiyası azərbaycanlıların öldürülməsi, onlara işgəncələrin verilməsi ilə müşayiət edildi. Etnik təmizləmə nəticəsində 216 azərbaycanlı

qətlə yetirildi ki, bunların əksəriyyəti də qadınlar, uşaqlar və qocalar idi. Bunlardan 49 nəfəri xilas olmağa çalışarkən dağlarda donmuş, 41 nəfəri xüsusi qəddarlıqla döyülərək qətlə yetirilmiş, 35 nəfəri uzun sürən işgəncələrlə öldürülmüş, 11 nəfəri diri-diri yandırılmış, 16 nəfəri güllələnmiş, 10 nəfər əzab və işgəncələrə dözməyərək ölmüş, 2 nəfər xəstəxanada həkimlər tərəfindən öldürülmüş, 2 nəfərin başı kəsilmiş, digərləri isə suda boğularaq, asılaraq, elertrik cərəyanına birləşdirilərək və s. qeyri-insani üsullarla qətlə yetirilmişlər. Etnik azərbaycanlılara qarşı cinayətlər Quqark, Kalinin, Gorus, Stepanavan, Vardenis, Masis, Spitak, Ararat, Kirovakan, İcevan, Krasnoselo, Yexeknadzor, Amasiya, Qafan, Abovyan, Sisyan, Sevan, Noyemberyan, Meğri və digər rayonlarında xüsusi qəddarlıqla həyata keçirilmişdir [2].

Etnik zəmində həyata keçirilən bu cinayət əməlləri rəsmi Yerevan tərəfindən qabaqcadan düşünülmüş və planlaşdırılmışdı. Belə ki, azərbaycanlıların öz tarixi vətənlərindən deportasiya edilməsinə, onların məskunlaşdığı yaşayış məntəqələrinə hücumlara Ermənistan hökumətinin məmurları, milis və prokurorluq əməkdaşları, rayon partiya komitələrinin katibləri rəhbərlik edirdi. Şübhəsiz ki, SSRİ rəhbərliyi, xüsusən də M.Qorbaçov Ermənistan rəhbərliyinin bu cinayətkar əməllərindən xəbərdar idi. Lakin SSRİ rəhbərliyi Ermənistan ərazisində azərbaycanlı əhalisinə qarşı həyata keçirilmiş etnik təmizləmə faktlarına görə təhqiqatların aparılması barədə qərar qəbul etmədi, bu cinayət əməllərinin təşkilatçıları və icraçılarını məsuliyyətə cəlb etmədi.

Qeyd edilməlidir ki, beynəlxalq hüquq normalarına əsasən hər hansı milli, etnik və ya dini qrupun üzvlərinin öldürülməsi, belə qrupun üzvlərinə ciddi bədən xəsarəti və ya əqli pozuntuların yetirilməsi, hər hansı qrupun tam və ya tədricən fiziki məhvinə gətirib çıxaran əvvəlcədən düşünülmüş həyat şəraitinin yaradılması belə qrupa qarşı soyqırımı (genosid) cinayəti kimi qiymətləndirilir [3]. Beləliklə, beynəlxalq hüquq normalarına əsasən Ermənistan rəsmi hakimiyyətinin etnik azərbaycanlılara qarşı həyata keçirdiyi əməllər genosid



Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri

cinayətləri kimi qiymətləndirilməlidir.

Daha sonra Ermənistan hakimiyyəti öz ərazisində yaşayan azərbaycanlıları öz tarixi torpaqlarından deportasiya etməklə kifayətlənməmiş və 1988-1994-cü illərdə Azərbaycana qarşı silahlı təcavüz etmişdir. Azərbaycana qarşı silahlı döyüşlərdə Ermənistanın silahlı qüvvələri ilə yanaşı, dünyanın müxtəlif ölkələrinin vətəndaşları olan etnik ermənilərdən ibarət silahlı muzdlular dəstəsi və beynəlxalq erməni terror təşkilatları iştirak etmişlər. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi, o cümlədən keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV), eləcə də ona bitişik olan 7 rayonunun (Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonları) əraziləri işğal edilmişdir. Bundan əlavə Azərbaycanın cəbhəyanı və Ermənistanla sərhədyanı rayonlarının da bir sıra yaşayış məntəqələri işğal olunmuş (Naxçıvan MR, Qazax, Tərtər, Ağcabədi, Gədəbəy) və ciddi zərər (Ağstafa, Beyləqan, Tovuz) vurulmuşdur. Hazırda Dağlıq Qarabağ və ona bitişik ərazilər də daxil olmaqla, Naxçıvan Muxtar Respublikasının işğal olunmuş 2 kəndindən 1-i, Ağdam rayonunun işğal olunmuş 82 kəndindən 80-i, Füzuli rayonunun işğal olunmuş 76 kəndindən 54-ü, Tərtər rayonunun 13 kəndi və Qazax rayonunun işğal olunmuş 12 kəndindən 7-si hələ də işğal altında qalmaqdadır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə nail olmaq məqsədilə 1992-ci ilin martında ATƏT-in Minsk qrupu yaradıldı və BMT bu münaqişənin həlli məsələsini həmin qrupa həvalə etdi. Sonradan ATƏT-in Minsk qrupunun Rusiya, ABŞ və Fransadan ibarət həmsədrlik institutu formalaşdırıldı. Həmsədrlər 1997-1998-ci illərdə münaqişənin həlli ilə bağlı üç təklif irəli sürmüş, lakin bu təkliflər qəbul edilməmişdir. 2007-ci ildən etibarən Azərbaycan və Ermənistan prezidentləri səviyyəsində danışıqlar ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin əsas prinsiplərini özündə əks etdirən "Madrid prinsipləri" çərçivəsində aparılır. Bu prinsiplər 10 iyul

2009-cu ildə İtaliyanın Akvil şəhərində G8 (Böyük səkkizlik) sammiti zamanı ABŞ, Rusiya və Fransa prezidentlərinin qəbul etdikləri birgə bəyanatda öz əksini tapmışdır. Həmsədr ölkələrin prezidentlərinin birgə bəyanatında Dağlıq Qarabağ münaqişəsinin ATƏM-in 1975-ci il tarixli Helsinki Yekun Aktında ehtiva edilmiş güc tətbiq etməmək, ərazi bütövlüyü, həmçinin xalqların bərabər hüquqluluğu və öz müqəddəratını təyinetmə prinsipləri əsasında tənzimlənməsinin vacibliyi vurğulanmışdır [4].

Lakin Ermənistanın tutduğu qeyri-konstruktiv mövqe nəticəsində danışıqlarda irəliləyiş əldə edilməmişdir. Odur ki, 16 iyun 2010-cu ildə Kanadanın Muskok şəhərində G8 (Böyük səkkizlik) sammiti zamanı ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin prezidentləri yenidən birgə bəyanatla çıxış edərək tərəfləri münaqişənin tənzimlənməsi üzrə əsas prinsiplərin razılaşdırılması prosesini başa çatdırmağa çağırmışlar. Bəyanatda bir daha təsdiqlənmişdir ki, münaqişənin tənzimlənməsi ATƏM-in Helsinki Yekun Aktında ehtiva edilmiş prinsiplərə və həmsədr ölkələrin prezidentlərinin Akvil bəyanatındakı aşağıdakı təkliflərə əsaslanmalıdır: Dağlıq Qarabağ ətrafı işğal edilmiş ərazilərin qaytarılması; Dağlıq Qarabağ üçün təhlükəsizliyi və özünüidarəni təmin edə biləcək aralıq statusun verilməsi; Dağlıq Qarabağı Ermənistanla birləşdirə biləcək dəhlizin yaradılması; hüquqi qüvvəyə malik olan iradə ifadəetmə yolu ilə Dağlıq Qarabağın gələcək statusunun müəyyən edilməsi; bütün daxili köçkünlərin və qaçqınların əvvəlki yaşayış yerlərinə qayıtmaq hüquqlarının təmin edilməsi; sülhməramlı əməliyyatlar da daxil olmaqla, təhlükəsizliyin beynəlxalq təminatı [5].

Həmsədr ölkələrin prezidentləri, nəhayət, 26 may 2011-ci ildə Dovildə (Fransa) keçirilən G8 sammiti zamanı növbəti bəyanatla çıxış etdilər. Bu bəyanatda onlar bir daha münaqişənin ATƏM-in Helsinki Yekun Aktında ehtiva edilmiş prinsiplər və Akvil və Muskok bəyanatındakı təkliflər əsasında tənzimlənməsinin vacibliyini vurğuladılar. Həmsədr ölkələrin prezidentləri özlərinin Dovil bəyanatlarında Azərbaycan və Ermənistan





prezidentlərini siyasi iradə nümayiş etdirərək, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə əsas prinsiplərin razılaşdırılması prosesini keçiriləcək görüş zamanı başa çatdırmağa çağırdılar [6]. Lakin Rusiya prezidentinin iştirakı ilə Azərbaycan və Ermənistan prezidentlərinin 24 iyun 2011-ci il tarixli Kazan görüşündə yenə də real nəticə əldə edilmədi və dövlət başçıları qəbul etdikləri növbəti bəyanatda bir sıra məsələlər üzrə qarşılıqlı anlaşmanın əldə olunduğunu və bu məsələlərin həllinin əsas prinsiplərin təsdiq olunması üçün şəraitin yaranmasına kömək edəcəyini qeyd etməklə kifayətləndilər.

Qeyd edilməlidir ki, münaqişənin sülh yolu ilə həlli istiqamətində intensiv danışıqların getdiyi bir vaxtda Ermənistan tərəfinin ardıcıl olaraq atəşkəsi pozması və mülki şəxsləri, xüsusilə də azyaşlı uşaqları qətlə yetirməsi daha da intensivləşmişdir. Bu sıradan göstərmək lazımdır ki, Ermənistan tərəfi özünün son zamanlar cəbhəyanı bölgədə həyata keçirdiyi cinayətkar aksiyaların qurbanı kimi daha çox azyaşlı uşaqları hədəf seçməyə başlamışdır. Belə ki, Ermənistan tərəfindən Azərbaycanın Əlibəyli kəndinə daxil olan Tovuz çayına buraxılmış "itəbənzər" uşaq oyuncağına quraşdırılmış partlayıcı qurğunun 2011-ci il iyulun 14-də işə düşməsi nəticəsində 1998-ci il təvəllüdlü Şahmalıyeva Aygün Ziraddin qızı həlak olmuşdur. Qeyd edilməlidir ki, 2011-ci ilin martın 8-də doqquz yaşlı Fariz Bədəlov Ermənistan tərəfindən işğal olunmuş Ağdam rayonu ərazisindən Ermənistan silahlı qüvvələrinin snayperinin açdığı atəş nəticəsində qətlə yetirilmişdi. Bu və digər hadisələr Ermənistan tərəfinin azyaşlı uşaqları hədəfə almaqla insanlıq əleyhinə cinayət törətməsi ilə yanaşı, həm də onların sülhün əldə olunması üçün aparılan danışıqları qəsdən pozmağa yönələn niyyətlərindən xəbər verir.

Göründüyü kimi, ATƏT-in həmsədr ölkələri olan ABŞ, Rusiya və Fransa prezidentlərinin bəyanatlarında təcavüzkar ölkə ilə təcavüzə məruz qalan ölkə arasında heç bir fərq qoyulmamış, təcavüzkardan beynəlxalq hüquq normalarına riayət edərək, işğal altında olan əraziləri dərhal və qeyd-şərtsiz azad etmək

tələb olunmamış, bu məqsədə nail olmaq üçün təcavüzkar Ermənistana qarşı heç bir siyasi təsir göstərilməmişdir. Bunun əvəzində həmsədr ölkələrin prezidentləri münaqişənin tənzimlənməsi məsuliyyətini Azərbaycan və Ermənistan prezidentlərinin üzərinə ataraq, tərəfləri qarşılıqlı kompromisə çağırmışlar və onların əldə edəcəyi istənilən sülh variantını dəstəkləyəcəklərini bildirmişlər.

Həmsədr ölkələrin Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində faktiki olaraq neytral mövqe nümayiş etdirmələrinin əsas səbəblərindən biri bu münaqişənin eyni zamanda geosiyasi xarakter daşıması ilə bağlıdır. Belə ki, Qafqaz dünyada ən çox narahatçılıq doğuran regionlardan biri olmaqla bərabər, həm də böyük təbii sərvətlərə malikdir. Üç müstəqil dövlətin — Azərbaycan, Ermənistan və Gürcüstanın yerləşdiyi Cənubi Qafqaz strateji baxımdan Rusiya, Türkiyə və İran arasında birləşdirici bölgədir, Şimal-Cənub, Şərq-Qərb strateji xətləri bu bölgədən keçir. Bir çox dövlərlərin maraqları məhz Cənubi Qafqazda toqquşur. Rusiya bu regionu özünün "xarici siyasət prioritetləri", İran – "dövlət təhlükəsizliyi", ABŞ və tərəfdaşları isə "milli təhlükəsizlik" zonası kimi dəyərləndirirlər. Təbii enerji ehtiyatlarının (neft və qaz) Xəzər hövzəsindən dünya bazarına nəqli marşrutları (Bakı-Supsa və Bakı-Tbilisi-Ceyhan neft kəmərləri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri) Cənubi Qafqaz ölkələri olan Azərbaycan və Gürcüstanın ərazilərindən keçir. Avropa İttifaqı ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsi məqsədilə Xəzərin Azərbaycan sektorundan və Mərkəzi Asiyadan təbii qazın alternativ marşrutlarla nəql olunması strateji əhəmiyyət kəsb edir ki, bu da Cənubi Qafqaz regionu ətrafında müxtəlif güc mərkəzlərinin maraqlarının toqquşması ilə müşayiət olunur. Bundan əlavə, Cənubi Qafqaz regionuna Uzaq Şərqi, Mərkəzi Asiya, Yaxın Şərq və Avropanı birləşdirəcək transkontinental nəqliyat marşrutunun (TRASEKA) təşkil edilməsi kimi strateji rol ayrılıb.

Göründüyü kimi, Cənubi Qafqaz strateji əhəmiyyət kəsb edən bir regiondur. Məhz bu səbəbdən tarix boyu bu regiona






sahib olmaq uğrunda müxtəlif imperiyalar müharibələr aparmış, region hər hansı imperiyaya birləşdirildikdən sonra metropoliya ərazidə nisbi sakitlik və sülh əldə edilməsinə nail olmuşdur. Region bu və ya digər imperiyadan azad olduqda isə müxtəlif etnik qruplar arasında ərazilər əldə etmək uğrunda mübarizələr aparılmışdır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi SSRİ-nin zəifləməsi və süqutu dövründə rəsmi Moskvanın Cənubi Qafqaz regionunu öz təsir dairəsində saxlamaq istiqamətində həyata keçirdiyi siyasətin tərkib hissəsi kimi Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə başlandı.

Beləliklə, ATƏT-in Minsk qrupunun həmsədrləri olan Rusiya, ABŞ və Fransanın Cənubi Qafqazda öz geostrateji maraqları var. Rusiya SSRİ süqut etdikdən sonra bu regionda itirilmiş mövqelərini qaytarmaq və daha da gücləndirərək, regionda öz hegemonluğunu bərpa etməyə çalışır. ABŞ və Avropa İttifaqı isə, öz növbəsində, Xəzər hövzəsindən təbii enerji resurslarının dünya bazarına nəqli məqsədilə transmilli layihələr reallaşdırır və bu vasitələrlə regionda öz mövqelərini möhkəmləndirməyə çalışırlar.

Qeyd edilməlidir ki, Ermənistan siyasətçiləri Azərbaycana qarşı silahlı təcavüzü və Azərbaycan ərazilərinin işğalını "Dağlıq Qarabağ xalqının" öz müqəddəratını təyin etmək və müstəqillik uğrunda milli-azadlıq hərəkatı" adlandırırlar. Erməni siyasətçiləri "Dağlıq Qarabağ xalqı" dedikdə, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yaşayan etnik erməniləri nəzərdə tuturlar. Bununla əlaqədar, belə bir fakta diqqət yetirmək lazımdır ki, münaqişə başayana qədər Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində, SSRİ əhalisinin 1989-cu ildə siyahıya alınmasının nəticələrinə əsasən, 40688 etnik azərbaycanlı və 145450 erməni yaşayırdı [7]. Beləliklə, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində məskunlaşmış erməni əhalini heç bir halda "Dağlıq Qarabağ xalqı" adlandırmaq olmaz. Onlar Dağlıq Qarabağda məskunlaşmış əhalinin etnik erməni hissəsidir və bütövlükdə, Azərbaycan Respublikasındakı milli azlıqdır. Digər

tərəfdən, erməni xalqı öz müqəddəratını indiki Ermənistan Respublikası çərçivəsində təyin edib. Üçüncü tərəfdən, öz müqəddəratını təyin etmək hüququndan ərazidə məskunlaşmış əhalinin hər hansı bir hissəsi deyil, hamısı istifadə edə bilər. Eyni zamanda, xalqların öz müqəddəratını təyin etmək hüququnun həyata keçirilməsi və bu hüquqa hörmət prinsipindən suveren və müstəqil dövlətin ərazi bütövlüyünü, yaxud siyasi birliyini tamamilə və ya qismən pozan, ya da parçalayan hər hansı əməllərə icazə kimi istifadə olunmamalıdır. Bundan əlavə, xalqların bərabərlik hüquqları və öz müqəddəratını təyin etmək prinsipi həmin ərazidə hər hansı ayrı-seçkiliyə yol vermədən legitim hakimiyyət tərəfindən təqdim olunur. Nəhayət, öz müqəddəratını təyin etmək prinsipi heç də ayrılmaq və mövcud dövlətin ərazisini parçalamaq hüququna malik olmaq demək deyil. Beynəlxalq sənədlərə uyğun olaraq, öz müqəddəratını təyin etmək hüququnun həyata keçirilməsi beynəlxalq hüququn digər əsas prinsiplərinə, başlıcası isə dövlətin ərazi bütövlüyü prinsipinə riayət olunmasını tələb edir [8], [9]. Yuxarıda qeyd edilənlər göstərir ki, erməni tərəfinin Azərbaycanın Dağlıq Qarabağ regionu və ətraf rayonlarda baş verən silahlı toqquşmaları, Azərbaycan ərazisinin silah gücü ilə parçalanmasını, azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinin həyata keçirilməsini bu ərazilərdə məskunlaşmış ermənilərin öz müqəddəratını təyin etmək kimi qiymətləndirmə cəhdləri beynəlxalq hüququn əsas prinsiplərinə ziddir və həqiqəti əks etdirmir.

10457

Əksinə, çoxsaylı faktlar sübut edir ki, Ermənistan təcavüzkar ölkədir və Azərbaycanın 20% ərazisini məhz bu ölkənin silahlı qüvvələri işğal etmişdir. Misal üçün Human Rights Watch beynəlxalq təşkilatının 1994-cü ildə hazırladığı "Dağlıq Qarabağda münaqişənin yeddi ili" adlı məruzəsində göstərilir ki, əldə edilmiş faktlar Ermənistanın münaqişə tərəfi olduğunu sübuta yetirir. Məruzədə çoxsaylı müşahidələr və sübutlar əsasında nəticə çıxarılır ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərində olması hüquqi nöqteyi-nəzərdən bu



Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri

ölkəni münaqişə tərəfi edir, bu münaqişə tərəfləri Ermənistan və Azərbaycan olan beynəlxalq silahlı münaqişə kimi qiymətləndirilir [10].

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

## 2. Beynəlxalq təşkilatlar tərəfindən Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi faktının tanınması

Azərbaycana qarşı təcavüzə və Azərbaycan torpaqlarının işğalına görə Ermənistanın beynəlxalq-hüquqi məsuliyyət daşıması heç bir şübhə doğurmur. Ermənistan Respublikası beynəlxalq hüquq normalarını və BMT Nizamnaməsini kobud şəkildə pozaraq, nəinki sülhə və beynəlxalq təhlükəsizliyə qarşı cinayət sayılan və beynəlxalq hüquqa görə təcavüzkarın ciddi məsuliyyətini yaradan müharibəyə başladı və Azərbaycanın 20% ərazisini işğal etdi.

Bu fakt ən nüfuzlu beynəlxalq təşkilatların, o cümlədən, Birləşmiş Millətlər Təşkilatı, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO) kimi beynəlxalq dövlətlərarası təşkilatların Dağlıq Qarabağ münaqişəsinə aid qərarlarında öz əksini tapmışdır.

Bununla bağlı ilk növbədə Dağlıq Qarabağ münaqişəsinə aid BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini göstərmək olar.

***Birləşmiş Millətlər Təşkilatı:*** BMT-nin Təhlükəsizlik Şurası 30 aprel 1993-cü ildə özünün qəbul etdiyi 822 (1993) saylı qətnaməsində Dağlıq Qarabağ münaqişəsinə dair BMT Təhlükəsizlik Şurası Sədrinin 29 yanvar və 6 aprel 1993-cü ildə edillmiş bəyanatlarına istinad edərək və BMT Baş Katibinin 14 aprel 1993-cü il tarixli məruzəsini nəzərə alaraq, regionda sülhə və təhlükəsizliyə təhlükə yaradan vəziyyətdən narahat olduğunu bildirərək, regionda, xüsusən Kəlbəcər rayonunda fövqəladə humanitar vəziyyətdən və çoxlu sayda mülki şəxslərin yerdəyişməsi ilə bağlı dərin narahatlığını bildirərək, regionda bütün dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmətini təsdiqləyərək və bununla yanaşı beynəlxalq sərhədlərin toxunulmazlığını və ərazi əldə edilməsi üçün gücdən istifadə





edilməsinin yolverilməzliyini təsdiqləyərək, bütün işğalçı qüvvələrin Kəlbəcər rayonundan və Azərbaycanın digər işğal edilmiş rayonlarından dərhal çıxarılmasını tələb etdi [11].

BMT Təhlükəsizlik Şurasının bu qətnaməsi böyük siyasi və hüquqi əhəmiyyətə malikdir.

*Birincisi,* Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair bu BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən ilk qətnamədir.

*İkincisi,* bu qətnamədə BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair münasibətinin ilk cizgiləri müəyyən edilib. Belə ki, qətnamədə BMT Təhlükəsizlik Şurası Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında münasibətlərin pisləşməsi ilə bağlı öz dərin narahatlığını bildirir. Çox guman ki, burada bu münaqişənin dövlətlərarası münaqişə olduğuna işarə edilir.

*Üçüncüsü,* bu münaqişənin xarakterinə qiymət verilir və bu münaqişə regionda sülhə və təhlükəsizliyə təhlükə yaradan hal kimi qiymətləndirilir.

*Dördüncüsü,* bu regionda olan bütün dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının ərazi bütövlüyünü, suverenliyini, sərhədlərinin toxunulmazlığını təsdiqləyir.

*Beşincisi,* ərazi əldə edilməsi üçün gücdən istifadə edilməsinin yolverilməzliyini təsdiqləyir.

Bununla da BMT Təhlükəsizlik Şurası gücdən istifadə etməklə başqa dövlətin ərazisinin əldə edilməsinin yolverilməzliyinin hüquqi əsasını müəyyən edir. Məhz bu hüquqi əsas BMT Təhlükəsizlik Şurasına Azərbaycanın bütün işğal edilmiş ərazilərindən işğalçı qüvvələrin dərhal çıxarılmasının tələb edilməsinə imkan yaratdı.

BMT-nin Təhlükəsizlik Şurası 29 iyul 1993-cü ildə qəbul etdiyi 853 (1993) saylı qətnamədə Azərbaycanın Ağdam rayonunun zəbt edilməsini qeyd edərək, yenidən Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü təsdiqləmişdir. BMT TŞ eyni zamanda beynəlxalq sərhədlərin toxunulmazlığını və ərazi əldə edilməsi üçün gücdən istifadə edilməsinin yolverilməzliyini

təsdiqləyərək, Ağdam rayonunun və Azərbaycan Respublikasının digər rayonlarının işğal edilməsi faktını pislədi və işğalçı qüvvələrin Ağdam rayonundan və bütün digər işğal edilmiş Azərbaycan rayonlarından dərhal, tam və şərtsiz çıxarılmasını tələb etdi. BMT Təhlükəsizlik Şurasının bu qətnaməsinin 9 bəndində "Azərbaycanın Dağlıq Qarabağ regionunun erməniləri" ifadəsi əks olunub və bunu xüsusi qeyd etmək çox vacibdir [12].

*Birincisi,* bu ifadə Dağlıq Qarabağın Azərbaycanın regionu olması faktını açıq-aşkar təsdiqləyir.

*İkincisi,* burada yaşayan əhali, ermənilərin iddia etdiyi kimi, mövcud olmayan "Dağlıq Qarabağ xalqı" yox, Azərbaycanın Dağlıq Qarabağ regionunda yaşayan ermənilərin, yəni erməni icmasının olduğunu təsdiqləyir (bu regionda yaşayan əhalinin digər hissəsini, Ermənistan Respublikasının silahli qüvvələri tərəfindən aparılmış etnik təmizləmə siyasəti nəticəsində, öz doğma yurdlarından qovulmuş və hal-hazırda didərgin həyatı yaşayan Azərbaycan icması təşkil edir).

*Üçüncüsü,* bu qətnamədə BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsində öz əksini tapmış "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında münasibətlərin pisləşməsi ilə bağlı öz dərin narahatlığının bildirilməsi" ifadəsinə "onların arasında artan gərginlik" sözlərini də əlavə olunmuşdur. Bu, BMT Təhlükəsizlik Şurası tərəfindən Dağlıq Qarabağ münaqişəsinin, öz təbiətinə görə, məhz dövlətlərarası münaqişənin olması faktının getdikcə daha aydın təsəffür etməsini əks etdirir.

*Dördüncüsü,* əgər BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsində "regionda, xüsusən Kəlbəcər rayonunda, fövqəladə humanitar vəziyyətdən və çoxlu sayda mülki şəxslərin yerdəyişməsi" ilə bağlı dərin narahatlığını bildirilirdisə, artıq bu ifadə daha da dəqiqləşdirilir və göstərilir ki, "regionda fövqəladə humanitar vəziyyətdən və Azərbaycanda çoxlu sayda mülki şəxslərin yerdəyişməsindən" dərin narahatlığını bildirir. Bununla da bu sənəddə göstərilir ki, əsasən Azərbaycan





mülki əhalisi "yerdəyişməyə", əslində isə etnik təmizlənməyə məruz qalıb.

*Beşincisi,* əgər BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsində bu regionda olan bütün dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsi təsdiqlənirdisə, BMT Təhlükəsizlik Şurasının 853 saylı qətnaməsində, ilk növbədə Azərbaycanın, sonra isə regionda olan digər ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsi təsdiqlənir. Lakin hərbi əməliyyatların bütövlükdə Azərbaycanın ərazisində aparıldığını nəzərə alsaq, belə bir qənaətə gəlmək olar ki, burada söhbət əsasən Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsindən gedir və bu amili BMT-nin Təhlükəsizlik Şurası xüsusi vurğulayır.

BMT-nin Təhlükəsizlik Şurası 14 oktyabr 1993-cu ildə özünün qəbul etdiyi 874 (1993) saylı qətnaməsində yenidən Azərbaycanın və regionda olan digər dövlətlərin suverenliyini və ərazi bütövlüyünü, beynəlxalq sərhədlərin toxunulmazlığını və ərazi əldə edilməsi üçün gücdən istifadə edilməsinin yolverilməzliyini təsdiqləyərək və Azərbaycanda çoxlu sayda mülki şəxslərin yerdəyişməsi ilə bağlı öz ciddi narahatlığını bildirərək, Azərbaycanın işğal olunmuş ərazilərindən erməni qüvvələrinin çıxarılmasına çağırdı. Bu qətnamənin preambulasında həm də "Azərbaycanın Dağlıq Qarabağ regionu və onun ətrafında münaqişə" ifadəsi öz əksini tapmışdır [13].

Bu ifadənin çox vacib əhəmiyyəti var. Burada söhbət təkcə Dağlıq Qarabağ regionunda olan münaqişədən getmir, həm də "onun ətrafında münaqişədən" gedir. Nəzərə alsaq ki, Dağlıq Qarabağın Ermənistanla heç bir ümumi sərhədi yoxdur, və Dağlıq Qarabağ regionu digər Azərbaycan torpaqları ilə əhatə olunur, belə bir nəticəyə gəlmək olar ki, söhbət artıq təkcə Dağlıq Qarabağdan yox, Ermənistan-Azərbaycan münaqişəsindən, daha doğrusu Ermənistanın Azərbaycana qarşı təcavüzündən gedir və bu fakta dolayısı olaraq qətnamədə işarə edilir.

BMT-nin Təhlükəsizlik Şurası 12 noyabr 1993-cu ildə özünün qəbul etdiyi 884 (1993) saylı qətnaməsində, Azərbaycanın Hora-

diz şəhərinin və Zəngilan rayonunun işğalını narahatçılıqla qeyd edərək, Azərbaycanın və regionda olan digər dövlətlərin suverenliyini və ərazi bütövlüyünü, həm də beynəlxalq sərhədlərin toxunulmazlığını və ərazi əldə edilməsi üçün gücdən istifadə edilməsinin yolverilməzliyini təsdiqləyərək, böyük sayda mülki şəxslərin son yerdəyişməsi halı və Horadiz şəhərində və Zəngilan rayonunda və Azərbaycanın cənub sərhədində yaranan fövqəladə humanitar vəziyyət ilə bağlı öz ciddi narahatlığını ifadə edərək, Horadiz şəhərinin və Zəngilan rayonunun işğal edilməsini, dinc əhaliyə hücumları və Azərbaycan Respublikası ərazisinin atəşə tutulmasını pislədi və işğalçı qüvvələrin Zəngilan rayonundan birtərəfli çıxardılmasını və ümumilikdə işğalçı qüvvələrin digər işğal olunmuş Azərbaycan rayonlarından çıxardılmasını tələb etdi.

Bu qətnamənin preambulasında da "Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və onun ətrafında münaqişə" ifadəsi öz əksini tapmışdır. Bundan əlavə, qətnamənin 2-ci bəndində həm də "Azərbaycanın Dağlıq Qarabağ regionunun erməniləri" ifadəsi də əks olunub [14].

Beləliklə, bu beynəlxalq-hüquqi sənədlərin təhlili belə bir nəticəyə gəlmək üçün əsas verir :

- BMT Təhlükəsizlik Şurası öz qətnamələrində birmənalı olaraq Dağlıq Qarabağ regionunun Azərbaycana məxsus olmasını təsdiqləyir.
- BMT Təhlükəsizlik Şurasının qətnamələrində Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və onun beynəlxalq səviyyədə tanınmış sərhədləri dəstəklənir. Bu qətnamələrdə digər dövlətlərin ərazisinin əldə edilməsi üçün gücdən istifadə olunmasının yolverilməzliyi xüsusi vurğulanır və erməni qüvvələri tərəfindən Azərbaycan ərazisinin işğalı və dinc əhaliyə qarşı hücumlar qətiyyətlə pislənir.
- BMT Təhlükəsizlik Şurasının qətnamələrində erməni işğalçı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal çıxardılması tələb olunur.

BMT Təhlükəsizlik Şurası ilə yanaşı Ermənistan-Azərbaycan





Dağlıq Qarabağ münaqişəsinə dair BMT Baş Assambleyası tərəfindən də bir neçə mühüm əhəmiyyətli qətnamə və qərar qəbul edilmişdir.

Qeyd etmək lazımdır ki, "Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu" ifadəsi BMT Baş Assambleyasının qətnamələrində də öz əksini tapmışdır. Belə ki, BMT Baş Assambleyası tərəfindən, baş komitələrə vermədən, qəbul olunmuş 16 yanvar 1998-ci il tarixli "Birləşmiş Millətlər Təşkilatı və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlıq haqqında" A/RES/52/22 saylı qətnamənin 16-cı bəndində "Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və onun ətrafında olan münaqişə" ifadəsi əks olunmuşdur [15]. Analoji ifadə BMT Baş Assambleyası tərəfindən 9 fevral 2000-ci ildə qəbul olunmuş A/RES/54/117 (bənd 16) [16], 2 mart 2001-ci ildə qəbul olunmuş A/RES/55/179 (bənd 15) [17], 14 fevral 2002-ci ildə qəbul olunmuş A/RES/56/216 (bənd 21) [18], 6 fevral 2003-cü ildə qəbul olunmuş A/RES/57/298 (bənd 26) qətnamələrdə öz əksini tapmışdır [19].

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə və bu münaqişə nəticəsində humanitar sahədə yaranmış ağır nəticələrin aradan qaldırılmasına dair BMT-nin Baş Assambleyası özünün 48-ci sessiyasının 20 dekabr 1993-cü ildə keçirilmiş 85-ci plenar iclasında "Azərbaycanda qaçqınlara və məcburi köçkünlərə fövqəladə beynəlxalq yardımın göstərilməsi haqqında" qətnamə qəbul etmişdir (sənəd A/RES/48/114) [20]. Bu sənəddə ilk dəfə BMT səviyyəsində etiraf edilir ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycanda humanitar vəziyyət ciddi şəkildə pisləşmiş və Azərbaycanda qaçqın və məcburi köçkünlərin sayı bir milyonu keçmişdir.

BMT Baş Assambleyası 7 sentyabr 2006-cı ildə keçirilmiş 61-ci sessiyasının 98-cı plenar iclasında 60/285 saylı "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnamə qəbul etmişdir. Bu qətnamə erməni işğalçılarının Qarabağda və ona bitişik olan ərazilərdə törətdikləri yanğınlarla bağlı yaranmış

vəziyyətə həsr olunmuşdur (sənəd A/60/L.60/Rev.2). BMT Baş Assambleyasının bu qətnaməsinin həm adında, həm də mətnində "Azərbaycanın işğal olunmuş əraziləri" ifadəsi öz əksini tapmışdır [21].

Qətnamənin adı çox məqamlardan məlumat verir. Qətnamənin adından göründüyü kimi bu sənəddə Azərbaycan torpaqlarının işğal olunması faktı etiraf edilir. "Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu" ifadəsi həm də BMT Baş Assambleyasının 14 mart 2008-ci ildə keçirilmiş 62 sessiyasında qəbul etdiyi "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" (sənəd A/62/L.42) adlı qətnaməsində də öz əksini tapmışdır. BMT Baş Assambleyasının bu qətnaməsini xüsusi qeyd etmək lazımdır. Qətnamədə onun beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə dəstək verilməsi və daimi hörmət edilməsi qeyd edilir, Azərbaycan Respublikasının bütün işğal olunmuş ərazilərindən erməni qüvvələrinin dərhal, tam və şərtsiz çıxarılması tələb olunur. Qətnamədə vurğulanır ki, heç bir dövlət Azərbaycan Respublikasının ərazilərinin işğal olunması nəticəsində yaranmış vəziyyəti qanuni saymamalıdır və belə vəziyyətin saxlanılmasına kömək etməməlidir [22]. Qətnamədə yenidən Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində onun ərazi bütövlüyünün dəstəklənməsinə və suverenliyinə daimi hörmət edilməsi bəyan edilir və Azərbaycan Respublikasının bütün işğal olunmuş ərazilərindən erməni qüvvələrinin qeyd-şərtsiz çıxardılması tələb olunur. Bu sənəddə həm də Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindən qovulmuş əhalinin öz evlərinə qayıtması onların ayrılmaz hüququ kimi təsdiqlənir və belə qayıdış üçün müdaxilədən zərərçəkmiş ərazilərin hərtərəfli reabilitasiyası da daxil olmaqla, bütün lazımi şəraitin yaradılması zərurəti qeyd olunur. Bununla yanaşı, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda erməni və azərbaycanlı icmaları üçün normal, təhlükəsizlik və bərabər yaşayış şəraitinin təmin edilməsi zərurəti etiraf edilir.





Göstərilir ki, bu regionda Azərbaycan Respublikasının hüdudları çərçivəsində özünüidarəetmənin effektiv demokratik sistemi üçün imkan yaradılacaqdır. Sənəddə həm də xüsusi qeyd olunur ki, Azərbaycan Respublikasının ərazilərinin işğal olunması nəticəsində yaranmış vəziyyətin qanuni olmasını heç bir dövlət tanımamalıdır və belə vəziyyətin saxlanılmasına kömək və ya yardım etməməlidir.

Qeyd etmək lazımdır ki, bu qətnamə birdəfəlik xarakter daşımır. Qətnamənin 8-ci bəndində BMT Baş Katibindən bu qətnamənin həyata keçirilməsinə dair hərtərəfli məruzə təqdim edilməsi xahişi əks olunmuşdur. Bundan əlavə, qətnamənin 9-cu bəndi "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı məsələni Baş Məclisin 63-cü sessiyasının gündəliyinə salınmasını nəzərdə tutur.

Onu da qeyd etmək lazımdır ki, bu qətnamələrlə yanaşı BMT Baş Assambleyası, Ermənistanın və onun himayədarlarının bütün əks hərəkətlərinə, tədbirlərinə baxmayaraq GUAM ölkələrinin təşəbbüsü ilə qaldırılmış keçmiş SSRİ ərazisində dondurulmuş münaqişələr haqqında "GUAM məkanında dondurulmuş münaqişələr və beynəlxalq sülhə, təhlükəsizliyə və inkişafa onların təsiri" adlı məsələnin 61-ci sessiyanın gündəliyinə salınması haqqında qərar qəbul etdi [23]. Sonradan bu məsələ BMT-nin Baş Assambleyasının 62-ci, daha sonra 63-cü və 64-cü sessiyalarının və yenidən 65-cü sessiyasının gündəliyinə salındı.

Yuxarıda qeyd edilənlərdən belə bir nəticəyə gəlmək olar ki, BMT Təhlükəsizlik Şurasının və Baş Assambleyasının rəsmi sənədlərində:

- Dağlıq Qarabağ Azərbaycanın bir regionu kimi tanınır. BMT-nin sənədlərində birmənalı olaraq Dağlıq Qarabağ regionunun Azərbaycana mənsub olması təsdiq edilir;
- Azərbaycan ərazilərinin işğal olunması faktı etiraf edilir;
- aparılmış etnik təmizləmə nəticəsində Azərbaycan əhalisinin qovulmasından sonra Dağlıq Qarabağ ərazisində qalmış əhali mövcüd olmayan "Dağlıq Qarabağ xalqı" kimi

yox, "Azərbaycanın Dağlıq Qarabağ regionunun erməniləri" kimi tanınır;

- regionda olan bütün dövlətlərin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazinin əldə edilməsi üçün gücdən istifadə edilməsinin yolverilməzliyi təsdiqlənir;

- Azərbaycanın işğal olunmuş bütün rayonlarından işğalçı qüvvələrin dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunur;

- Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindən qovulmuş əhalinin öz evlərinə qayıtmasına olan ayrılmaz hüququ təsdiqlənir və belə qayıdış üçün müdaxilədən zərərçəkmiş ərazilərin hərtərəfli reabilitasiyası da daxil olunmaqla, lazımi şəraitin yaradılması zərurəti qeyd olunur;

- Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda erməni və Azərbaycan icmaları üçün normal, təhlükəsiz və bərabər yaşayış şəraitinin təmin edilməsi zərurəti etiraf edilir;

xüsusi qeyd olunur ki, Azərbaycan Respublikasının ərazilərinin işğal olunması nəticəsində yaranmış vəziyyətin qanuni olmasını heç bir dövlət tanımamalıdır və belə vəziyyətin saxlanılmasına kömək və ya yardım etməməlidir.

***Avropa Şurası:*** Avropa Şurası Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında mühüm əhəmiyyət kəsb edən bir neçə qərar və qətnamə qəbul etmişdir. Avropa Şurasının bu qərarlarında bu nüfuzlu beynəlxalq təşkilatın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair mövqeyi əks olunur. Xüsusi məruzəçi Saytlinqerin 10 aprel 1997-ci il tarixli məruzəsi əsasında [24] 22 aprel 1997-ci ildə Avropa Şurası Parlament Assambleyası "Zaqafqaziyada münaqişələr haqqında" 1119(1997) saylı qətnamə qəbul etmişdir. Abxaziya və Dağlıq Qarabağ münaqişələrinə dair Assambleya qeyd etmişdir ki: "öz təbiətinə görə bu münaqişələr fərqlənsə də, Assambleya qeyd edir ki, onların siyasi nizamlanması 1975-ci il Helsinki Yekun Aktına və 1990-cı il Paris Xartiyasına əsaslanan aşağıdakı prinsiplərin: sərhədlərin toxunulmazlığı, xüsusən çoxmillətli sülhməramlı qüvvələrdən istifadə edərək bu regionda bütün insanların təhlükəsizliyinin təminatı, bütün maraqlı olan tərəflərin danışıqları əsasında Abxaziyaya və Dağlıq Qarabağa geniş muxtariyyət verilməsini, insan hüquqlarına riayət edilməsini nəzərə almaqla, qaçqınların və yaşayış yerlərini məcburi dəyişmiş şəxslərin öz evlərinə qayıtması hüququ və onların reinteqrasiya olunması əsasında münaqişəyə cəlb olunan bütün tərəflərin danışıq predmeti olmalıdır" [25].

Avropa Şurasının Parlament Assambleyasında (AŞPA) xüsusi məruzəçi D.Atkinsonun 29 noyabr 2004-cü ildə təqdim etdiyi məruzəsində (sənəd 10364) qeyd olunur ki, "Azərbaycan ərazisinin mühüm bir hissəsi hələ də erməni quvvələri tərəfindən işğal olunub". D.Atkinsonun məruzəsində xüsusi qeyd olunur ki, "Azərbaycanın sərhədləri ölkənin 1991-ci ildə müstəqil dövlət kimi tanınması anında beynəlxalq səviyyədə tanınmışdı. Azərbaycanın ərazisinə Dağlıq Qarabağ regionu da daxil idi" (b.5, bölmə III) [26].

Bu məruzənin əsasında AŞPA "ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişəyə dair" 1416 (2005) saylı qətnamə qəbul etmişdir. Qətnamədə AŞPA-nın Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasından təssüfləndiyi, yüz minlərlə insanın hələ də köçkün olması və acınacaqlı şəraitdə yaşaması, Azərbaycan ərazisinin əhəmiyyətli hissələrinin hələ də erməni qüvvələrinin işğalı altında olduğu və separatçı qüvvələrin hələ də Dağlıq Qarabağ bölgəsinə nəzarət etdiyi bildirilmişdir. Assambleya hərbi əməliyyatların və bundan əvvəl başlamış kütləvi etnik düşmənçiliyin qorxunc etnik təmizləmə anlayışını xatırladan genişmiqyaslı etnik qovulmalara və mono-etnik ərazilərin yaranmasına gətirib çıxarması ilə bağlı öz narahatlığını ifadə edərək bir daha təsdiq etmişdir ki, bir dövlətin ərazisindən regional ərazinin ayrılması və müstəqilliyi etnik təmizləmələrə və bu cür ərazinin digər dövlətə de-fakto birləşdirilməsinə gətirib çıxaran silahlı münaqişə yolu ilə deyil, yalnız bu ərazinin əhalisinin demokratik dəstəyinə əsaslanan qanuni və dinc proses vasitəsilə əldə oluna bilər. Assambleya qətnamədə Azərbaycan ərazisinin mü-

Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri

hüm bir hissəsinin Ermənistan quvvələri tərəfindən işğal olunmasına işarə edərək, təşkilatın hər hansı üzv dövləti tərəfindən xarici ərazinin işğalının həmin dövlətin Avropa Şurasının üzvü kimi öz üzərinə götürdüyü öhdəliklərin ciddi şəkildə pozulması demək olduğunu xatırlatmış və münaqişə ərazisindən köçkün düşmüş şəxslərin öz evlərinə təhlükəsiz və ləyaqətlə qayıtması hüququnu bir daha təsdiq etmişdir. Assambleya həmçinin Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 822(1993), 853(1993), 874(1993) və 884(1993) saylı Qətnamələrini xatırlatmış və tərəflərin silahlı əməliyyatlardan çəkinməklə və istənilən işğal olunmuş ərazilərdən silahlı qüvvələri çıxarmaqla onlara riayət olunmasını tələb edərək, AŞPA Bürosundan ATƏT-in Minsk konfransı ölkələrinin milli nümayəndə heyətlərinin başçılarının da daxil olduğu alt komitə yaratmağı xahiş etmişdir [27].

Qeyd edilməlidir ki, AŞPA-nın 1416 saylı qətnaməsi çox böyük əhəmiyyətə malikdir. Belə ki, İslam Konfransı Təşkilatından sonra AŞPA öz qərarında Ermənistanı Azərbaycanın ərazilərini işğal edən dövlət kimi göstərdi və faktiki bu dövləti Azərbaycana qarşı təcavüzdə ittiham etdi və bununla da ermənilərin münaqişə tərəflərinin yanlız Azərbaycan və Dağlıq Qarabağ separatçıları olması haqqında iddiasını təkzib etdi.

Ümumiyyətlə, Avropa Şurasının rəsmi sənədlərində Azərbaycan ərazilərinin Ermənistan hərbi birləşmələri tərəfindən işğal olunması faktı dəfələrlə qeyd edilmişdir. Bu prosesin davamı kimi 2006-cı il yanvar ayının 9-da AŞPA-nın Dağlıq Qarabağ problemi üzrə alt komitəsinin Strasburqda keçirilən növbəti iclasında mərhum Lord Rassel-Constonun hazırladığı hesabatda Azərbaycan ərazilərinin işğalı, Dağlıq Qarabağdakı rejimin separatçı olması, bir milyon azərbaycanlının yurdundan didərgin düşməsi və s. faktlar öz əksini tapdı. Lakin Ermənistan nümayəndə heyətinin qeyri-konstruktiv mövqe tutması nəticəsində AŞPA-nın 1416 saylı qətnaməsi əsasında Dağlıq Qarabağ münaqişəsi üzrə alt komitənin fəaliyyəti faktiki olaraq Lord Rassel-Constonun vəfatından sonra dayandırıldı. Alt komitənin fəaliyyətinin bərpa edilməsi barədə AŞ PA-da 2011-ci ildə qərar qəbul edilsə də, Ermənistan nümayəndə heyəti alt komitənin işinə qatılmaqdan imtina etmişdir və indiyədək onun fəaliyyətini boykot edir.

AŞPA 2008-ci ildə özünün yay sessiyasında bir daha Azərbaycanın ərazi bütövlüyünə öz dəstəyini göstərdi. AŞPA-nın bu sessiyasında 6 iyun 2008-ci ildə xüsusi məruzəçilər Andreas Herkel və Yevgeniya Jivkova tərəfindən edilmiş "Azərbaycanda demokratik institutların fəaliyyət göstərməsi haqqında" [28] məruzə əsasında 24 iyul 2008-ci ildə 1614 saylı eyniadlı qətnamə qəbul etmişdir. Bu qətnamənin 25.1 bəndində deyilir: "Assambleya hesab edir ki, ölkənin ərazi bütövlüyü bərpa edilməyənə qədər Azərbaycanda sabit demokratik inkişaf çox çətin olaçaqdır". AŞPA-nın 1614 saylı qətnaməsinin 25.2 bəndində deyilir ki, "Assambleya BMT-nin Baş Assambleyasının 14 mart 2008-ci tarixində qəbul edilmiş "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət haqqında"qətnaməsini nəzərə alır" [29].

Yuxarıda qeyd edildiyi kimi, BMT Baş Assambleyası özünün 14 mart 2008-ci il tarixli qətnaməsində Azərbaycanın Dağlıq Qarabağ regionu və onun ətrafında hərbi münaqişənin beynəlxalq sülhə və təhlükəsizliyə təhlükə yaratmaqda davam etməsindən öz ciddi narahatlığını bildirir, Azərbaycanın ərazi bütövlüyünü təsdiqləyir, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədlərinə dəstək verir və işğal olunmuş ərazilərdən erməni silahlı qüvvələrinin dərhal çıxardılmasını tələb edir [22]. Beləliklə, AŞPA BMT Baş Assambleyasının 14 mart 2008-ci il tarixli "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət haqqında"qətnaməsinə öz dəstəyini bildirdi, Dağlıq Qarabağ regionunun ərazi mənsubiyyətini Azərbaycana məxsus olduğunu təsdiqlədi və Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan hərbi qüvvələrinin dərhal çıxarılmasını tələb etdi.

***İslam Konfransı Təşkilatı*** (hazırda: İslam Əməkdaşlıq Təşkilatı **- Müəllif)** İslam Konfransı Təşkilatı Azərbaycana qarşı erməni təcavüzünü daim pisləyir, öz qərarlarında Ermənistanı

təcavüzkar dövlət kimi qiymətləndirir, BMT-ni bu dövlətə qarşı sanksiyalar tətbiq etməyə çağırır və Ermənistandan Azərbaycanın bütün işğal olunmuş ərazilərindən öz silahlı qüvvələrinin dərhal, qeyd-şərtsiz və tam çıxardılmasını tələb edir.

İslam Konfransı Təşkilatı dünyanın ən vacib beynəlxalq hökumətlərarası regional təşkilatlarından biridir və ən nüfuzlu müsəlman hökumətlərarası regional təşkilatıdır. Ümumiyyətlə, İKT ona üzv olan dövlətlərin sayına görə Birləşmiş Millətlər Təşkilatından sonra dünyanın ikinci beynəlxalq hökumətlərarası təşkilatıdır. Hal-hazırda İKT dörd qitədə — Asiyada, Avropada, Afrikada və Cənubi Amerikada yerləşən, əhalisinin ümumi sayını 1,5 milyard insan təşkil edən 57 ölkəni birləşdirir. İKT-nin müasir beynəlxalq əlaqələr sistemində xüsusi yeri BMT və İKT arasında əməkdaşlıq haqqında bağlanmış müqavilədə də əks olunur.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair İKT tərəfindən, o cümlədən İKT-yə üzv ölkələrinin dövlət və hökumət başçılarının zirvə görüşlərində (sammitlərində) və xarici işlər nazirləri səviyyəsində çoxsaylı qətnamə və qərarlar qəbul olunmuşdur.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair müddəalar İKT ali orqanı - üzv ölkələrinin dövlət və hökumət başçılarının zirvə görüşlərində qəbul olunmuş bir sıra sənədlərdə öz əksini tapmışdır. Onların içində 13-15 dekabr 1994-cü ildə Kasablanka şəhəri, Mərakeş Krallığında keçirilmiş İKT-nin yeddinci zirvə görüşünün sənədlərini [30] və 9-11 dekabr 1997-ci ildə Tehran şəhəri, İran İslam Respublikasında keçirilmiş İKT-nin səkkizinci zirvə görüşünün sənədlərini [31], 2000-ci ilin 12-13 noyabr tarixində Qətərin Doha şəhərində keçirilmiş İKT Doqquzuncu Zirvə Görüşündə [32], 2003-cü ilin oktyabr ayında İKT Onuncu Zirvə Görüşündə (Putrajaya, Malayziya) qəbul olunmuş Yekun Kommunikeni (33-cü bənd) [33], 2005-ci ilin dekabr ayında İKT Üçüncü Fövqəladə Zirvə Görüşündə (Məkkə, Səudi Ərəbistan) qəbul olunmuş Yekun





Kommunikeni [34], 2008-ci ilin mart ayında İKT On birinci Zirvə Görüşündə (Dakar, Seneqal Respublikası) qəbul olunmuş Yekun Kommunikeni (61-ci bənd) [35] göstərmək olar.

Bununla yanaşı, Doqquzuncu Zirvə Görüşündə (Doha, Qatar) qəbul olunmuş 21/9-P(IS) saylı "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü" adlı qətnaməni, 21/9-E (IS) saylı "Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında" qətnaməni, 25/9-C saylı "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində İslam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında" qətnaməni, Onuncu Zirvə Görüşündə (Putrajaya, Malayziyada) qəbul olunmuş 12/10-P (IS) saylı "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" qətnaməni, 21/10-E (IS) saylı "Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında" qətnaməni, mədəniyyət məsələləri mövzusuna dair Mədəniyyət və İslam işləri üzrə qətnamələrin (j) "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində İslam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında"qətnaməni, On Birinci Zirvə Görüşündə (Dakar, Seneqal Respublikası) qəbul olunmuş 10/11-P(IS) saylı "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" qətnaməni, 2/11-E(İS) saylı "Üzv dövlətlərə və İKT-yə üzv olmayan ölkələrə və müsəlman icmalarına iqtisadi yardım edilməsinə aid fəaliyyət haqqında" qətnaməsinin "Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi" bölməsini, mədəniyyat və sosial məsələlər üzrə qətnamələrdə 2/11-C (İS) saylı "İslam müqəddəs yerlərinin müdafiəsi haqqında"qətnaməni də göstərmək olar.

Bundan əlavə, ümumiyyətlə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair müddəalar İKT Xarici İşlər Nazirləri Şurasının sessiyalarında qəbul olunmuş müxtəlif sənədlərdə, o cümlədən yekun kommunikelər və bəyanatlarda və çoxsaylı qətnamələrdə öz əksini tapmışdır.

Seneqalın paytaxtı Dakar şəhərində İKT Dövlət və Hökumət Başçılarının 13-14 mart 2008-ci ildə keçirilmiş XI zirvə görüşündə İKT-nın ikinci və hal-hazırda qüvvədə olan Nizamnaməsi qəbul olunmuşdur. Bu Nizamnamə 18 fəsildə 39 maddə birləşdirir. İKT Nizamnaməsinin 1-ci fəslin 1-ci maddəsinin 4-cü bəndində, Azərbaycanın səyləri nəticəsində işğal altında olan dövlətlərin öz ərazi bütövlüyünü bərpa etməsi hüququnun üzv dövlətlər tərəfindən birmənalı dəstəklənməsi barədə müddəa təsbit edildi. Bu isə, öz növbəsində, ölkəmiz üçün gələcək xarici siyasət kursunun istiqamətləndirilməsinin hüquqi bazasının möhkəmləndirilməsində müstəsna əhəmiyyət kəsb edir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair müddəalar İKT-yə üzv ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşlərində qəbul olunmuş müxtəlif sənədlərlə yanaşı, həm də İKT Xarici İşlər Nazirləri Şurasının sessiyalarında qəbul olunmuş müxtəlif sənədlərdə, o cümlədən yekun kommunike və bəyanatlarda və çoxsaylı qətnamələrdə də öz əksini tapmışdır. Burada onların bir neçəsini göstərmək olar:

İKT Xarici İşlər Nazirləri Şurasının Türkiyənin İstanbul şəhərində 17-18 iyun 1992-ci ildə keçirilmiş 5-ci fövqəladə sessiyasının Yekun Kommunikesinin 15-ci bəndi; 7-9 sentyabr 1994-ci ildə Pakistan İslam Respublikasının İslamabad şəhərində keçirilmiş İKT Xarici İşlər Nazirləri Şurasının 7-ci fövqəladə sessiyasının Yekun Kommunikesinin "Ermənistan və Azərbaycan arasında münaqişə" bölməsinin 64, 65, 66, 67, 68, 69, 70-ci bəndləri və "Ermənistan və Azərbaycan arasında münaqişə haqqında" 5/7-EX saylı Qətnamə; 25-29 aprel 1993-cü ildə Pakistan İslam Respublikasının Kəraçi şəhərində keçirilmiş İKT Xarici İşlər Nazirləri Şurasının 21-ci sessiyasının Yekun Kommunikesinin 44 bəndi və "Ermənistan və Azərbaycan arasında münaqişə haqqında" 12/21-P saylı Qətnamə; 10-12 Dekabr 1994-cü ildə Mərakeş Krallığının Kasablanka şəhərində keçirilmiş İKT Xarici İşlər Nazirləri Şurasının 22-ci sessiyasının Yekun Kommunikesinin: Azərbaycan-Ermənistan bölməsinin 70, 71, 72, 73-cü bəndləri və, bununla yanaşı, "Ermənistan və





Azərbaycan arasında münaqişə haqqında" 11/22-P saylı və "Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında" 16/22-E saylı Qətnamələr; 9-13 dekabr 1996-cı ildə İndoneziya Respublikasının Cakarta şəhərində keçirilmiş İKT Xarici İşlər Nazirləri Şurasının 24-cü sessiyasının Yekun Kommunikesinin "B. Siyasi məsələlər: Ermənistanın Azərbaycana qarşı təcavüzü" fəslinin 80-85-ci bəndləri və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" 12/24-P saylı və "Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında" 18/24-E saylı Qətnamələr; 15-17 mart 1998-ci ildə Qatarın paytaxtı Dohada keçirilmiş İKT Xarici İşlər Nazirləri Şurasının 25-ci sessiyasının Yekun Kommunikesinin "Ermənistanın Azərbaycana qarşı təcavüzü" fəslinin 63-cü bəndi və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" 13/25-P saylı və "Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında" 18/25-E saylı Qətnamələr; 27-30 iyun 2000-ci ildə Malayziyanın paytaxtı Kuala Lumpurda keçirilmiş İKT Xarici İşlər Nazirləri Şurasının 27-ci sessiyasının Yekun Kommunikesinin "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü" fəslinin 72-ci bəndini və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" 17/27-P saylı və "Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında" 20/27-E saylı və "Ermənistanın Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün nəticəsi kimi Azərbaycanın işğal olunmuş ərazilərində İslam tarixi və mədəniyyət abidələrinin və müqəddəs yerlərin məhv edilməsi və dağıdılması haqqında" 25/27-C saylı Qətnamələr; 25-27 iyun 2002-ci ildə Sudan Respublikasının paytaxtı Xartumda keçirilmiş İKT Xarici İşlər Nazirləri Şurasının 29-cu sessiyasının Yekun Kommunikesinin 37-ci bəndi və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" 20/29-P saylı və "Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında" 21/29-E saylı və "Ermənistanın Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün

nəticəsi kimi Azərbaycanın işğal olunmuş ərazilərində İslam tarixi və mədəniyyət abidələrinin və müqəddəs yerlərin məhv edilməsi və dağıdılması haqqında" 11/29-C saylı Qətnamələr; 28-30 may 2003-cü ildə Tehranda (İran İslam Respublikası) keçirilmiş İKT Xarici İşlər Nazirləri Şurasının 30-cu sessiyasının Yekun Kommunikesinin 41-ci bəndi və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" 13/30-P saylı və "Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında" 21/30-E saylı və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün nəticəsi kimi Azərbaycanın işğal olunmuş ərazilərində İslam tarixi və mədəniyyət abidələrinin və müqəddəs yerlərin məhv edilməsi və dağıdılması haqqında" 10/30-C saylı Qətnamələr; 28-30 iyun 2005-ci ildə Yəmən Respublikasının Səna şəhərində keçirilmiş İKT Xarici İşlər Nazirləri Şurasının 32-ci sessiyasının Yekun Kommunikesinin 40 və 41-ci bəndləri və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" 9/32-P saylı və "Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında" 10/32-E saylı Qətnamələr və "İslam müqəddəs yerlərinin qorunması haqqında" 2/32-C saylı qətnamənin "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün nəticəsi kimi Azərbaycanın işğal olunmuş ərazilərində İslam tarixi və mədəniyyət abidələrinin və müqəddəs yerlərin məhv edilməsi və dağıdılması haqqında" bölməsi; 19-21 iyul 2006-cı ildə Bakı, Azərbaycan Respublikasında keçirilmiş İKT Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasının Bakı Bəyannaməsinin 14-cü bəndi və Yekun Kommunikesinin 45 və 46-ci bəndləri və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" 9/33-P saylı və "Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında" 10/33-E saylı Qətnamələr və "İslam müqəddəs yerlərinin qorunması haqqında" 2/33-C saylı Qətnamənin "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün nəticəsi kimi Azərbaycanın işğal olunmuş ərazilərində İslam tarixi və mədəniyyət abidələrinin





və müqəddəs yerlərin məhv edilməsi və dağıdılması haqqında" bölməsi; İKT-nin Baş Katibinin "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" məruzəsi; 18-20 iyun 2008-ci ildə Uqandanın paytaxtı Kampalada keçirilmiş İKT Xarici İşlər Nazirləri Şurasının 35-ci sessiyasının Kampala Bəyannaməsinin 25-ci bəndi və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" 6/35-P saylı və İKT-yə üzv ölan və üzv olmayan ölkələrə və müsəlman icmalarına iqtisadi yardımın göstərilməsinə aid fəaliyyət haqqında" 3/35-E saylı qətnamənin Azərbaycan Respublikasına iqtisadi yardımın göstərilməsi haqqında bölməsi və "İslam müqəddəs yerlərinin qorunması haqqında" 3/35-C saylı qətnamənin "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün nəticəsi kimi Azərbaycanın işğal olunmuş ərazilərində İslam tarixi və mədəniyyət abidələrinin və müqəddəs yerlərin məhv edilməsi və dağıdılması haqqında" bölməsi; 23-25 may 2009-cu ildə Dəməşq, Suriya Ərəb Respublikasında keçirilmiş İKT Xarici İşlər Nazirləri Şurasının 36-cı sessiyasının "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" 9/36-P saylı və İKT-yə üzv ölan və üzv olmayan ölkələrə və müsəlman icmalarına iqtisadi yardımın göstərilməsinə aid fəaliyyət haqqında" 3/36-E saylı qətnamənin Azərbaycan Respublikasına iqtisadi yardımın göstərilməsi haqqında bölməsi və "İslam müqəddəs yerlərinin qorunması haqqında" 3/35-C saylı qətnamənin Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün nəticəsi kimi Azərbaycanın işğal olunmuş ərazilərində İslam tarixi və mədəniyyət abidələrinin və müqəddəs yerlərin məhv edilməsi və dağıdılması haqqında" bölməsi; 18-20 may 2010-cu ildə Düşənbə, Tacikistan Respublikasında keçirilmiş İslam Konfransı Təşkilatı Xarici İşlər Nazirləri Şurasının 36-cı sessiyasının Düşənbə Bəyannaməsinin müddəaları və "Ermənistan Respublikasınm Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" 10/37-P saylı qətnaməsi və İKT-yə üzv ölan və üzv olmayan ölkələrə və müsəlman icmalarına iqtisadi yardımın

göstərilməsinə aid fəaliyyət haqqında" 6/37-E saylı qətnamənin Azərbaycan Respublikasına iqtisadi yardımın göstərilməsi haqqında bölməsi və "İslam müqəddəs yerlərinin qorunması haqqında"2/37-C saylı qətnamənin "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün nəticəsi kimi Azərbaycanın işğal olunmuş ərazilərində İslam tarixi və mədəniyyət abidələrinin və müqəddəs yerlərin məhv edilməsi və dağıdılması haqqında" bölməsi.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair İKT-də qəbul olunmuş qərarlar və qətnamələrin müəyyən təsnifatını aparmaq olar:

1."Ermənistanla Azərbaycan arasında münaqişə haqqında" və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" qətnaınələr;

2. "Azərbaycan Respublikasına İqtisadi yardım göstərilməsi haqqında" qətnamələr;

3. "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində İslam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında" Qətnamələr.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair İKT tərəfindən qəbul olunmuş sənədlərin, o cümlədən qərarların və qətnamələrin məzmununu qısaca ifadə edərək, aşağıdakı nəticələrə gəlmək olar:

- *birincisi*, İKT Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal olunması faktını təsdiq edir (məsələn, bax 13-15 dekabr 1994 –ci ildə Kasablanka, Mərakeşdə keçirilmiş İKT VII sammitinin Yekun kommünikesinin 8 bəndi; 12-13 noyabr 2000-ci ildə Doha, Qətərdə keçirilmiş İKT IX sammitinin Yekun kommünikesinin 61 bəndi; 16-17 oktyabr 2003-cü ildə Malayziyada keçirilmiş İKT X sammitinin Yekun kommünikesinin 33 bəndi; 13-14 mart 2008-ci ildə Dakar, Seneqal Respublikasında keçirilmiş İKT XI sammitinin Yekun Kommünikesinin 61 bəndi və s.);

- *ikincisi*, İKT Azərbaycan Respublikasına qarşı Ermənistanın təcavüzünü qətiyyətlə pisləyir və bu təcavüzə son qoyulma-





sını tələb edir və bununla yanaşı həm də Ermənistanın silahlı qüvvələrinin bütün işğal olunmuş Azərbaycan torpaqlarından dərhal, tam və şərtsiz çıxarılmasını tələb edir;

- *üçüncüsü*, İKT Ermənistanı təcavüzkar kimi tanıyaraq, BMT-nin Təhlükəsizlik Surasına Azərbaycana qarşı təcavüzün baş verməsi faktının tanınması və BMT-nin Nizamnaməsinin VII fəslinə uyğun olaraq BMT Təhlükəsizlik Surası tərəfindən özünün əvvəllər qəbul etdiyi qərarlarının təmin edilməsi məqsədilə müvafiq addımların atılması üçün müraciət etdi. Ermənistan tərəfindən müasir beynəlxalq hüquq norma və prinsiplərinin pozulması bu dövlətin beynəlxalq-hüquqi məsuliyyətini yaradır. Bu halda həmin dövlətə qarşı BMT-nin Nizamnaməsinə uyğun olaraq BMT Təhlükəsizlik Surası tərəfindən beynəlxalq-hüquqi məcburetmə tədbirləri sisteminin tətbiq edilməsi tam hüquqauyğundur;

- *dördüncüsü*, İKT tərəfindən Ermənistanın təcavüzkar dövlət kimi tanınması o demək idi ki, Ermənistan Respublikası birbaşa Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin iştirakçısıdır. Bu fakt sonradan 2 dekabr 2008-ci ildə imzalanmış Moskva Bəyannaməsində öz əksini tapmışdır. Bu faktın beynəlxalq-hüquqi sənədlərdə əks olunmasının böyük əhəmiyyətı var. Belə ki, bu faktın etiraf edilməsi, guya ki, münaqişənin Azərbaycan və "Dağlıq Qarabağ", mərkəz və əyalət arasında baş verməsinə dair erməni tərəfinin konsepsiyasının əsassız olmasını bir daha sübut edir;

- *beşincisi*, İKT Ermənistanın silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazisində Azərbaycan əhalisinə qarşı edilmiş hərəkətləri insanlığa qarşı törədilmiş cinayətlər kimi qiymətləndirir. Bu fakt işğal olunmuş Azərbaycan ərazisində azərbaycanlı əhaliyə qarşı törədilmiş cinayətlərdə, o cümlədən Xocalıda mülki əhaliyə qarşı soyqırımın həyata keçirilməsində əli olan Ermənistanın rəsmi və vəzifəli şəxslərinin məsuliyyətə cəlb edilməsinin zərurətinə dair məsələnin qoyuluşu haqqında hüquqi əsaslar verir;

- *altıncısı*, İKT Ermənistan və Azərbaycan arasında

münaqişənin ədalətli və dinc yolla nizamlanmasının əsas prinsiplərini müəyyən edir. Bunlar dövlətlərin ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsipləridir;

- *yeddincisi*, İKT Ermənistanın hər hansı bir qanunsuz iqtisadi fəaliyyətinə və Azərbaycanın işğal olunmuş ərazilərində təbii resursların istismarına və İslam abidələri daxil olmaqla, Azərbaycanın mədəni və tarixi abidələrinin dağıdılması praktikasına son qoyulması zərurətini qeyd edir;

- *səkkizincisi*, İKT yuxarıda qeyd olunan məqsədin həyata keçirilməsi üçün təşkilata üzv olan ölkələr tərəfindən əlaqələndirici addımların atılmasına dair qərar qəbul etmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, İKT öz qərarlarında Azərbaycan xalqı ilə digər beynəlxalq təşkilatlar çərçivəsində də öz həmrəyliyini göstərmək zərurətini qeyd edir. Belə ki, İKT-nın XI sammitinin kommünikesinin 61-ci bəndində qeyd olunur ki, İKT Azərbaycanın təşəbbüsü ilə irəli sürülmüş BMT Baş Assambleyasının "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı layihəsinə öz dəstəyinin gücləndirilməsi zərurətinə razılığını ifadə etmişdir.

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, İKT qərarlarında və qətnamələrində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə ədalətli beynəlxalq-hüquqi qiymət verilir və bu münaqişənin nizamlanmasının beynəlxalq-hüquqi əsasları müəyyən edilir.

***Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT):*** Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ATƏT-in diqqət mərkəzində saxladığı məsələlərdən biri olmuşdur. Bu təşkilat münaqişənin həlli prosesində vasitəçilik missiyasını öz üzərinə götürmüş və bu istiqamətdə irəliləyişlər əldə olunması üçün müəyyən addımlar atmışdır. 1992-ci ilin fevralında ATƏM-in ilk missiyası Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair məruzə hazırlamaq məqsədilə Azərbaycana gəldi. Missiyanın məruzəsi Yüksək Vəzifəli Şəxslər Komitəsinin (YVŞK) fevral ayında Praqa şəhərində keçirilən iclasına təqdim






olundu. Bu məruzədə Dağlıq Qarabağın Azərbaycan ərazisi olması faktı bir daha təsdiqlənirdi. YVŞK münaqişənin nizamlanmasına sülh yolu ilə nail olmağın zəruriliyini də bəyan etmişdi. Martın 24-də ATƏM-in Xarici İşlər Nazirləri Şurası vəziyyəti müzakirə edərək münaqişənin sülh yolu ilə nizamlanmasını təmin etmək üçün YVŞK-nin zəmanəti əsasında Dağlıq Qarabağa dair sülh konfransının çağırılması barədə qərar qəbul etdi. Həmin il martın 24-də Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, danışıqlar vasitəsi ilə həlli üçün ATƏT-in Minsk qrupu yaradıldı. Konfransda ABŞ, Fransa, Almaniya, İtaliya, Türkiyə, Çexiya-Slovakiya, Belarus, İsveç, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı nəzərdə tutulurdu. 1992-ci ilin mayında ATƏM-in Yüksək Vəzifəli Şəxslər Komitəsi tərəfindən konfransın təşkili və iclasın keçirilməsi şərtləri, eləcə də sədrin səlahiyyətlərini müəyyənləşdirən qərar qəbul olundu. Minsk Konfransının keçirilməsi üçün yaradılan Minsk qrupu münaqişənin həlli prosesində iştirak etməli və nəticədə Minskdə bu münaqişənin həllinə dair yekun sənəd qəbul olunmalı idi [36].

ATƏT-in Nazirlər Şurası Dağlıq Qarabağda və onun ətrafında silahlı münaqişənin genişlənməsinin davam etməsi və bunun nəticəsində əhali arasında əziyyət çəkənlərin və insan tələfatının artması ilə əlaqədar dərin narahatlığını ifadə edirdi. Nazirlər Şurası münaqişənin davam etməsinin və daha da genişlənməsinin regional və beynəlxalq təhlükəsizliyə göstərə biləcəyi təsiri nəzərə alaraq, münaqişənin aradan qaldırılması yolları və vasitələrini geniş şəkildə müzakirəyə çıxardı, bütün tərəfləri təmkinli olmağa dəvət etdi. Nazirlər Şurası yenidən ən qəti şəkildə cavabdeh yerli komandirləri onların aktiv iştirakı ilə həyata keçirilməi təcili və effektiv atəşkəsə çağırdı. Siyasi və iqtisadi təzyiq tədbirlərinin dayandırılması da daxil olmaqla, etibarlı mühit və konstruktiv dialoq şəraitinin bərpa edilməsi çağırışı ilə müraciət etdi. Nazirlər Şurasında ATƏM çərçivəsində həyata keçirilən fəaliyyət nəzərdən keçirildi və YVŞK-in qəbul etdiyi qərarlar bütövlükdə bəyənildi. NK bu-

nunla əlaqədar gördüyü tədbirlərə görə ATƏM-in fəaliyyətdə olan sədrinə minnətdarlıq ifadə edərək lazım olduqda ona bütün mümkün olan yardımı göstərməyə hazır olduğunu bəyan etdi. Nazirlər Şurası Avropa Birliyi və onun üzv dövlətləri, Müstəqil Dövlətlər Birliyinin üzv dövlətləri, Şimali Atlantika Əməkdaşlıq Şurasının üzvləri və, xüsusilə, Birləşmiş Millətlər Təşkilatının Baş Katibi tərəfindən həyata keçirilən bir-birini tamamlayan səyləri alqışlayırdı. NK bununla əlaqədar ATƏM-in Fəaliyyətdə olan sədrindən Birləşmiş Millətlər Təşkilatı ilə sıx əlaqə saxlamağı və mütəmadi məlumat mübadiləsi təşkil etməyi xahiş etdi. Razılığa gəlindi ki, ATƏM bu münaqişə ilə bağlı sülh prosesinin inkişafı işində əsas rol oynamalıdır. Həmçinin, Dağlıq Qarabağda və onun ətrafında mövcud olan vəziyyət ATƏM tərəfindən növbəti tədbirlərin həyata keçirilməsini tələb edir. Nazirlər Şurası ATƏM-in Nazirlər Şurasının fəaliyyətdə olan sədri cənab İrci Dinstbirə, xüsusilə effektiv atəşkəsin əldə olunması və qorunub saxlanılması, həmçinin məsələnin sülh yolu ilə hərtərəfli nizamlanması üçün çərçivənin yaradılmasına kömək məqsədilə yaxın vaxtlarda regiona səfər etməyi tapşırdı. Nazirlər Şurası qəti əminlik ifadə edirdi ki, ATƏM-in himayəsi altında Dağlıq Qarabağ üzrə konfrans böhranın ATƏM-in prinsipləri, öhdəlikləri və müddəaları əsasında sülh yolu ilə nizama salınması məqsədilə danışıqlar üçün fəaliyyət göstərən forumu təmin edəcək. Nazirlər bununla əlaqədar ATƏM-in Nazirlər Şurasının fəaliyyətdə olan sədrindən mümkün qədər tez bir zamanda belə konfransı keçirməyi xahiş etdilər. Bundan əlavə nazirlər razılaşdılar ki, Minskdə keçiriləcək bu konfransın iştirakçıları Ermənistan, Azərbaycan, Belarus, Çexiya və Slovakiya Federativ Respublikası, Fransa, Almaniya, İtaliya, Rusiya Federasiyası, İsveç, Türkiyə və Amerika Birləşmiş Ştatları olacaq. Dağlıq Qarabağın seçilmiş və digər nümayəndələri maraqlı tərəf kimi konfransa onun Sədri tərəfindən iştirakçı dövlətlərlə məsləhətləşmələrdən sonra dəvət olunacaqlar. ATƏM-in Nazirlər Şurasının fəaliyyətdə olan sədri ATƏM-in himayəsi altında Dağlıq Qarabağ üzrə konfransın sədrini təyin edəcək.






Nazirlər Şurası ATƏM-in bütün iştirakçı dövlətlərini və bütün maraqlı tərəfləri beynəlxalq nəzarət altında olan təhlükəsiz dəhlizlər daxil olmaqla surətli və effektiv vasitələrdən istifadə edərək, humanitar yardımla ona ehtiyacı olanların təmin edilməsi üçün bütün lazımi addımların atılmasına təkidlə çağırdı. Nazirlər Şurası Ermənistan və Azərbaycanın ATƏM-in fəaliyyətdə olan sədrinin bu regiona missiyasına, həmçinin ATƏM şurasının razılaşdığı bütün fəaliyyətə tam kömək etmək öhdəliyini nəzərə aldı və məsələnin davamlı, sülh yolu ilə həll olunmasına nail olmaq məqsədilə hər iki tərəfi bu öhdəliyi fəal şəkildə yerinə yetirməyə dəvət etdi [36].

1994-cü ilin dekabrında Budapeştdə ATƏM üzvü olan ölkələrin dövlət və hökumət başçılarının növbəti Zirvə Görüşü keçirildi. Zirvə toplantısının iştirakçıları Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini də müzakirə edərək bu barədə qəbul olunmuş sənədlərə müvafiq bölmənin salınmasına razılıq verdilər. Dağlıq Qarabağ münaqişəsinə bu sənədin Regional Məsələlər hissəsində "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi" adlı bölmə həsr edilmişdir. Bu bölmədə tərəflər arasında atəşkəsin əldə edilməsi alqışlanır və ATƏM-in fəaliyyətdə olan sədrinə Minsk Konfransı həmsədrlərinin təyin edilməsi tapşırılmışdır. Sənəddə deyilir: "Münaqişənin davam etməsi və bunun nəticəsində baş verən insan faciəsindən təəssüfləndiklərini ifadə edərək, iştirakçı dövlətlər ATƏM-in Minsk qrupu ilə əməkdaşlıqda Rusiya Federasiyasının vasitəçilik səyləri nəticəsində 1994-cü il mayın 12-də razılaşdırılmış atəşkəsi münaqişə tərəflərinin təsdiqlədiyini alqışlayırlar. Onlar Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə sadiq qaldıqlarını təsdiqləyir və ATƏM-in münaqişənin sülh yolu ilə nizamlanmasına yönəlmiş səylərinə Təhlükəsizlik Şurasının göstərdiyi siyasi dəstəyi alqışlayırlar. Bu məqsədlə onlar münaqişə tərəflərini birbaşa əlaqələr daxil olmaqla məsələnin mahiyyətinə dair daha intensiv danışıqlara çağırırlar. Bu mənada onlar ATƏM-in səyləri və köməyini ikiqat gücləndirəcəklərinə söz verirlər. Onlar ATƏM-

in Minsk qrupunun vasitəçilik səylərini qəti şəkildə bəyənir və Rusiya Federasiyasının həlledici yardımını və Minsk qrupunun digər fərdi üzvlərinin səylərini yüksək qiymətləndirirlər. Onlar bu səyləri ATƏM çərçivəsində əlaqələndirərək bir araya gətirmək qərarına gəlmişlər. Bu məqsədlə danışıqlar üçün vahid və razılaşdırılmış baza yaratmaq, həmçinin bütün vasitəçilik və danışıqlar fəaliyyətinin tam şəkildə əlaqələndirilməsini təmin etmək məqsədilə, fəaliyyətdə olan sədrə, iştirakçı dövlətlərlə məsləhətləşmələr əsasında və mümkün qədər tez hərəkət etməklə, Minsk qrupunun həmsədrlərini təyin etməyi tapşırırlar. Həmsədrlər bütün danışıqlar səylərində ATƏM prinsiplərini və razılaşdırılmış mandatı əsas tutaraq, Minsk qrupunun görüşlərində birlikdə həmsədrlik və fəaliyyətdə olan sədrə birlikdə məruzə edəcəklər. Onlar işlərinin gedişi barəsində Daimi Şuraya müntəzəm olaraq məlumat verəcəklər. Bu səylər çərçivəsində ilk addım kimi, mövcud atəşkəsin davam etdirilməsinə kömək etmək məqsədilə Rusiya Federasiyasının və Minsk qrupunun digər fərdi üzvlərinin dəstəyilə və onlarla əməkdaşlıq şəraitində təcili tədbirlərin görülməsini və əvvəllər vasitəçilik fəaliyyəti zamanı əldə olunmuş irəliləyişə əsaslanaraq həyata keçirilməsi bütün tərəflər üçün münaqişənin əsas nəticələrini aradan qaldırmağa və Minsk Konfransını çağırmağa imkan verəcək silahlı münaqişənin dayandırılması haqqında siyasi sazişin imzalanması məqsədilə tezliklə danışıqlar aparmağı Minsk qrupunun həmsədrlərinə tapşırırlar. Daha sonra onlar Minsk Konfransının həmsədrlərindən, xüsusilə humanitar sahədə, inamın möhkəmləndirilməsi tədbirlərinin həyata keçirilməsi istiqamətində münaqişə tərəfləri ilə birgə işi davam etdirməyi xahiş edirlər. Onlar iştirakçı dövlətlər tərəfindən həm fərdi əsasda, həm də müvafiq beynəlxalq təşkilatlar çərçivəsində qaçqınların acınacaqlı vəziyyətini yüngülləşdirməyə xüsusi diqqət yetirmək şərtilə regionun əhalisinə humanitar yardımın göstərilməsi üzrə tədbirlərin həyata keçirilməsinin vacibliyini qeyd edirlər" [37].

Sənəddə münaqişənin həlli üçün sülhməramlı qüvvələrin





göndərilməsinin zəruriliyi də öz əksini tapmışdı. Belə ki, sənədə görə onlar razılaşırdılar ki, münaqişə tərəflərinin fikirlərinə uyğun olaraq yuxarıda qeyd olunan sazişin əldə edilməsi həmin sazişin həyata keçirilməsinin vacib elementi kimi çoxmillətli sülhməramlı qüvvələrin yerləşdirilməsinə imkan verə bilər və silahlı münaqişənin dayandırılması haqqında tərəflər arasında sazişin əldə edilməsindən sonra, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnaməsinin qəbul edilməsi şərtilə, ATƏM-i çoxmillətli sülhməramlı qüvvələrlə təmin etmək üçün siyasi hazırlıqlarını bəyan edirlər. Onlar fəaliyyətdə olan sədrdən 1992-ci il Helsinki sənədinin III fəsli əsasında və BMT Nizamnaməsinə tam uyğun olaraq təşkil ediləcək belə qüvvələrin yaradılması, tərkibi və fəaliyyəti barəsində qısa zaman ərzində plan işləyib hazırlamağı xahiş etdilər. Bu məqsədlə fəaliyyətdə olan sədrə Minsk Konfransı həmsədrləri və Minsk qrupu, həmçinin Baş Katib tərəfindən kömək ediləcək; müvafiq məsləhətləşmələrdən sonra o, həmçinin bu qüvvələrin, başqa məsələlərlə yanaşı, ölçüsü və xarakteri, onlara rəhbərliyi və onların idarəsi, maddi-texniki təchizatı, müvafiq altbölümlərin və resursların bölünməsi, güc tətbiq etmək qaydası və qüvvə verən dövlətlərlə razılaşmalar haqqında tövsiyələrin hazırlanması üçün Vyanada yüksək səviyyəli planlaşdırma qrupu yaradacaq. Fəaliyyətdə olan sədr Birləşmiş Millətlər Təşkilatının texniki məsləhət və ekspertiza yardımının göstərilməsinə hazır olması haqqında etdiyi bəyanatına əsaslanaraq, Birləşmiş Millətlər Təşkilatına kömək üçün müraciət edəcək. O, həmçinin, ATƏM-in sülhməramlı qüvvələrinin mümkün yerləşdirilməsi üçün BMT Təhlükəsizlik Şurasının uzunmüddətli siyasi dəstəyini əldə etməyə çalışacaq". Belə hazırlıq işini və 1992-ci il Helsinki sənədinin III fəslinin müvafiq müddəalarına əsasən və tərəflər arasında razılığın əldə olunmasından və onların Minsk Konfransının həmsədrləri vasitəsilə fəaliyyətdə olan sədrə rəsmi xahişindən sonra Daimi Şura ATƏM-in sülhməramlı əməliyyatının keçirilməsi barəsində qərar qəbul edəcək [37].

ATƏM-in Zirvə Görüşü Minsk Konfransına Minsk qru-

punun köməyi ilə mövcud atəşkəsin davam etdirilməsi və sülh sazişinin imzalanması üçün müvafiq tədbirlər görülməsi istiqamətində səylərini artırmağı tövsiyə edirdi. Burada sülh sazişinin imzalanmasından sonra münaqişə bölgəsinə çoxmillətli sülhməramlı qüvvələrin göndərilməsi də nəzərdə tutulurdu.

Budapeşt Zirvə Görüşünün əsas nəticələrindən biri Minsk qrupunda həmsədrlik institutunun yaradılması oldu. Sülhməramlı qüvvələrin müxtəlif dövlətlərin hərbi qüvvələrindən təşkil olunması barədə qərar Rusiyanın məsələni təkbaşına həll etmək istəyinin qarşısını aldı.

1996-cı ilin dekabrında Lissabonda ATƏT üzvü olan ölkələrin dövlət və hökumət başçılarının növbəti Zirvə Görüşü keçirildi. Bu Zirvə Görüşündə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının əsas parametrləri müəyyən edilmişdir. Onlar ATƏT-in fəaliyyətdə olan sədrinin Bəyanatında öz əksini tapmışdır. Bəyanatda qeyd olunur ki: "... son iki il ərzində Dağlıq Qarabağ münaqişəsinin və Azərbaycan Respublikasının ərazi bütövlüyü məsələsinin həllində heç bir irəliləyiş əldə edilməmişdir. Mən təəssüflə qeyd edirəm ki, məsələnin nizamlanması prinsiplərinə dair tərəflərin mövqelərinin yaxınlaşdırılması istiqamətində Minsk konfransı həmsədrlərinin səyləri uğurla nəticələnmədi. Minsk qrupunun həmsədrləri tərəfindən Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının tərkib hissəsi kimi formalaşdırılan üç prinsip tövsiyə edilmişdir. Bu prinsipləri Minsk qrupunun bütün üzv dövlətləri dəstəkləyir. Bu prinsiplər aşağıdakılardır:

- Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü;
- Azərbaycanın tərkibində Dağlıq Qarabağa ən yüksək səviyyəli özünüidarə hüququ verən öz müqəddəratını təyin etməyə əsaslanmış sazişdə müəyyən edilmiş Dağlıq Qarabağın hüquqi statusu;
- bütün tərəflərin nizamlama müddəalarına riayət olunmasının təmin edilməsinə dair qarşılıqlı öhdəliklər də daxil olmaqla, Dağlıq Qarabağ və onun bütün əhalisinin təmin edilmiş təhlükəsizliyi.

Mən təəssüflə etiraf edirəm ki, bir iştirakçı dövlət bunu qəbul edə bilmədi. Bu prinsiplər digər iştirakçı dövlətlər tərəfindən dəstəklənir. Bu bəyanat Lissabon Zirvə Görüşünün sənədlərinə daxil ediləcək" [38].

Beləliklə, ATƏT bir beynəlxalq təşkilat kimi, münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü, Dağlıq Qarabağ regionunun Azərbaycanın tərkibində qalması və Dağlıq Qarabağın bütün əhalisinin (həm erməni, həm də Azərbaycan icmasının) təhlükəsizliyinin təmin edilməsi şərtləri daxilində nizamlanmasının mümkünlüyünü təsdiqlədi. Ermənistan isə ilk dəfə məhz bu sammit zamanı beynəlxalq birliyin ciddi narazılığı ilə qarşılaşdı və özünü təcrid olunmuş vəziyyətə saldı. Bu qərarı ilə ATƏT Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair öz münasibətini müəyyən etdi.

19 noyabr 1999-cu ildə ATƏT-in İstanbul Zirvə Görüşü keçirildi. Bu Zirvə Görüşünün Bəyannaməsinin 20 və 21-ci maddələri tamamilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə həsr olunmuşdur. Bəyannamədə qeyd olunur ki: "Biz Dağlıq Qarabağ münaqişəsilə bağlı yaranan vəziyyət və son hadisələr haqqında ATƏT-in Minsk qrupunun Həmsədrlərinin məruzəsini aldıq və onların səylərini müsbət qiymətləndiririk. Biz Ermənistan və Azərbaycan prezidentləri arasında aktivləşən dialoqu xüsusilə alqışlayırıq ki, onların müntəzəm görüşləri problemin möhkəm və hərtərəfli həllinin tapılması prosesinin dinamikası üçün imkan yaratmışdır. Biz qəti şəkildə bu dialoqu dəstəkləyirik və ATƏT-in Minsk qrupu çərçivəsində danışıqların bərpası ümidilə bu dialoqun davam etdirilməsinə çağırırıq. Biz həmçinin təsdiq edirik ki, ATƏT və məsələnin həllinin tapılması üçün ən münasib format olan ATƏT-in Minsk qrupu sülh prosesini və onun gələcəkdə həyata keçirilməsini, tərəfləri bütün zəruri köməklik ilə təmin etmək də daxil olmaqla, daha da irəlilətməyə hazırdır" [39].

2-3 dekabr 2010-cu ildə ATƏT-in Astana Zirvə Görüşü keçirildi. Bu Zirvə Görüşündə "Təhlükəsizlik cəmiyyətinə doğru" adlı

Bəyannamə qəbul olunmuşdur. Sammit zamanı ATƏT-in Minsk qrupunun həmsədrləri olan ölkələrin nümayəndə heyətlərinin başçılarının, Azərbaycan və Ermənistan prezidentlərinin Birgə Bəyanatı da qəbul olunmuşdur. Bu Bəyanatda deyilir ki: "ATƏT-in Astanada (Qazaxıstan) keçirilən sammiti ilə əlaqədar ATƏT-in Minsk qrupunun həmsədrləri olan ölkələrin nümayəndə heyətlərinin başçıları (Rusiya Federasiyasının Prezidenti D.Medvedev, Fransanın Baş naziri F.Fiyon və Amerika Birləşmiş Ştatlarının Dövlət katibi H.Klinton), Azərbaycan Prezidenti İ.Əliyev və Ermənistan Prezidenti S.Sarkisyan razılığa gəldilər ki, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə yönəlmiş daha qətiyyətli tədbirlər görmək vaxtı çatmışdır [40].

Bununla əlaqədar onlar Azərbaycan, Ermənistan və Rusiya Federasiyası prezidentlərinin 2 noyabr 2008-ci il tarixli Moskva və 27 oktyabr 2010-cu il tarixli Həştərxan bəyanatlarına istinad etdilər. Onlar razılaşdılar ki, danışıqlar yolu ilə dinc tənzimləmə regionda sabitliyi və xalqların təhlükəsizliyini təmin edər və onların arasında barışığa nail olmaq üçün yeganə imkandır [40].

Ermənistan və Azərbaycan prezidentləri Dağlıq Qarabağ münaqişəsini beynəlxalq hüququn prinsipləri və normaları, BMT-nin Nizamnaməsi, Helsinki Yekun Aktı, eləcə də prezidentlər D.Medvedev, N.Sarkozi və B.Obamanın 2009-cu il iyulun 10-da Akvilldə [4] və 2010-cu il iyunun 26-da Muskokda [5] verdikləri bəyanatlar əsasında qəti tənzimləməyə çalışmaq öhdəliklərini təsdiq etdilər.

Üç həmsədr ölkə dinc tənzimləməyə nail olmaq üçün Azərbaycan və Ermənistan prezidentlərinin qəbul edəcəkləri zəruri qərarları dəstəkləyəcəklərini bildirdilər. Onlar Ermənistan və Azərbaycan rəhbərlərini səylərini Əsas prinsiplərdə hələ qalan mübahisəli məsələlərin həlli üzərində yeni qüvvə ilə cəmləşdirməyə çağırdılar və öz həmsədrlərinə münaqişə tərəflərinin bu səylərini həyata keçirmələrinə kömək etmək üçün onlarla işi davam etdirməyi tapşırdılar. Danışıqların keçirildiyi atmosferi yaxşılaşdırmaq üçün tərəflərə müraciətlə onları atəşkəs rejiminin möhkəmlənməsinə və bütün sahələrdə






etimad tədbirlərinin həyata keçirilməsinə yönəlmiş əlavə addımlar atmağa çağırdılar". Sənədin mahiyyətindən göründüyü kimi, o daha çox ümumi xarakter daşıyır.

Qeyd etmək lazımdır ki, ATƏT münaqişənin nizamlanması ilə məşğul olan və real nəticələrin əldə edilməsi istiqamətində həqiqətən fəallıq nümayiş etdirən beynəlxalq təşkilatdır. Minsk qrupunun fəaliyyəti bu mənada xüsusən yüksək qiymətləndirilməlidir. Bu qurumun fəaliyyəti hələlik real sülhə gətirib çıxarmasa da, etiraf etmək lazımdır ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həmişə beynəlxalq ictimaiyyətin diqqət mərkəzində qalmasında ATƏT-in fəaliyyəti çox vacib rol oynayır. Onu da xüsusi qeyd etmək lazımdır ki, digər beynəlxalq təşkilatlardan fərqli olaraq ATƏT, hər iki tərəfin razılığı ilə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə birbaşa məşğul olan təşkilatdır. Ola bilsin ki bu səbəbdən ATƏT münaqişəyə dair daha çox "neytral mövqe" tutmağa çalışır. Halbuki təcavüzkarla təcavüz qurbanı arasında fərqin qoyulmaması münaqişənin həllinə yox, əksinə uzadılmasına aparır.

Bununla bərabər, yekun olaraq belə bir nəticəyə gəlmək olar ki, ATƏT-in sənədlərində və ilk növbədə ATƏT-in Zirvə Görüşlərində qəbul olunmuş sənədlərdə:

- Dağlıq Qarabağın Azərbaycan Respublikasının ərazisi olması faktı etiraf olunur və təsdiqlənir;
- Azərbaycan Respublikasının ərazi bütövlüyü dəstəklənir;
- Dağlıq Qarabağın hüquqi statusunun yalnız Azərbaycanın tərkibində ən yüksək səviyyəli özünüidarəetmə hüququ verən öz müqəddəratını təyin etmə əsasında müəyyən edilməsi vurğulanır;
- bütün tərəflərin nizamlama müddəalarına riayət olunmasının təmin edilməsinə dair qarşılıqlı öhdəliklər də daxil olmaqla, Dağlıq Qarabağ və onun bütün əhalisinin təmin edilmiş təhlükəsizliyinin zəruriliyi qeyd olunur.

***Avropa İttifaqı:*** Avropa İttifaqı (digər adı – **Avropa Birliyi**) 27 Avropa dövlətini birləşdirən iqtisadi və siyasi birlik olaraq,

müasir dünyada qüvvələrin geosiyasi durumuna böyük təsir göstərən əsas təşkilatlardan biridir. Regional inteqrasiyaya yönəlmiş bu İttifaq Maastrix müqaviləsi ilə 1993-cü ildə Avropa Birliyi prinsipləri əsasında yaranmışdır.

Cənubi Qafqaz Avropa Birliyinin sərhədlərinə yaxın olduğu üçün bu regionda baş verən hadisələr Avropa Birliyini narahat etməyə bilməz. Avropa Birliyi beynəlxalq hüququn subyekti qismində çıxış edərək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması probleminə öz münasibətini açıq şəkildə bildirmişdir.

Qeyd etmək lazımdır ki, Avropa Birliyi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ilk dəfə olaraq 22 may 1992-ci ildə bəyanatla çıxış etmişdir. Bəyanatda birlik Dağlıq Qarabağ regionunda döyüşlərin intensivləşməsi ilə bağlı dərin narahatlığını ifadə etmiş, erməni və Azərbaycan əhalisi daxil olmaqla, Ermənistan və Azərbaycan xalqlarının, hər iki hökumətin ATƏM-in prinsip və öhdəliklərini qəbul etmələri nəticəsində, eyni səviyyəli mühafizə ilə təmin olunmaq hüququna malik olduqlarını xatırlatmış, azərbaycanlı və erməni əhalisinin fundamental hüquqlarının beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində tam şəkildə bərpa edilməli olduğunu bildirmişdir. Birlik tərəfləri təmkinlik nümayiş etdirməyə, ATƏM prosesinə konstruktiv töhfə verməyə və bütün tərəfləri Dağlıq Qarabağ üzrə ATƏM-in Sülh Konfransının tezliklə keçirilməsi istiqamətində iş aparmağa çağırmışdır.

Avropa Birliyi tərəfindən Dağlıq Qarabağ münaqişəsilə bağlı 18 iyun 1992-ci ildə növbəti bəyanat qəbul edilmişdir. Təşkilat bu bəyanatda yenə də davam edən döyüşlərlə bağlı öz narahatlığını bildirmiş, Ermənistan və Azərbaycana bir daha müraciət edərək, onları ATƏM-ə daxil olarkən götürdükləri öhdəliklərə əsasən insan hüquqlarına hörmət etməyə və tərəfləri regionda sülhü bərpa etməyin ən yaxşı ümidini təklif edən ATƏM-in himayəsi altında Minsk Konfransının tezliklə keçirilməsinin zəruri şərtlərinin yaradılmasına çağırmışdır.

Avropa Birliyi münaqişə ilə bağlı növbəti bəyanatını 7 aprel





1993-cü ildə yaymışdır. Həmin bəyanatda Birlik və üzv dövlətlər münaqişənin dərinləşməsindən narahatlıq keçirdiklərini, "hərbi əməliyyatların Kəlbəcər və Füzuli rayonları ərazisinə yayılmasından təəssüfləndiklərini" bildirmiş, qoşunların "Azərbaycan ərazilərindən dərhal çıxarılması və bu ərazilərdə döyüşlərin dayandırılması məqsədilə Ermənistan hökumətini Dağlıq Qarabağın hərbi birləşmələri üzərində olan təsirindən qətiyyətlə istifadə etməyə" çağırmışdır.

Ermənistanın işğalçı qüvvələrinin cəbhə bölgəsində yeni əməliyyatlar keçirməsi qurumu 1993-cü ilin 24 iyun və 3 sentyabr tarixlərində yeni bəyanatlarla çıxış etməyə məcbur etmişdir. Bu sənəddə ermənilərin Azərbaycana qarşı hərbi hücumları pislənilmiş və qaçqınların sayının həddən artıq çoxalmasından narahatlıq ifadə olunmuşdur. Birlik ATƏM-in Minsk qrupunun bölgədə sülhün əldə edilməsi istiqamətində səylərini dəstəklədiyini bildirmiş və tərəfləri bu prosesin həyata keçməsi üçün əlverişli şərait yaratmağa çağırmışdır. Təşkilat BMT qətnamələrinə hörmət göstərilməsini hər iki tərəfdən tələb etmiş, silahlı qüvvələrin Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarından çıxarılmasının zəruriliyini qeyd emişdir. Bəyanatda həmçinin Ermənistandan Azərbaycan ərazilərinə hücum edən yerli erməni qüvvələrinə yardım göstərməmək tələbi ifadə olunmuşdur.

Avropa İttifaqı 9 noyabr 1993-cü ildə yenidən Dağlıq Qarabağ münaqişəsinə dair növbəti bəyanatını qəbul etmişdir. Təşkilat toqquşmaların genişlənməsindən narahatlıq keçirdiyini və qaçqınların sayının artmasının bölgədə gərginliyin çoxalmasına gətirib çıxaracağını vurğulamışdır. Bəyanatda Avropa İttifaqı ATƏM-in prinsiplərinə uyğun olaraq Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə əhəmiyyət verdiyini təsdiqləmişdir. Avropa İttifaqı silahlı toqquşmalardan qaçmaqla canını qurtaran on minlərlə mülki şəxsin taleyindən, xüsusilə narahat olduğunu ifadə edərək, qaçqınların mövcudluğunun münaqişənin beynəlxalq miqyas alması təhlükəsini artırdığını və bütün regionun sabitliyi üçün təhdid olduğunu bildirmişdir.

Avropa İttifaqının Sədrliyi adından 1994-cü ildə münaqişə ilə bağlı bir neçə kommunüke yayılmışdır və bu kommunükelərdə təşkilat bir daha Azərbaycanın ərazi bütövlüyü prinsipini dəstəklədiyini bildirmiş və tərəfləri münaqişənin sülh yolu ilə nizamlanmasına, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əməl etməyə çağırmışdır.

Göründüyü kimi, Avropa İttifaqı Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi bəyanatlarda ehtiyatlı münasibət nümayiş etdirmiş, təcavüzkar dövlətlə təcavüzə məruz qalan tərəf arasında fərq qoymamış, silahlı hücumların guya Dağlıq Qarabağ erməniləri tərəfindən həyata keçirildiyini iddia etmişdir. Habelə, həmin sənədlərdə Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi faktına dair heç bir konkret münasibət ifadə olunmamış və münaqişənin əsl səbəbləri barədə fikir bildirilmir, məsələyə daha çox neytral mövqedən yanaşma nümayiş etdirilmişdir.

Bununla belə, Avropa İttifaqının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyini ifadə edən ən əsas hadisələrdən biri 2003-cü ildə baş vermişdir. Təşkilat münaqişənin həlli üçün kommunikasiya xətlərinin açılması müqabilində Azərbaycanın işğal olunmuş rayonlarından 5-nin geri qaytarılmasını təklif etmişdir. Bu təklif uzun müddət müzakirə obyektinə çevrilmiş və hələ də öz aktuallığını saxlamaqdadır. Bu təklif göstərir ki, Avropa İttifaqının həm regionla əlaqələri inkişaf etdirmək, həm də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında fəal iştirak etmək niyyəti kifayət qədər ciddi xarakter almışdır.

Eyni zamanda vurğulamaq lazımdır ki, Avropa İttifaqının Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli ilə bağlı rəsmi mövqeyi Avropa Parlamentinin 20 may 2010-cu ildə qəbul etdiyi "Avropa İttifaqının Cənubi Qafqaz üzrə Strategiyası" Qətnaməsində öz əksini tapmışdır [41]. Belə ki, Qətnamədə Avropa İttifaqının Cənubi Qafqaz dövlətləri ilə əlaqələrində suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmətlə yanaşdığı diqqətə çatdırılmış, 2-ci maddədə regiondakı mövcud münaqişələr üçün


www.elkhan-suleymanov.az



status-kvonun qəbuledilməz olduğu, belə vəziyyətin gərginliyi və döyüşlərin yenidən başlaması riskini artırması vurğulanaraq, 5-ci maddədə Cənubi Qafqaz dövlətlərinin suverenliyi və ərazi bütövlüyünə xələl gətirə biləcək şərtlərin qəbuledilməz olduğu bildirilmişdir. Beləliklə, Avropa Parlamenti öz Qətnaməsində Cənubi Qafqaz dövlətlərinin, o cümlədən Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində dövlət suverenliyini və ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləmiş, onlara xələl gətirə biləcək hər hansı şərtlərin qəbuledilməz olduğunu vurğulamışdır.

Eyni zamanda, Qətnamənin 6-11-ci maddələri məhz Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə həsr edilmişdir. Sənədin 6-7-ci maddələrində Azərbaycan və Ermənistan prezidentlərinin danışıqlar prosesini davam etdirmələri, tərəflər arasında Moskva bəyannaməsinin imzalanması, ATƏT-in Minsk qrupunun vasitəçilik səyləri, həmsədr dövlətlərin prezidentləri tərəfindən 2009-cu ilin iyul ayında G8 sammiti zamanı bəyanatın yayılması alqışlanmışdır.

Avropa İttifaqı Qətnamənin 8-ci maddəsində Dağlıq Qarabağ müharibəsi nəticəsində öz evlərindən didərgin düşmüş yüz minlərlə insanın hələ də məcburi köçkün kimi qalmasını, onların hüquqlarının, o cümlədən qayıtmaq hüquqlarının, mülkiyyət hüquqlarının və şəxsi təhlükəsizlik hüquqlarının rədd edilməsindən təəssüfləndiyini bildirmiş, tərəfləri birmənalı və qeyd-şərtsiz şəkildə bu hüquqları tanımağa və tezliklə realizə edilməsinə çağırmış, problemin həllinə nail olmaq məqsədilə Ermənistan qoşunlarının Azərbaycanın bütün zəbt edilmiş ərazilərindən çıxarılmasını tələb etmişdir. Qətnamənin 10-cu maddəsində bir daha Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonlar da daxil olmaqla bütün işğal edilmiş ərazilərinin boşaldılmasının, Dağlıq Qarabağın statusunun tam müəyyən edilənə qədər ona aralıq statusun verilməsinin, regionda etnik azərbaycanlıların və etnik ermənilərin dinc yaşaması və əməkdaşlığı üçün keçid çərçivənin yaradılmasının əhəmiyyəti göstərilmişdir.


www.elkhan-suleymanov.az

Bütövlükdə, Avropa Parlamentinin qətnaməsi bu qurumun regional təhlükəsizlik məsələləri və regionda mövcud münaqişələrin, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində mövqeyin tam aydınlıq gətirmişdir. Şübhəsiz ki, Avropa Parlamenti qətnamələrinin müddəaları, bir tərəfdən, birbaşa Avropa Birliyinin digər rəhbər orqanlarının, digər tərəfdən isə Avropa Birliyinə üzv olan ölkələrin rəhbərliyinin mövqelərinə böyük təsir göstərir və Dağlıq Qarabağ problemi üzrə bü nüfuzlu təşkilatın öz siyasətini formalaşdırır.

Qeyd edilməlidir ki, Avropa Komissiyasının sədri Jose Manuel Barrozo 2011-ci ilin yanvar ayında Bakıya səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə keçirilmiş birgə mətbuat konfransındakı bəyanatında və Bakı Dövlət Universitetində etdiyi çıxışında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunmuş, bu problemin həll edilməməsinin regionda sülh və sabitlik üçün maneə olduğunu diqqətə çatdırmışdır. Avropa Komissiyasının sədri bildirmişdir ki, Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləyir və istəyir ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin edilsin.

***Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO - North Atlantic Treaty Organization):*** Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə ədalətli, müvafiq beynəlxalq-hüquqi qiymətin verilməsi hərbi-siyasi təşkilat olan NATO-nun sənədlərində də öz əksini tapmışdır.

NATO tərəfindən bu münaqişəyə dair bir sıra qərarlar və qətnamələr qəbul olunub. 2006-cı ilin noyabrında Riqada keçirilmiş NATO-ya üzv olan ölkələrin dövlət və hökumət başçılarının sammitinin yekun kommunikesinin 43-cü bəndində postsovet ölkələrində mövcud olan münaqişələrə münasibət bildirilmişdir. Sənəddə Azərbaycanın, Ermənistanın, Gürcüstanın və Moldovanın ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə dəstək verilir [42]. Bu çox vacib bir müddəadır. Avropa ölkələri və Avrasiya üzrə ABŞ dövlət katibinin müavini Daniel Frid qeyd edir ki, "NATO bu haqda ilk dəfə bəyan edir





və bu, bölgədə olan dövlətlər üçün vacib siqnaldır". NATO-nun bu mövqeyi 2008-ci ilin aprel ayında Buxarestə keçirilmiş üzv ölkələrin dövlət və hökumət başçılarının sammitində (zirvə görüşündə) bir daha öz təsdiqini tapmışdır. Buxarest zirvə görüşünün yekunu üzrə 3 aprel 2008-ci ildə qəbul olunmuş Bəyannamənin 43-cü bəndində deyilir ki, "NATO Cənubi Qafqazda və Moldovada regional münaqişələrin saxlanılmasından öz narahatlığını bildirir. Bizim xalqlar Azərbaycanın, Ermənistanın, Gürcüstanın və Moldovanın ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə öz dəstəyini verirlər. Biz, bu prinsiplər nəzərə alınmaqla, bu regional münaqişələrin dinc yolla nizamlanmasına yönəlmiş tədbirlərə dəstək verilməsinə davam edəcəyik" [43]. Riqada qəbul olunmuş sənədə nisbətən Buxarestdə qəbul olunmuş sənəddə çox vacib bir əlavə var. Sənəddə Cənubi Qafqazda və Moldovada regional münaqişələrin, o cümlədən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasının prinsipləri müəyyən edilir. Bunlar Azərbaycanın və Ermənistanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi prinsipləridir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair nəzərə almaq lazımdır ki, Azərbaycan rəsmi olaraq hal-hazırda Ermənistanın ərazisinə iddia etmir və heç bir iddia tələbi irəli sürmür. Əksinə olaraq, Ermənistan Azərbaycanın torpaqlarını işğal altında saxlayır və Azərbaycanın ərazi bütövlüyünü pozur. Deməli, NATO-nun Buxarest Bəyannaməsinin 43-cü bəndinin mahiyyəti faktiki Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair Azərbaycanın ərazi bütövlüyünə dəstək verilməsi və bu münaqişənin yanlız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində nizama salınmasından ibarətdir.

NATO-nun eyni mövqeyi 3 dekabr 2008-ci ildə Brüsseldə NATO-nun baş qərargahında NATO-nun Xarici İşlər Nazirləri səviyyəsində keçirilmiş görüşün yekun kommunikesinin 35-ci bəndində [44] və 4 Aprel 2009-ci ildə Strastburqda - Kelledə NATO ölkələrinin Dövlət və Hökumət Başçılarının sammitinin (zirvə görüşünün) yekun bəyannaməsinin 58-ci bəndində

öz əksini tapmışdır. Bəyannamədə qeyd olunur ki, NATO Cənubi Qafqaz ölkələrinin və Moldovanın ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə dəstək verməyə davam edir və bu prinsiplər nəzərə alınmaqla bu regional munaqişələrin sülh yolu ilə nizama salınmasına yönəlmiş tədbirlərin dəstəklənməsinə davam edəcəkdir [45].

19-20 noyabr 2010-cu ildə Lissabonda NATO-nun növbəti sammiti baş tutdu. Bu sammitdə də Azərbaycanın ərazi bütövlüyü yenidən dəstəkləndi. Belə ki, NATO-ya üzv olan ölkələrin dövlət və hökumət başçılarının Lissabon sammitində qəbul olunmuş Bəyannamənin 35-ci bəndində Ermənistanın, Azərbaycanın, Gürcüstanın və Moldova Respublikasının ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə dəstək verilir və bu prinsiplər nəzərə alınmaqla regional munaqişələrin sülh yolu ilə nizama salınmasına yönəlmiş tədbirlər dəstəklənir [46]. Cənubi Qafqaz və Orta Asiya ölkələri üzrə NATO Baş Katibinin keçmiş xüsusi nümayəndəsi Robert Simmons qeyd edir ki, NATO regionda mövcud olan münaqişələrin nizamlanmasında maraqlıdır və bu istiqamətdə siyasi danışıqları dəstəkləyir. Onun sözlərinə görə, Cənubi Qafqazda olan münaqişələrin dövlətlərin ərazi bütövlüyü çərçivəsində həll edilməsi NATO-nun Lissabon sammitində qeyd olunmuşdur [47]. Faktiki olaraq, NATO-nun bu mövqeyi bir daha Azərbaycanın dəstəklənməsinə yönəlib. Çox maraqlıdr ki, NATO tərəfindən qəbul edilmiş qərarlarda Azərbaycanın ərazi bütövlüyünə heç bir qeyd-şərt olmadan dəstək verilir və, ümümiyyətlə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına yönəlmiş prinsiplərin sırasında xalqların öz müqəddaratını təyinetmə prinsipinin heç adı belə çəkilmir. NATO Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasını ölkələrin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi prinsipləri əsasında görür və bu prinsiplər nəzərə alınmaqla bu regional munaqişələrin sülh yolu ilə nizama salınmasına yönəlmiş tədbirləri dəstəkləyir.

NATO tərəfindən qəbul olunmuş sənədlər bir daha sübut edir ki, bu beynəlxalq hərbi-siyasi təşkilat Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasını Azərbaycanın ərazi bütövlüyü çərçivəsində dəstəkləyir. NATO-nun keçmiş Baş Katibi Yaap de Hoop Sxeffer NATO-nun bu mövqeyini bir daha təsdiqlədi. O, Azərbaycan prezidenti ilə görüşün nəticələrinə dair 29 aprel 2009-cu ildə keçirilən mətbuat kofransında bəyan etdi ki, NATO-nun üzvü olan 28 ölkə hesab edir ki, Dağlıq Qarabağ probleminin həlli "suverenlik və ərazi bütövlüyü prinsipinə əməl edilməsi əsasında tapılmalıdır"[48]. Baş Katib qeyd etmişdir ki, "NATO Dağlıq Qarabağ münaqişəsində birbaşa iştirak etməsə də, hesab edir ki, onun nizamlanmasında ərazi bütövlüyü prinsipi sual altına alınmamalıdır" [49].

Belə bir nəticəyə gəlmək olar ki, NATO tərəfindən qəbul olunmuş qərarlarda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə ədalətli beynəlxalq-hüquqi qiymət verilir və bu münaqişənin nizamlanmasının beynəlxalq-hüquqi əsasını təşkil edən prinsiplər müəyyən edilir. Bu prinsiplər ölkələrin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi, o cümlədən Azərbaycanın ərazi bütövlüyü prinsipləridir.

Beləliklə, Azərbaycanın ərazi bütövlüyü ən nüfuzlu dövlətlərarası beynəlxalq təşkilatlar tərəfindən tanınır və dəstəklənir. Bu isə, öz növbəsində, deməkdir ki müasir beynəlxalq hüquqa əsasən, Ermənistan tərəfindən Azərbaycan torpaqlarının zəbt edilməsi Ermənistanın Azərbaycana qarşı təcavüzünün əyani sübutudur. Bir dövlətin başqa bir dövlətə qarşı təcavüzü ən ağır beynəlxalq-hüquqi cinayət sayılır və təcavüz etmiş dövlətin beynəlxalq-hüquqi məsuliyyətini yaradır.

## 3. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal edilməsi nəticəsində fövqəladə humanitar vəziyyətin yaranması

Ermənistan silahlı qüvvələrinin 1988-1993-cü illərdə Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi, o cümlədən keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV), eləcə də ona bitişik olan 7 rayonun (Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonları) əraziləri işğal edilmişdir. Bundan əlavə, Azərbaycanın Ermənistanla həmsərhəd və işğal edilmiş rayonlarla qonşu olan 7 rayonun ərazisindəki bir sıra yaşayış məntəqələri işğal olunmuşdur. Ümumiyyətlə, Ermənistanın silahlı təcavüzü nəticəsində keçmiş DQMV-nin inzibati ərazisinə daxil olmayan işğal edilmiş Azərbaycanın rayonlarının ərazisi Dağlıq Qarabağ bölgəsinin ərazisindən dörd dəfə böyükdür.

Ermənistanın Azərbaycana silahlı təcavüzü nəticəsində insan hüquqları sahəsində qəbul edilmiş çoxsaylı beynəlxalq müqavilələrdə ehtiva edilmiş normalar, o cümlədən "İnsan hüquqlarına dair Ümumdünya Bəyannaməsi"-nin, "Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Pakt"-ın, "İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Beynəlxalq Pakt"-ın, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya"-nın, "İşgəncələrə və digər qəddar, qeyri-insani və ya insan ləyaqətini alçaldan münasibətlərə qarşı və ona görə cəzalandırma haqqında Konvensiya"-nın, "Uşaq hüquqları haqqında Konvensiya"-nın bütün müddəaları ciddi şəkildə pozulmuşdur. Bundan əlavə, silahlı təcavüz zamanı beynəlxalq humanitar hüquq normaları da, o cümlədən "Quruda müharibə aparma qanunları və adətləri haqqında" 18 oktyabr 1907-ci il Haaqa Konvensiyasının (Konvensiya IV), "Müharibə vaxtı mülki əhalinin müdafiəsi haqqında" 12 avqust 1949-cu il Cenevrə Konvensiyasının, "Hərbi əsirlərlə davranış haqqında 12 avqust 1949-cu il Cenevrə Konvensiyası"-nın, "Beynəlxalq silahlı münaqişələrin qurbanlarının müdafiəsi haqqında" 12 avqust 1949-cu il Cenevrə Konvensiyalarına əlavə Protokolun (1977-ci il), BMT Baş Assambleyasının "Silahlı münaqişələr zamanı qadın və uşaqların müdafiəsi haqqında" 14 dekabr 1974-cü il tarixli 3318(XXIX) qətnaməsinin müddəaları ciddi şəkildə pozulmuşdur.

Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü insan hüquqlarının kütləvi və kobud şəkildə pozulması ilə müşayiət olunmuşdur və Ermənistanın yerli azərbaycanlı əhalisinə qarşı törətmiş olduğu cinayət əməlləri bəşəriyyətə qarşı cinayət kateqoriyasına düşür. Belə ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı Ermənistanın silahlı qüvvələri tərəfindən 20 mindən çox insan öldürülmüş, 50 mindən çox insan yaralanmış və şikəst edilmiş, minlərlə insan itkin düşmüş, məhkəməsiz edamlar və mülki əhalinin kütləvi qırğını, girov götürülməsi, onlardan icbari işlərdə istifadə olunması halları baş vermişdir. Hərbi əsirlər və girovlar işgəncələrə və digər qeyri-insani rəftarlara məruz qalmış, yaralılar və xəstələrə adi tibbi yardım belə göstərilməmişdir. Hazırda hərbi əsirlərin və girovların böyük əksəriyyəti Ermənistan Respublikasında və işğal altındakı ərazilərdə beynəlxalq Qırmızı Xaç Komitəsindən (BQXK) gizli saxlanılır.

Azərbaycan xalqına qarşı ən dəhşətli cinayətlərdən biri Xocalı şəhərində törədilmişdir. Xocalı faciəsi Xatın və Lidise soyqırımları kimi insanlıq tarixinə düşmüş qanlı olaydır. Belə ki, 1992-ci il fevralın 25-dən 26-a keçən gecə Ermənistan silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ ərazisindəki erməni silahlı dəstələri ilə birgə Xankəndi ilə Əsgəran arasında yerləşən Xocalı şəhərini zəbt edərək, Azərbaycan xalqına qarşı soyqırım cinayəti həyata keçirmişdir. Xocalı şəhərində törədilmiş cinayətlər keçmiş SSRİ-nin Xankəndində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətinin və texnikasının bilavasitə iştirakı ilə həyata keçirilmişdir. Belə ki, Rusiya silahlı qüvvələrinin 366-cı motoatıcı alayının mayoru Oqanyan Seyran Muşeqoviçin (Sey-

ran Oqanyan hazırda Ermənistanın müdafiə naziridir) komandanlığı altında 2-ci batalyonu, Yevgeni Nabokixinin komandalığı altında 3-cü batalyonu, 1 saylı batalyonun qərargah rəisi Çitçyan Valeriy İsayeviç və alayda xidmət edən 50-dən artıq erməni zabit və gizirlər Xocalıda insanlığa sığmayan cinayət əməllərini törədənlərdən olmuşlar.

Hücumdan əvvəl, fevralın 25-i axşam çağından şəhər toplardan və ağır zirehli texnikadan şiddətli atəşə tutulmağa başlamışdır. Nəticədə şəhərdə yanğınlar baş vermiş və fevralın 26-sı səhər saat 5 radələrində şəhər tam alova bürünmüşdür. Belə bir vəziyyətdə, erməni əhatəsində olan şəhərdə qalmış təqribən 2500 nəfər əhali yaxınlıqdakı azərbaycanlılar məskunlaşmış Ağdam rayonunun mərkəzinə çatmaq ümidi ilə şəhəri tərk etməyə məcbur olmuşdur. Ancaq bu niyyət baş tutmamışdır. Belə ki, qaçaraq canını qurtarmağa çalışan dinc əhali erməni silahlılarının əvvəlcədən hazırladıqları pusqulara düşərək, qəddarcasına məhv edilmişdir.

Xocalının işğalı zamanı bir gecədə dinc əhalidən 613 nəfər, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca xüsusi amansızlıqla, işgəncələrlə öldürülmüş, insanların başları kəsilmiş, gözləri çıxarılmış, hamilə qadınların qarınları süngü ilə deşik-deşik edilmişdir. Qanlı aksiya zamanı 1275 insan əsir götürülmüş, 150 insan itkin düşmüş, 487 insan şikəst olmuşdur. Onlardan 76-sı həddi-buluğa çatmamışlardır. Kütləvi qırğınlar zamanı 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə bir valideynini itirmişdir, 56 insan işgəncələr verilərək öldürülmüşdür. Xocalı şəhəri yerlə yeskan edilərək tamamilə məhv edilmişdir.

Şəhər əhalisinin bir hissəsi zorakılıqdan qaçıb qurtarmaq istəyərkən əvvəlcədən düzəldilmiş pusqulara düşərək qətlə yetirilmişdir. Rusiyanın "Memorial" hüquq-müdafiə mərkəzinin məlumatına əsasən, dörd gün ərzində Ağdama Xocalıda qətlə yetirilmiş 200 azərbaycanlının meyidi gətirilmiş, onlarla meyidin təhqirə məruz qalması faktı aşkar edilmişdir. Ağdamda 181 meyid (130 kişi və 51 qadın, o cümlədən 13 uşaq) məhkəmə-tibbi


www.elkhan-suleymanov.az



ekspertizasından keçirilmişdir. Ekspertiza zamanı müəyyən edilmişdir ki, 151 nəfərin ölümünə güllə yaraları, 20 nəfərin ölümünə qəlpə yaraları səbəb olmuş, 10 nəfər küt alətlə vurularaq öldürülmüşdür. Hüquq-müdafiə mərkəzi diri adamın baş dərisinin soyulması faktını da qeydə almışdır. Həmin günlər "Memorial" hüquq-müdafiə mərkəzi xəbər verirdi: "...Qaçanlar erməni pusqularına düşür və güllələbaran edilirdi. Qaçanların bir qismi hər halda Ağdama gəlib çata bildi, digər qismi, əsasən qadınlar və uşaqlar (onların sayını dəqiqləşdirmək mümkün deyil) dağlarda azıb qalaraq şaxtadan donublar, ... əsirlərin müəyyən hissəsi güllələnib... Dörd gün ərzində Ağdama 200-dək cəsəd gətirilib. Onlarla meyitdə zorakılıq əlamətləri aşkar görünürdü. Ağdam şəhər sanitar qatarının həkimləri başlarının dərisi soyulmuş dörd meyit qeydə alıblar, bir meyitin isə başı kəsilmişdi... Həmin sanitar qatarda canlı insanın başının dərisinin soyulduğu qeydə alınıb..." [50].

Qeyd edilməlidir ki, 2008-ci ildə Ermənistanın prezidenti olmuş Serj Sarkisyan Xocalı şəhərinin mülki əhalisinə qarşı həyata keçirilmiş qanlı aksiyanın təşkilatçılarından biri olmuşdur. İngilis jurnalisti Tomas de Vaal bu məsələyə toxunaraq, yazır ki, "Erməni hərbi komandiri Serj Sarkisyandan Xocalının zəbt edilməsi haqda danışmağı xahiş etdikdə, o ehtiyatla cavab verdi: "Biz bu barədə ucadan danışmamağa üstünlük veririk". Tomas de Vaal daha sonra qeyd edir ki, Sarkisyan baş vermiş hadisələrlə bağlı daha düzgün və daha sərt danışdı: "Düşünürəm ki, başlıcası başqa məsələ idi. Xocalıya qədər azərbaycanlılar düşünürdülər ki, bizimlə zarafat etmək olar, onlar düşünürdülər ki, ermənilər mülki əhaliyə əl qaldırmağa qadir deyillər. Biz bu stereotipi sındırmağı bacardıq" [51].

Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudlarından kənarda işğal edilən ərazilərində də bəşəriyyətə qarşı cinayət əməlləri davam etdirilmişdir - Azərbaycan Respublikasının Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının yüz minlərlə dinc sakinlərinin əvvəlcədən planlaşdırılmış, kütləvi və kobud şəkildə hüquqları pozulmuş,

www.elkhan-suleymanov.az

onlar qısa bir müddət ərzində məcburi köçkünlərə çevrilmişlər.

Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf ərazilərinin işğalı zamanı minlərlə insan əsir və girov götürülmüş və ya itkin düşmüşdür. Məlum olduğu kimi, girovlar və hərbi əsirlər beynəlxalq humanitar hüququn müdafiəsi altında olan şəxslər kateqoriyasına aid edilirlər. Beynəlxalq humanitar hüquq bu kateqoriyadan olan insanlara qarşı repressiv zorakılıq üsullarının tətbiqini qadağan edir, girovların və əsirlərin təhlükəsizliyinin təmin olunmasını tələb edir. Azərbaycan Respublikasının Əsir, İtkin düşmüş, Girov götürülmüş Vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatlarına görə müharibə qurbanı olan mülki əhali və hərbi əsirlər arasında qeyri-insani rəftara, müxtəlif zorakılıq növlərinə, fiziki və mənəvi işgəncələrə, qətllərə, tibbi eksperimentlərə məruz qalanlar olmuşdur. Girovlar və hərbi əsirlər işgəncə verilməklə öldürülür, yaxud dözülməz şəraitdə saxlanma nəticəsində həlak olur, əsirlikdən azad edilənlər isə ömürlük əlilə çevrilirlər. Əsir, İtkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının 1 yanvar 2011-ci il tarixinə olan məlumatlarına əsasən, əsir, itkin düşmüş və girov götürülmüş şəxslərin sayı 4049 nəfər təşkil etmişdir. Onlardan 3273 nəfər hərbçi, 771 nəfər mülki şəxsdir, 5 nəfərin hərbçi və ya mülki olduğu məlum deyil. Mülki şəxslərdən 47 nəfəri itkin düşərkən yetkinlik yaşına çatmamış uşaq (17 nəfər azyaşlı qız), 247 nəfər qadın, 347 nəfər yaşlı şəxsdir (149 nəfər qadın). İndiyədək əsir və girovluqdan 1399 nəfər azad edilmişdir. Onlardan 343 nəfəri qadın, 1056 nəfəri kişidir. Eyni zamanda, onlardan 170 nəfəri uşaq (65 nəfər azyaşlı qız), 289 nəfəri yaşlı şəxsdir (112 nəfər yaşlı qadın). Bundan əlavə, Dövlət Komissiyasına daxil olmuş materialların təhlili zamanı 553 nəfərin əsir və girovluqda qətlə yetirildiyi və ya müxtəlif səbəblərdən vəfat etdiyi müəyyən edilmişdir. Onlardan 104 nəfər qadın, 448 nəfər kişidir, 137 nəfərin yalnız adı məlumdur, 74 nəfər isə naməlum şəxslərdir [52].

Qeyd edilənlərlə yanaşı, Ermənistan işğal etdiyi ərazilərdə azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirmiş






və bu əraziləri monoetnik zonaya çevirmişdir. İşğal edilmiş ərazilərdən yerli azərbaycanlı əhali çıxarılaraq məcburi köçkünə çevrilmişlər. Azərbaycanın keçmiş DQMV işğal edildikdən sonra azərbaycanlı əhali zorla öz vətənlərindən qovulmuş, bundan sonra isə eyni hadisələr Azərbaycanın digər 7 rayonunda da təkrarlanmışdır. Belə ki, Ermənistan tərəfindən işğal edilmiş Laçın rayonundan 71000, Kəlbəcər rayonundan 74000, Ağdam rayonundan 165600, Füzuli rayonundan 146000, Cəbrayıl rayonundan 66000, Qubadlı rayonundan 37900, Zəngilan rayonundan isə 39500 nəfər Azərbaycan vətəndaşı məcburi köçkünə çevrilmişdir. Ümumiyyətlə, Ermənmistanın silahlı təcavüzü və etnik təmizləmə siyasəti nəticəsində Azərbaycanın işğal edilmiş (DQMV və ətraf 7 rayon) ərazilərindən 660000-dən artıq dinc əhali məcburi köçkün olmuşdur. Bundan əlavə, 100000-dən artıq Azərbaycan vətəndaşı Ermənistanla həmsərhəd və işğal xətti ilə təmasda olan ərazilərdən ölkənin digər ərazilərinə pənah gətirmişlər. Digər tərəfdən, yuxarıda qeyd etdiyimiz kimi, 1988-ci ilin sonu və 1989-cu ilin əvvəllərində, indiki Ermənistan Respublikasının ərazisindən 250 mindən artıq etnik azərbaycanlı deportasiya edildi və onlar qaçqın qismində Azərbaycanda məskunlaşdılar. Beləliklə, indiki Ermənistandan azərbaycanlıların deportasiyası, Azərbaycanın 20% ərazisinin işğalı və işğal edilmiş ərazilərdə həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində minlərlə insan öldürülmüş, müxtəlif dərəcəli xəsarət almış, əsir götürülmüş və itkin düşmüş, dinc əhali ağır psixoloji və mənəvi gərginlik keçirmiş, 1 milyondan artıq azərbaycanlı öz tarixi vətənlərindən, evlərindən didərgin salınaraq, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Həmin kateqoriyaya aid olan insanlar Azərbaycanın 62 şəhər və rayonunda, 1600-dən çox sıx məskunlaşma obyektində müvəqqəti məskunlaşmışlar.

Bundan əlavə, Ermənistanın işğal etdiyi rayonlardan olan əhalinin yaşayış şəraiti pisləşdiyinə görə onların arasında təbii artım kəskin surətdə aşağı düşmüş, uşaq ölümü artmışdır. İşğal olunmuş rayonların hamısında 1989-1998-ci illər arasında-

kı dövrdə doğum kəskin suratdə aşağı düşmüş və təbii artım hər 1000 nəfərə görə həddən çox azalmışdır. Bu azalma (hər 1000 nəfərə görə) rayonların hamısında 11,2-22,6 nəfər arasında olmuşdur. Göstərilən illərdə Cəbrayıl, Qubadlı, Zəngilan və Ağdam rayonları əhalisinin məskunlaşdıqları yeni yerlərdə təbii artım 16,9-22,6 nəfər arasında olmuşdur. İşğal olunmuş rayonların hamısında demoqrafik göstəricilər orta respublika səviyyəsindən aşağı olmuşdur. Sosial və iqtisadi şəraitin həddən artıq ağır olması, dağ və dağətəyi zonaların yaşayış şəraitinin düzən yerlərdəki isti iqliminə uyğunsuzluğu, Ermənistanın silahlı təcavüzü, təcavüzkarların mülki əhaliyə qarşı qeyri-insani davranışı, işgəncələrin verilməsi və etnik təmizləmə siyasəti nəticəsində insanların şok vəziyyətinə düşməsi, uzunmüddətli psixoloji gərginlik durumunda olması və s. işğal olunmuş rayonlarda əhalinin təbii artımının aşağı düşməsinin başlıca səbəbləri olmuşdur.

Qaçqın və köçkünlərin ən ağrılı problemlərindən biri də onların işlə təmin olunması ilə bağlı çətinliklərdir. Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin verdiyi məlumata görə 1999-cu ildə 301359 nəfər əmək qabiliyyətli qaçqın və məcburi köçkün olmuşdur, onların 196380 nəfəri yaxud ümumi əmək ehtiyatlarının 65,2%-i işsiz qalmışdır. 1999-cu ilə olan məlumata əsasən, məcburi köçkünlərin 74 min nəfəri lazımi şəraiti olmayan çadır şəhərciklərində, 99 min nəfəri quraşdırılmış evlərdən ibarət qəsəbələrdə, 17,5 min nəfəri ictimai binalarda, məktəblərdə, uşaq bağçalarında və yataqxanalarda, 20,2 min nəfəri qohum evlərində, qalanları zəbt olunmuş mənzillərdə, yarımçıq qalmış tikililərdə, fermalarda, yük vaqonlarında və sadəcə olaraq, yol kənarlarında məskunlaşmışlar. Heç bir normal istilik, elektrik enerji təchizatı, sanitar-gigiyena şəraiti olmayan belə qaçqın məskənlərində doğulan uşaqların, onların valideynlərinin sağlamlığı təhlükə altında qalır.

Beləliklə, Ermənistanın təcavüzü nəticəsində 1 milyondan artıq Azərbaycan vətəndaşının qaçqın və məcburi köçkünə





çevrilməsi, 20 min nəfərin həlak olması, 50 min nəfərin əlil olması və təxminən 5 min nəfərin əsir və itkin düşməsi ilə yanaşı, işğal olunmuş rayonlardan olan əhalinin təbii artımı 22-26 nəfərə (hər 1000 nəfərə) qədər azalmışdır ki, bu da Azərbaycanda demoqrafik vəziyyətə ciddi mənfi təsir etmişdir.

Ermənistanın apardığı etnik təmizləmə siyasəti və silahlı təcavüzü nəticəsində Azərbaycanda fövqəladə humanitar vəziyyət yaranmışdır. Bu fakt, ilk növbədə, BMT Təhlükəsizlik Şurasının qətnamələrində öz əksini tapmışdır.

Belə ki, BMT Təhlükəsizlik Şurası özünün 30 aprel 1993-cü il tarixli 822(1993) saylı qətnaməsində regionda çoxlu sayda mülki şəxslərin yerdəyişməsi və fövqəladə humanitar vəziyyətin yaranması ilə bağlı öz dərin narahatlığını ifadə etmişdir [11].

BMT Təhlükəsizlik Şurası özünün 29 iyul 1993-cü il il tarixli 853(1993) saylı qətnaməsində Azərbaycanda çoxlu sayda mülki şəxslərin yerdəyişməsi və fövqəladə humanitar vəziyyətin yaranması ilə bağlı yenidən öz dərin narahatlığını ifadə etmişdir. Göründüyü kimi, qətnamədə regionda olan vəziyyət daha dəqiq ifadə olunmuşdur. Yəni, çoxlu sayda mülki şəxslərin yerdəyişməsinin məhz Azərbaycanın ərazisində baş verməsi vurğulanır [12].

BMT Təhlükəsizlik Şurası özünün 14 oktyabr 1993-cü il il tarixli 874(1993) saylı qətnaməsində təcavüz nəticəsində insanların əziyyət çəkməsi, regionda yaranmış fövqəladə humanitar vəziyyətlə, Azərbaycanda çoxlu sayda mülki şəxslərin yerdəyişməsi ilə bağlı yenidən özünün ciddi narahatlığını ifadə etmişdir [13].

BMT Təhlükəsizlik Şurası özünün 12 noyabr 1993-cü il il tarixli 884(1993) saylı qətnaməsində çoxlu sayda mülki şəxslərin yerdəyişməsi və Zəngilan rayonunda və Horadiz şəhərində və Azərbaycanın cənub sərhədində fövqəladə humanitar vəziyyətin yaranması ilə bağlı yenidən özünün ciddi narahatlığını ifadə etmişdir [14].

BMT Baş Assambleyası 20 dekabr 1993-cü ildə özünün 48/114 saylı "Azərbaycanda qaçqınlara və köçkünlərə fövqəladə hu-

manitar yardım vəziyyətinə dair" qətnaməsində çoxlu sayda mülki şəxslərin yerdəyişməsi ilə bağlı Azərbaycanda humanitar vəziyyətin daimi pisləşməsi ilə əlaqədar özünün ciddi narahatlığını ifadə etmişdir. Bu qətnamənin əsas dəyərlərindən biri ondan ibarətdır ki, ilk dəfə beynəlxalq sənəddə Ermənistanın təcavüzü nəticəsində Azərbaycanda qaçqınların və köçkünlərin sayının bir milyonu aşdığı təsdiqlənmişdir [20].

BMT Baş Assambleyası 14 mart 2008-ci ildə özünün 62/243 saylı "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnaməsində Dağlıq Qarabağ münaqişəsinin Cənubi Qafqaz ölkələrində inkişafa və humanitar vəziyyətə mənfi təsirləri qeyd olunur [22].

İslam Konfransı Təşkilatının 13-14 mart 2008 il Seneqal Respublikasının Dakar şəhərində keçirilmiş On Birinci Zirvə Görüşündə "Ermənistan Respublikasınm Azərbaycan Respublikasına qarşı təcavüzü haqqmda" 10/11-P (IS) saylı Qətnamə qəbul olunmuşdur. Bu sənəddə də qeyd olunur ki: "İKT erməni təcavüzü nəticəsində bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkünə çevrilməsindən və bu böyük humanitar problemin ağırlığından dərin narahatlıq" keçirir. Həm də bu qətnamənin 21-ci maddəsində qeyd olunur ki: "İKT Azərbaycan Respublikası ərazisində bir milyondan çox məcburi köçkün və qaçqının mövcudluğu ilə əlaqədar humanitar problemlərin kəskinliyindən narahatlığını ifadə edir" [53].

Beləliklə, Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü nəticəsində fövqəladə humanitar vəziyyət yaranması faktı nüfuzlu beynəlxalq təşkilatların qərarlarında öz təsdiqini tapmışdır.





## Erməni separatçıları tərəfindən dağıdılmış Azərbaycanın tarix və mədəniyyət abidələri



Ermənilərin İrandan Şimali Azərbaycana köçürülmələrinin 150 illiyi şərəfinə ucaldılmış abidə. Ağdərə. 1978



"150 il" abidəsi erməni separatçıları tərəfindən dağıdıldıqdan sonra. Ağdərə. 1988







Erməni separatçıları tərəfindən dağıdılmış Azərbaycanın
tarix və mədəniyyət abidələri









Erməni separatçıları tərəfindən dağıdılmış Azərbaycanın tarix və mədəniyyət abidələri







## 4. Ermənistanın işğalı nəticəsində Azərbaycan tarixi və mədəniyyət abidələrinə dəymiş zərər

Azərbaycan ərazilərinin işğalı zamanı Ermənistan hərbi birləşmələri Azərbaycan xalqının milli mədəniyyət abidələrini də qəddarcasına ucurub dağıtmış və dünya xalqları mədəniyyətinin tərkib hissəsi olan Azərbaycan mədəni irsinə misli görünməmiş zərər vurmuşdur. Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə Azərbaycan xalqının tarix və mədəniyyət abidələrinin dağıdılması və qəsdən korlanması kimi əməlləri Silahlı munaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında Haaqa Konvensiyasının (1954-cu il), Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında Paris Konvensiyasının (1970-ci il), Arxeoloji irsin muhafizəsi haqqında Avropa Konvensiyasının (1992-ci il), YUNESKO-nun Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında Konvensiyasının (1972-ci il) müddəalarının ciddi və kobud şəkildə pozulması ilə müşayiət edilmişdir.

Belə ki, hərbi təcavüz nəticəsində işğal olunmuş ərazilərdə ilk insan məskənlərindən olmuş məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları hal hazırda hərbi məqsədlərlə istifadə edilərək qəsdən dağıdılır. Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı, işğal olunmuş Şuşa, Lacın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlıqlar, türbələr, məzarüstü abidələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və Azərbaycan xalqının digər milli abidələri məhv edilir.

Şuşa tarixi memarlıq qoruğunun ərazisində işğalçı dövlətin silahlı qüvvələri Aşağı və Yuxarı Gövhərağa, Köcərli, Mərdinli cümə məscidlərini, dahi bəstəkar Üzeyir Hacıbəyovun, Azərbaycan professional vokal sənətinin banisi Bülbülün ev müzeylərini, Xurşud Banu Natəvanın saray kompleksini, Fi-

rudin bəy Köcərlinin, Zöhrabbəyovların malikanələrini, şair, rəssam və alim Mir Mövsüm Nəvvabın evini, ümumiyyətlə şəhərin Şərq memarlığı xususiyyətlərini əks etdirən milli üslubda inşa edilmiş əksər yaşayış evlərini, buradakı qədim qəbiristanlığı, boyuk Azərbaycan şairi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin türbəsini, Ağdamda Pənah xanın imarətini, Cümə məscidini, Lacın rayonunda Həmzə Sultan və Soltan Əhməd saraylarını, məscidləri, ziyarətgah və ibadətgahları, daş heykəlləri, qədim qəbirləri, kurqanları, tarixi abidə olan yaşayış binalarını vandalcasma dağıtmış, daşınması mümkün olan maddi mədəniyyət abidələrini Ermənistana aparmışlar.

İşğal edilmiş ərazilərdə Azərbaycan xalqının maddi mədəniyyət yadigarlarının dağıdılması prosesi indi də davam edir. İşğalcılar geniş miqyaslı, qeyri peşəkar arxeoloji qazıntı işləri aparır, kurqanları dağıdır, qarət etdikləri tapıntıları Ermənistana daşıyırlar.

Ermənistan tərəfindən işğal edilmiş qədim Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli (6 memarlıq və 7 arxeoloji), 292 ölkə əhəmiyyətli (119 memarlıq və 173 arxeoloji) və 330 yerli əhəmiyyətli (270 memarlıq, 22 arxeoloji, 23 bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi) tarix və mədəniyyət abidələri qalmışdır. Bunlarla yanaşı, 40 mindən artıq eksponatın toplandığı 22 muzey, 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 klub, 4 teatr və 2 konsert salonu, 31 məscid, 9 tarixi saray, 8 mədəniyyət və istirahət parkı, 4 rəsm qalereyası, 85 musiqi məktəbi, 103200 ədəd mebel avadanlığı, 5640 musiqi aləti, 481 kinoqurğu, 20 ədəd kinokamera, 423 videomaqnitofon, 5920 dəst milli kişi və qadın geyimləri, 40 komplekt səsgücləndirici, 25 iri və 40 kiçik həcmli attraksion işğal olunmuş ərazilərdə qalmışdır.

Kecmiş SSRİ-də yeganə olan Ağdam Çörək muzeyi şəhərin bombardmanı zamanı yerlə yeksan edilmiş, dunya şöhrətli Kəlbəcər tarix-diyarşünaslıq muzeyinin 13 minədək, Lacın tarix-diyarşünaslıq muzeyinin 5 mindən cox qiymətli və nadir





eksponatı Ermənistana daşınmışdır.

Şuşanın işğal edilməsi nəticəsində 8 muzey, 31 kitabxana, 17 klub, 8 mədəniyyət evi dağıdılmış, viran edilmişdir. Şuşa şəhərinin tarixi muzeyinin 5 minədək eksponatı, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət muzeyi Şuşa filialının, Dövlət Qarabağ Tarixi muzeyinin 1000-dək eksponatı, Azərbaycan professional musiqisinin banisi, bəstəkar Üzeyir Hacıbəyovun (300-dən cox əşya), Azərbaycan vokal sənətinin əsasını qoymuş boyuk müğənni Bülbülün (400-dək əşya), gorkəmli musiqiçi və rəssam Mir Mövsüm Nəvvabın (100-dən cox əşya) xatirə müzeylərinin, Ağdam tarix-diyarşünaslıq muzeyinin (2 mindən cox əşya), Qubadlı tarix-diyarşünaslıq muzeyinin (3 mindən cox əşya), Zəngilan tarix-diyarşünaslıq muzeyinin (6 minədək əşya) fondları qarət edilmişdir.

Görkəmli Azərbaycan musiqiçisi Qurban Pirimovun Ağdam rayonundakı xatirə muzeyi, Cəbrayıl, Füzuli və Xocalı rayonlarının tarix-diyarşünaslıq muzeyləri də dağıdılmışdır. Erməni təcavüzkarlarının qarət etdikləri muzeylərdə Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlı qiymətli əşyalar, rəsm və heykəltəraşlıq əsərləri, dünya şöhrətli Azərbaycan xalçaları, xalça məmulatları, Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyaları, digər qiymətli materiallar olmuşdur. Şuşa, Lacın və Qubadlı rəsm qalereyalarının Azərbaycanın görkəmli rəssam və heykəltəraşlarının əsərlərindən ibarət fondları da dağıdılmışdır.

Erməni təcavüzkarları Azərbaycan musiqisinin böyük xadimləri Üzeyir Hacıbəyovun və Bülbülün, habelə şairə Xurşud Banu Natəvanın heykəllərini Şuşa şəhərindən Ermənistan ərazisinə aparmışlar. Bu abidələr bütün mənəviyyat normalarının ziddinə olaraq vəhşicəsinə güllələnmiş və ağır texnika vasitəsilə zədələnmişdir. Həmin abidələr çox çətinliklə əldə edilərək Bakıya gətirilmiş və hazırda Azərbaycan Dövlət İncəsənət Muzeyində numayiş etdirilir.

Beləliklə, Ermənistanın işğalı nəticəsində Azərbaycana vurulmuş humanitar və mədəni-tarixi zərərin miqdarı çox

böyükdür. Erməni təcavüzkarları tərəfindən Azərbaycanın mədəni irsini təşkil edən obyektlər talanmışdır. Azərbaycan ərazilərinin Ermənistan hərbi işğalı ölkədə ağır humanitar böhran vəziyyətinin yaranması, çoxsaylı sosial-iqtisadi obyektlərin məhv edilməsi və ölkə iqtisadiyyatına ciddi ziyanların vurulması ilə yanaşı, Azərbaycan xalqının tarixi, maddi mədəniyyət abidələrinə də ağır zərər vurmuşdur və, əfsuslar olsun ki, hazırda həm bu abidələrin qiymətlərini, həm də onların dağıdılaraq məhv edilməsi nəticəsində Azərbaycan xalqına dəymiş mənəvi zərərin miqyasını təyin etmək praktiki olaraq mümkün deyildir. Belə ki, talan olunmuş və məhv edilmiş mədəni-tarixi abidələr təkcə Azərbaycanın yox, həm də dünya sivilizasiyasının çox dəyərli mədəniyyət nümunələri idi.





## 5. Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində ətraf mühitə və təbii sərvətlərə dəymiş zərər

Ermənistanın silahlı təcavüzü nəticəsində 1988-1993-cü illər ərzində Azərbaycan Respublikasının 1,7 milyon ha ərazisi işğal olunmuşdur. İşğal olunan ərazilər Kiçik Qafqazın dağlıq zonası olmaqla Azərbaycanın iri meşə rayonlarıdır və Azərbaycanın meşə örtüyünün 25%-i bu ərazilərdə yerləşir. Bundan əlavə, işğal edilmiş ərazilərdə təbiət abidələri, nadir bitki və heyvan növləri geniş yayılmışdır. Həmin ərazilərdə 460 növdən çox yabanı ağac və kol bitkiləri bitir. Bunlardan 70-i endemik növlər olub, dünyanın heç bir yerində təbii halda bitmir. Qaracöhrə, ayıfındığı, Araz palıdı, yalanqoz, şərq çinarı, adi nar, meşə üzümü, pirkal, şümşad, eldar şamı, adi xurma, söyüdyarpaq armud və s. növ ağaclar işğal olunmuş ərazilərdə məhv edilərək, dünya florasının xəzinəsindən silinmək üzrədir. Eyni zamanda, bu ərazilərdə "Azərbaycan Respublikasının Qırmızı Kitabı"na daxil edilmiş məməlilərin 4, quşların 8, balıqların 1, amfibiya və reptililərin 3, həşaratların 8, bitkilərin isə 27 növü qorunurdu.

Qeyd etmək lazımdır ki, Kiçik Qafqazın təbii landşaftı, nadir bitki və heyvanlar aləmini mühafizə etmək məqsədi ilə Dağlıq Qarabağ münaqişəsindən əvvəlki illərdə Azərbaycanda həyata keçirilən tədbirlər nəticəsində xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi 890 min hektara çatdırılmışdı və bir sıra qoruq və yasaqlıqlar təşkil olunmuşdu. Lakin bu ərazilərin 42997 hektarı Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Bəsitçay Dövlət Təbiət Qoruğu, Qaragöl Dövlət Təbiət Qoruğu, Arazboyu Dövlət Təbiət Yasaqlığı, Laçın rayon Dövlət Təbiət Yasaqlığı, Qubaqlı rayon Dövlət Təbiət Yasaqlığı və Daşaltı Dövlət Təbiət Yasaqlığının ərazilərində olan qiymətli ağac və biomüxtəlifliyin digər növləri hazırda Ermənistan tərəfindən talan edilərək məhv edilməkdədir.

Nümunə üçün göstərmək lazımdır ki, Bəsitçay Dövlət Təbiət Qoruğu 1974-cü ildə Azərbaycanın cənubi-qərbində, hazırda işğal altında olan Zəngilan rayonu ərazisinin Bəsitçay dərəsində şərq çinarını qorumaq məqsədilə yaradılmışdır və onun sahəsi 107 hektardır. Çay boyu şərq çinarı meşəliyi 12 km məsafədə uzanır və yaşı 500 ilə qədər olan şərq çinarı ağacları "Azərbaycan Respublikasının Qırmızı Kitabı"na daxil edilmişdir. Eyni zamanda qeyd edilməlidir ki, Laçın rayon Dövlət Təbiət Yasaqlığı Azərbaycanın işğal olunmuş Laçın rayonu ərazisində 1961-ci ildə təşkil edilmişdir. Sahəsi 21, 4 min ha olan bu yasaqlıqda dağ keçisi (təqribən 400 baş), cüyür (500), çöl donuzu (400), turac (800), kəklik (2500) mühafizə olunurdu. Bu təbiət inciləri işğalçı Ermənistan tərəfindən kobudcasına məhv edilmişdir.

Bütövlükdə, Ermənistanın işğalı altında olan Azərbaycan ərazilərində 247352 ha meşə sahəsi, o cümlədən 13197,5 ha qiymətli meşə sahələri, 152 ədəd təbiət abidəsi və 5 ədəd geoloji obyekt qalmışdır və böyük əhəmiyyət kəsb edən bu təbiət abidələrinin əksəriyyəti işğalçı dövlət tərəfindən amansızcasına məhv edilmişdir. Belə ki, Kəlbəcər rayonunda "Azərbaycan Respublikasının Qırmızı Kitabı"na daxil edilmiş 968 ha ərazini əhatə edən ayıfındığı ağacları kütləvi şəkildə qırılaraq xarici ölkələrə satılır. Rayon ərazisində 4 mindən artıq müxtəlif növ bitki vardır ki, bunlardan 200-ə qədəri dərman bitkiləridir. Onlar da xarici şirkətlər tərəfindən kütləvi şəkildə beynəlxalq hüquq normalarına zidd formada talan edilərək digər ölkələrə daşınır ki, bu da bitkilərin həmin ərazilərdə kökünün kəsilməsinə və regionda mövcud biomüxtəlifliyin məhv edilməsinə səbəb olur.

Hazırda işğalçı Ermənistan tərəfindən Azərbaycanın təbiətinə qarşı planlaşdırılmış ekosid siyasəti həyata keçirilir. İşğal edilmiş ərazilərdə meşələrin qırılması və məhv edilməsi hesabına Ermənistanda ağac emalı sənayesi inkişaf edir. Təkcə, 1993-cü ildə işğal edilmiş ərazilərdən Ermənistana 206,6 min $m^3$ qiymətli ağac növləri aparılmışdır.

İşğal edilmiş regionun faunasına da əvəzolunmaz zərər






vurulmuşdur. Regionun bioloji müxtəlifliyi təhlükə altındadır, çünki bir çox növü "Qırmızı kitab"-a salınmış faunanın nəzarətsiz məhv olunması prosesi gedir. İşğal olunmuş Laçın rayonunda yasaqlıq məhv edilir. Bu yasaqlıqda yerləşən Hacışamlı meşəsində ermənilər, sonradan xaricə satış məqsədlə, qırmızı palıdın qırılması və tədarük edilməsi ilə məşğuldurlar. Bununla yanaşı, xarici ölkələrə satış məqsədilə, dekorativ mebel və parketin hazırlamasında əvəzsiz olan Bəsitçay qoruğu ərazisində bitən genişyarpağlı palıd meşələri, çinar və qoz ağacları da qırılır. Sahəsi 240 ha olan Qaragöl qoruğu da tamamilə məhv olunma təhlükəsi qarşısındadır. Burada 68 müxtəlif bitki növünə və 27 bitki ailələsinə mənsub olan bitkilər var idi. Sahəsi 13160 ha meşə təsərrüfatı olan Qubadlıda da meşələr tamamilə məhv edilib. 2005-ci ilə kimi ermənilər işğal edilmiş ərazilərdən 720 min $m^3$ ağac tədarük etmişlər.

Bununla yanaşı, Şuşa şəhərindən cənubda, dəniz səviyyəsindən 1365 m hündürlükdə yerləşən, Titon yaşlı əhəng daşlarından ibarət uzunluğu 114 m olan "Xan Mağarası" mühafizə olunurdu. Müxtəlif mənbələrdən alınan məlumatlara görə, həmin abidələr qəddarcasına məhv edilir və digər məqsədlər üçün istifadə olunur.

Ermənistanın işğalı altında olan Azərbaycan ərazilərində ekoloji əhəmiyyətə malik olan bir çox göllər hazırda böyük antropogen təsirə məruz qalır və bununla da regionda ekoloji tarazlıq ciddi şəkildə pozulur. Belə ki, irili-xırdalı 7 relikt göl – Kəlbəcər və Laçın rayonlarının yaylaqlarında Böyük Alagöl, Kiçik Alagöl, Zalxagöl, Qaragöl, Canlıgöl, İşıqlı Qaragöl və Ağdərə rayon ərazisində (Tərtərin qolu Torağaçayda) Qaragöl kimi şirin su ehtiyatları hazırda işğal altında qalmaqdadır.

İşğal edilmiş Azərbaycan ərazilərində böyük müalicə əhəmiyyəti olan 120-dək müxtəlif tərkibli mineral su yataqları mövcuddur. Bunların içərisində Kəlbəcər rayonunda Yuxarı və Aşağı İstisu, Bağırsaq, Keşdək, Laçın rayonunda İlıqsu, Minkənd, Şuşa rayonunda Turşçu, Sırlan və başqa mineral sular xüsusilə qeyd edilməlidir. Kəlbəcər rayonu ərazisində yerləşən

İstisu mineral suları özlərinin əlverişli qaz və kimyəvi tərkibinə, yüksək temperaturuna, böyük təbii ehtiyatlarına görə xüsusilə fərqlənir. Bu mineral sular həm xarici, həm də daxili xəstəliklər üçün müalicəvi xüsusiyyətlərə malikdir. Odur ki, İstisu bulağı üstündə 80-ci illərdə iri kurort və mineral su doldurma zavodu tikilmişdi. Həmin zavod sutka ərzində 800 min litr su istehsal edirdi. Şuşa şəhərinin 17 km-lik məsafəsində yerləşən Turşsu mineral bulağı vasitəsi ilə müxtəlif daxili xəstəliklər müalicə olunur. Turşsu mineral bulağından kəmər vasitəsi ilə Şuşa şəhərinə su verilirdi. Ümumiyyətlə, Azərbaycanın mineral sularının ümumi geoloji ehtiyatlarının 39,6%-i hazırda işğal altında olan rayonların payına düşürdü.

Qeyd etmək lazımdır ki, Ermənistanın silahlı təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərinə yaxın olan rayonlarının su təminatı və suvarma sistemi pozulub, bu isə torpağın və bitki qatının vəziyyətinə mənfi təsir göstərir. Quraq region hesab edilən Azərbaycan üçün suvarma əkinçiliyinin inkişafı, şəhər və kəndlərin su ilə təchizatı həyati məsələlərdən biridir. Bu baxımdan Azərbaycanın su ehtiyatlarının formalaşmasında sıx çay şəbəkəsinə malik olan və hazırda Ermənistanın işğalı altında qalmış Kiçik Qafqaz dağlarının da əhəmiyyəti əvəzedilməzdir. Bu dağlardan öz mənbəyini götürən bütün çaylar, xüsusilə Kürün sağ qolları olan Tərtər, Həkəri, Xaçınçay, Köndələnçay və başqaları özləri ilə düzən ərazilərə bol su gətirirlər, onların bəzilərinin üzərində süni göllər və suvarma kanalları yaradılmışdır. Belə ki, 1976-cı ildə Tərtər çayı üzərində inşa edilmiş, bəndinin hündürlüyü 125 m və ümumi su tutumu 560 milyon m$^3$ olan Sərsəng su anbarı da Ermənistanın işğalı altında qalmış ərazilərdə yerləşir. Ermənistanın işğalından əvvəl Sərsəng su anbarından öz başlanğıcını götürən magistral kanallar vasitəsilə Azərbaycanın düzənlik hissələrində yerləşən Tərtər, Ağdam, Bərdə, Goranboy və digər rayonları ərazilərində 79000 ha əkin sahəsi suvarılırdı. Hazırda Azərbaycanın 7 rayonu Sərsəng su anbarından istifadə etmək imkanlarından məhrum edilmişdir. Uzun müddət ərzində texniki qurğulara



Xocalı soyqırımının qurbanları. Fevral 1992





Xocalı soyqırımının qurbanları. Fevral 1992



Xocalı soyqırımının qurbanları. Fevral 1992







Xocalı soyqırımının qurbanları. Fevral 1992







xidmət göstərilməməsi nəticəsində qəza vəziyyətində olan anbardan aşağıda yerləşən 400 min nəfər Azərbaycan əhalisi hazırda təhlükə altında yaşayır. Belə ki, təcavüzkar Ermənistan suyu Sərsəng su anbarından qışda buraxır və bunun nəticəsində torpağlar su altında qalır, yollar dağılır, sel baş verir. İnsanların və kənd təsərrüfatının suya çox böyük ehtiyac duyduğu yay mövsümündə isə, əksinə suyun qarşısını kəsir. Bunun nəticəsində Azərbaycanm kənd təsərrüfatına ciddi ziyan vurulmuş, əkin sahələrinin suvarılmasında problemlər yaranmış, yaşıllıqlar quruyaraq məhv olmuş, bölgədə ciddi ekoloji gərginlik yaranmışdır.

İşğal nəticəsində ümumu həcmi 674 mln. $m^3$ təşkil edən 5 su anbarından, 7296 hidrotexniki qurğusundan, 36 nasos stansiyasmdan və 26 suvarma sistemindən ibarət olan 1203 kilometrlik irriqasiya infrastrukturu və su kommunikasiya sistemi tamamilə məhv edilmişdir. Azərbaycanın vahid irriqasiya infrastrukturu sisteminin bir hissəsi olan Dağlıq Qarabağ regionunun irriqasiya sisteminin məhv edilməsi nəticəsində işğal olunmuş ərazilər hüdudundan kənarda qalmış Azərbaycanın 5 rayonunda 120 min ha torpaq sahəsi suvarmasız qalmış və praktiki olaraq təsərrüfat dövriyyəsindən çıxarılmışdır. Ümumi olaraq isə 1 milyon hektardan çox torpağ sahəsi, o cümlədən 127700 hektar suvarılan torpaq sahəsi və 34600 hektar üzüm və meyvə bağçaları əkin növbəsindən çıxardılmış və yararsız hala düşmüşdür.

Azərbaycanın ərazisindən axan transsərhəd çaylar Ermənistan tərəfindən qəsdən zəhərləyici maddələrlə çirkləndirilir. Belə çaylar arasında Araz, Ağstafa və s. çaylarının adlarını çəkmək olar. Onu da qeyd etmək lazımdır ki, Azərbaycanın çay suları resurslarının təxminən 70% tranzit çaylar hesabına formalaşır. Çay sularının çirklədilməsi ilə mübarizə üzrə bir çox regional sazişlərdə birbaşa nəzərdə tutulur ki, digər dövlətin ərazisindən axan çay sularının əhəmiyyətli dərəcədə çirklədilməsi və bununla da bu dövlətə əhəmiyyətli dərəcədə zərər vurulması beynəlxalq hüquq normalarının ciddi şəkildə

pozulması deməkdir.

Qeyd etmək lazımdır ki, Qazax rayonunun Aşağı Əkipara, Yuxarı Əskipara, Quşçu Ayrım, Barxudarlı və digər yaşayış məntəqələrinin dağıdılması və işğal olunması nəticəsində Ağstafa çayı üzərində sərhəddə yaradılmış və Azərbaycanın qərb rayonları üçün təsərrüfat əhəmiyyəti daşıyan su anbarına da təhlükə yaranmışdır. Belə ki, su tutumu 120 milyon $m^3$ olan Ağstafa su anbarından başlayan və uzunluğu 72,3 km olan suvarma kanalı Qazax, Ağstafa, Tovuz və Şəmkir inzibati rayonlarının dağətəyi təsərrüfatlarını və yaşayış məntəqələrini su ilə təmin edir.

Azərbaycanın ən zəngin faydalı qazıntı yataqları da Ermənistan tərəfindən işğal edilmiş ərazilərdə qalmışdır. Belə ki, bu ərazilərdə 155 növ faydalı qazıntı yataqları, o cümlədən 5 qızıl, 6 civə, 2 mis, 1 qurğuşun və sink, 19 üzlük daşı, 10 mişar daşı, 4 sement xammalı, 13 müxtəlif növ tikinti daşları, 1 soda istehsalı üçün xammal, 21 pemza və vulkan külü, 10 gil, 9 qum-çınqıl, 5 tikinti qumu, 9 gips, anhidrid və gəc, 1 perlit, 1 obsidian, 3 vermikulit, 14 əlvan və bəzək daşları (əqiq, yəşəm, oniks, cad, pefritoid və s.), 11 şirin yeraltı su və 10 mineral su yatağı yerləşir ki, bütün bunlar da Azərbaycanın iqtisadi potensialında mühüm əhəmiyyət kəsb edirdi. Qeyd edilən faydalı qazıntılar Qızılbulaq, Mehmana, Dəmirli, Canyataq-gülyataq, Ağdərə, Şorbulaq, Şuşa, Şirlan, Turşsu, Xocalı, Zərinbax, Ağçay, Xankəndi, Ediş, Xocavənd, Söyüdlü, Ağduzdağ, Tutxun, Ağyataq, Levçay, Kilsəli, Keşdək, Keçəldağ, Çəlli, Yuxarı istisu, Aşağı istisu, Mozçay, Qoturlu, Çilkəz, Narzanlı, Əhmədli, Hoçaz, Laçın, Novruzlu, Yuxarı Əkərəçay, Quşçu, Minkənd, Hacılı, Xanlıq, Qubadlı, Vejnəli, Bartaz, Oxçuçay, Zəngilan, Şərifan, Tuluz, Qaracalı, Soltanlı, Çaxmaxçay, Göyərçin-Veysəlli, Minbaşılı, Ağtəpə, Cəfərabad, Şahverdilər, Çaxmaxqaya, Dövlətyarlı, Diləgərdi, Kürdmahmudlu, Quruçay, Şahbulaq, Gülablı, Çobandağ, Boyəhmədli, Şahbulaq, Ağdam, Qarqarçay, Xaçınçay və digər yataqlarda aşkar edilmişlər. Bu yataqlarda sənaye ehtiyatları təsdiq edilmiş 132,6 ton qızıl, 37,3 min ton qurğuşun,



Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri

40,4 min ton sink, 189 milyon $m^3$ mişar daşı, 1 milyon 526 min ton gəc, 1 milyon 968 min $m^3$/gün yeraltı şirin su, 18 milyon 432 min $m^3$ üzlük daşı, 23 milyon 243 min $m^3$ gil, 57 milyon 965 min ton tikinti daşı, 7805 $m^3$/gün mineral sular, 96 milyon 987 min ton qum-çınqıl, 1898,4 ton civə, 4 milyon 473 min $m^3$ perlit, 2 milyon 144 min $m^3$ pemza, 129 milyon 833 min $m^3$ soda istehsalı üçün əhəngdaşı, 147 milyon 108 min ton sement xammalı və s. kimi ölkə iqtisadiyyatının inkişafında vacib əhəmiyyət kəsb edən faydalı qazıntılar aşkar edilmişdir. Müxtəlif məlumatlara görə işğalçı dövlət bir sıra xarici şirkətlərlə qeyri-qanuni olaraq müqavilələr bağlamışdır və bütün beynəlxalq hüquq normalarına zidd olaraq Azərbaycanın faydalı qazıntı yataqlarını istismar edir.

Ermənistan tərəfindən işğal edilmiş ərazilərdə regionun mineral resurslarının vəhşicəsinə istismar edilməsi və dağıdılması siyasəti həyata keçirilir. İşğal edilmiş rayonların 2 qızıl, 4 civə, 2 xromit, 1 qurğuşun-sink, 1 mis və 1 sürmə mədənində çıxarılan faydalı mineral resurslar Ermənistanın zənginləşdirici emal müəssisələrinə daşınır. Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistan tərəfindən aparılan qanunazidd siyasətin nümunəsi kimi Kəlbəcərdə yerləşən Söyüdlü qızıl mədənin birgə işlədilməsinə və istismar edilməsinə dair Kanadanın *"First Dinesty Mines"* şirkəti ilə bağlanılan müqaviləni göstərmək olar. Ermənistan bu mədənlərdən ildə 13 ton qızıl çıxarır. Erməni işğalçıları həm də Zəngilan və Kəlbəcərdə yerləşən "Vəcnəli" və "Qızıl bulaq" qızıl mədənlərini də qanunsuz istismar edirlər.

Xüsusilə vurğulanmalıdır ki, Azərbaycanın işğal altında olan ərazilərdən keçən təbii su mənbələri də Ermənistan tərəfindən həddindən artıq dərəcədə çirklənmələrə məruz qalır. Belə ki, Araz və Kür çaylarının qolları olan Oxçuçay və Ağstafaçayın Ermənistan tərəfindən ən ağır formada çirkləndirilməsi nəticəsində sözügüdən çaylarda canlı aləmin yaşayışı böyük təhlükə altına alınmışdır.

Erməni təcavüzkarları tərəfindən bütün işğal edilmiş ərazilərdə etnik təmizləmə ilə yanaşı, həm də "yandırılmış tor-

paq" siyasəti həyata keçirilir. Belə ki, Ermənistan tərəfindən təmas xəttində yerləşən Ağdam, Füzuli, Cəbrayıl, Tərtər və Xocavənd rayonlarının əraziləri mütəmadi olaraq düşünülmüş şəkildə od vurularaq yandırılır. Qeyd edilməlidir ki, ölkələr arasında dövlət sərhədinin rejimi haqqında bir çox sazişlərdə nəzərdə tutulur ki, əgər sərhəd yaxınlığında yanğınlar baş verərsə, öz ərazisində yanğın baş vermiş tərəf belə yanğının söndürülməsi və yanğının sərhəddən keçib digər dövlətin ərazisinə yayılmaması üçün bütün mümkün olan tədbirlərə əl atmasına borcludur. Lakin tamamilə əksi baş verir. İşğal olunmuş Azərbaycan ərazilərində erməni tərəfinin özü qəsdən yanğınlar törədir. Çox guman ki, bütün cəbhə xətti üzrə erməni tərəfindən törədilən belə yanğınlar hərbi məqsəd güdür. Ola bilər ki, ermənilər Azərbaycan ordusunun bütün hərəkətlərinin dəqiq izlənməsi üçün ərazinin təmizlənməsinə can atırlar. Belə qəsdən törədilən yanğınlar həm də Azərbaycanın öz nəzarəti altında olan ərazilərə də əhəmiyyətli zərər vurmuşdur. Yanğınların nəticəsi kimi torpaq eroziyaya məruz qalır, bu ərazilərin unikal bitki və heyvan aləmi məhvolma təhlükəsi altına düşür.

İşğalçı Ermənistan dövlətinin planlı şəkildə təşkil etdiyi yanğınlar işğal altında olan minlərlə hektar əraziləri əhatə etməklə yanaşı, eyni zamanda, Azərbaycanın digər ərazilərinə də yayılaraq ətraf mühitə əvəzolunmaz ziyan vurmuş, bir çox nadir bitki növləri tamamilə məhv edilmiş və əkin sahələri yararsız hala salınmışdır. Təkcə Ağdam rayonunun işğal altında olan Novruzlu, Yusifcanlı, Mərzili, Baş Qərvənd, Kəngərli, Çəlik, Qaradağlı-Kəngərlisi, Göytəpə, Gülçülük kəndlərində və Uzundərə, Yeddixırman, Şahbulaq dağ massivlərində erməni hərbçiləri tərəfindən ümumilikdə 17457 ha otlaq sahəsi yandırılmışdır. Yanğın zamanı "Qırmızı Kitab"a və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı siyahı"sına düşmüş müxtəlif sayda turac, qırqovul və gürzə məhv olmuşdur [54]. Bütövlükdə, Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan ordusunun əsgərləri tərəfindən qəsdən törədilmiş yanğınlar nəticəsində 96 min ha otlaq, biçənək və yaşıllıqlar, həmçinin meşə sahələri





yanaraq məhv olmuş, torpağın üst münbit qatı yararsız hala salınmışdır. İlkin hesablamalara görə, təkcə yanğınlar zamanı ətraf mühitə bilavasitə vurulan zərərin miqdarı 223 milyon ABŞ dollarından (176 mln. AzN) artıq olmuşdur [55].

Ermənistanın işğal edilmiş ərazilərdə canlı təbiətə və, ümumiyyətlə, bəşəriyyətə qarşı yönəlmiş cinayət əməlləri ilə bağlı Azərbaycan tərəfi Avropa Vəhşi Təbiətin və Təbii Ətraf Mühitin Mühafizəsi üzrə Bern Konvensiyasının baş katibini, Biomüxtəliflik üzrə Konvensiyanın icraçı katibini, BMT İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının katibliyini, Təbiətin və Təbii Sərvətlərin Mühafizəsi üzrə Beynəlxalq Birliyin Prezidentini rəsmi şəkildə məlumatlandırmış, işğalın aradan qaldırılması və təbiətə qarşı törədilən cinayət əməllərinin qarşısının alınması istiqamətində təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinin zəruriliyi beynəlxalq təşkilatların diqqətinə çatdırılmışdır.

## 6. Ermənistanın işğalı nəticəsində Azərbaycana vurulmuş sosial-iqtisadi zərər

Ermənistanın silahlı təcavüzü və Azərbaycanın 20% ərazisinin işğalı nəticəsində bölgədə yaranmış fövqəladə humanitar vəziyyətlə yanaşı, həmin ərazilərdəki sənaye və kənd təsərrüfatı infrastrukturları məhv edilmiş, bütövlükdə ölkə iqtisadiyyatına külli miqdarda zərər vurulmuşdur.

İşğal olunmuş ərazilərdə fəaliyyət göstərən sənaye sahələri respublika iqtisadiyyatında mühüm yer tuturdu. Burada yeyinti, yüngül, tikinti materialları sənayeləri üzrə müəssisələr daha çox inkişaf etdirilmişdi. Göstərilən sahələrin bu regionda inkişafına güclü kənd təsərrüfatı xammal və yerli təbii ehtiyatlar müsbət təsir göstərirdi. İşğal edilmiş ərazilərin sənaye sahələrindən ən güclü inkişaf edənləri yerli əhalinin ərzaqla təmin olunmasında mühüm əhəmiyyət kəsb edən yağ-pendir, şərabçılıq və qismən də yüngül sənaye sahələri idi. DQMV-nin sənaye sahələri tərkibi və inkişaf səviyyəsinə görə keçmiş Azərbaycan SSR-nin iqtisadi regionları arasında dördüncü yeri tuturdu (Abşeron, Gəncə-Qazax, Naxçıvan MR). İşğal olunmuş rayonların sənaye potensialı əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisində cəmlənmişdi. Sayca ən çox sənaye və tikinti müəssisələri (137 müəssisə) bu vilayətin ərazisində yerləşdirilmişdi. İşğal altında olan rayonların bütün sənaye məhsullarının 40%-ə qədəri və yaradılmış əsas fondların 18,7 %-i bu vilayətin və sənaye məhsulunun 5%-i, əsas fondların isə 41%-i Füzuli və Ağdam rayonlarının payına düşürdü. Sənaye və tikinti sahəsində ikinci pilləni Ağdam və Füzuli inzibati rayonları (sənaye məhsulunun 51%-i, əsaslı fondların 41%-i), yerdə qalan 5 inzibati rayonda - Laçın, Kəlbəcər, Cəbrayıl, Qubadlı və Zəngilanda sənaye xeyli zəif inkişaf etmişdi. Azərbaycan SSR-nin 1988-ci ildə ümumi sənaye məhsulunun 2,7 faizi, əsas fondların isə 3,4 faizi işğal altında olan rayonların payına düşürdü.

İşğal olunmuş rayonların ayrı-ayrı sənaye məhsullarına





görə Dağlıq Qarabağ münaqişəsindən əvvəl Azərbaycan Respublikası üzrə xüsusi çəkisi belə olmuşdur: divar materialları - 11,0%, tikinti əhəngi - 7,8%, tikinti materialları - 3,0%, ayaqqabı - 11,0 %, ət - 5,0%, konservlər - 6,9 %, inək yağı - 25,2%, şərab materialları - 35%, xam ipək - 13,5%, yun - 19.3%, mineral su - 15% və s. Həmin rayonlarda İstisu və Turşsu mineral su qablaşdırma müəssisələri, Dağlıq Qarabağ və Ağdamdakı mərmər, mişar daşı zavodları, çoxlu keyfiyyətli və hətta keçmiş SSRİ-də məşhur olan "Ağdam" tipli şərablar və digərlərini istehsal edən şərab zavodları, yağ-pendir müəssisələri, toxuculuq və ayaqqabı fabrikləri, Qarabağ İpək Kombinatı və s. fəaliyyət göstərirdi. Bakıdakı müəssisələrinin 50-dən çox yeni filialı işğal olunmuş ərazilərdə qalmışdır. Ümumiyyətlə, bu regionda 310-dan çox sənaye və tikinti obyektləri, o cümlədən 183-dən çox sənaye və 127 tikinti müəssisələri qalmışdır.

Bununla yanaşı, regionda güclü kommunikasiya xətləri və obyektləri yaradılmışdı. Ermənistanın hərbi təcavüzü nəticəsində ümumi uzunluğu 25 min km olan avtomobil və torpaq yolları, ümumi uzunluğu 3984 metr olan 160 ədəd körpü, 14,5 min km uzunluğunda elektrik xətləri, 2500 ədəd transformator, 2,3 min km su kəməri xətti, 2,0 min km qaz kəməri, ümumi uzunluğu 240 km olan kanalizasiya xətti, 160 ədəd su tutar, 34 ədəddən çox qaz paylayıcı qurğu, 35 min saylıq telefon stansiyası və s. dağıdılmışdır. Eyni zamanda 4 aeroport, Bakı-Ağdam və Horadiz-Ordubad dəmiryolu xətləri, Bakı-Xankəndi-Naxçıvan qaz kəməri və s. işğal olunmuş ərazilərdə qalmışdır.

Qeyd etmək lazımdır ki, Ermənistanın işğalı altında olan ərazilər Azərbaycanın iri kənd təsərrüfatı regionu idi. Əlverişli dağarası və dağətəyi düzənlikləri və hamar səthli yaylaqları olan, yaxşı rütubətlənən Kiçik Qafqazın işğal olunmuş hissəsi ölkədə kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq sahələrinin inkişafına geniş imkanlar yaradırdı. Kənd təsərrüfatının tərkibində taxılçılıq, yem istehsalı, üzümçülük, tütünçülük, kartofçuluq, pambıqçılıq, heyvandarlıq və xüsusilə qoyunçuluq daha üstün yer tuturdu.

Yuxarı Qarabağın qədimdən inkişaf etdirilən üzümçülük sahəsinə 70-ci illərdən sonra daha böyük diqqət yetirildi. Üzümçülük və şərabçılığın inkişafı ilə bağlı olaraq yeni texnikası və şərab zavodları olan ixtisaslaşdırılmış iri sovxoz-zavodlar yaradıldı. Regionda inkişaf etdirilən sahələrdən biri də tütünçülük idi. Ermənistanın təcavüzü nəticəsində həmin ərazidə fəaliyyət göstərən bir çox kənd təsərrüfatı müəssisələri, o cümlədən, kolxozlar, sovxozlar, təsərrüfat birlikləri və aqrofirmalar öz fəaliyyətlərini dayandırmışdır.

İşğal olunmuş ərazilərdə 7296 ədəd hidroqurğu, 36 ədəd nasos stansiyası, 26 ədəd suvarma sistemi, 18 ədəd suvarma sisteminin baş qurğusu, 1200 km təsərrüfatlar arası suvarma kanalı, 5600 km təsərrüfatdaxili sistem sıradan çıxarılmış, 127,7 min ha keyfiyyətli suvarılan torpaq qalmışdır.

Ermənistanın işğal etdiyi ərazilərdə həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində məcburi köçkünə çevrilmiş yüz minlərlə etnik azərbaycanlı öz doğma torpaqlarında yetişdirdikləri kənd təsərrüfatı məhsullarından məhrum edilmişdir. Bundan əlavə, köçkünlərin müvəqqəti məskunlaşdıqları düzən ərazilər tamam başqa torpaq-iqlim şəraitinə və ona uyğun aqroqaydalarla becərilən kənd təsərrüfatı məhsullarına malikdir. Yeni ərazidə belə məhsulları becərmək onlara çox böyük çətinliklər törədir.

Qeyd edilməlidir ki, Azərbaycan Respublikasında istehsal edilən taxılın 14,3%-i, üzümün 31,5%-i, ətin 14,5%-i, südün 17,1%-i, yunun 19,3%-i və baramanın 17%-i işğal olunmuş rayonların payına düşürdü. Özü də bu rayonlarda ekoloji cəhətdən ən təmiz və keyfiyyətli kənd təsərrüfatı məhsulları yetişdirilirdi.

Ermənistan təcavüzü bu rayonların yüksək inkişaf etmiş heyvandarlıq sahələrinə daha çox ziyan vurmuşdur. Belə ki, Azərbaycan SSR-də dağ rayonlarının sosial-iqtisadi geriliyini aradan qaldırmaq məqsədi ilə əvvəlki illərdə həmin ərazilərə böyük həcmdə vəsait yönəldilmiş, vergilərin həcmi azaldılmış, şəxsi həyətyanı təsərrüfatlar inkişaf etdirilmişdir. Bütün



Erməni silahlı birləşmələri tərəfindən dağıdılmış infrastruktur, sosial, məişət obyektləri və yaşayış evləri







Erməni silahlı birləşmələri tərəfindən dağıdılmış infrastruktur, sosial, məişət obyektləri və yaşayış evləri







Erməni silahlı birləşmələri tərəfindən dağıdılmış infrastruktur, sosial, məişət obyektləri və yaşayış evləri







Erməni silahlı birləşmələri tərəfindən dağıdılmış infrastruktur, sosial, məişət obyektləri və yaşayış evləri

Erməni silahlı birləşmələri tərəfindən dağıdılmış infrastruktur, sosial, məişət obyektləri və yaşayış evləri









Erməni silahlı birləşmələri tərəfindən dağıdılmış infrastruktur, sosial, məişət obyektləri və yaşayış evləri



Erməni silahlı birləşmələri tərəfindən dağıdılmış infrastruktur, sosial, məişət obyektləri və yaşayış evləri







Erməni silahlı birləşmələri tərəfindən dağıdılmış infrastruktur, sosial, məişət obyektləri və yaşayış evləri







bu tədbirlər dağ rayonlarında heyvandarlıq sahələrinin güclü inkişafına səbəb olmuşdur. Azərbaycan rayonlarının qəfildən və bir-birinin ardınca işğal edilməsi müharibə zonasından mal-qara sürülərinin qabaqcadan çıxarılmasına imkan vermədi. Bu ərazilərdən kiçik qruplarla çıxarılan heyvanlar yol boyu aclıq və susuzluqdan tələf oldu.

Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğal olunması nəticəsində 311 kənd təsərrüfatı müəssisəsi, o cümlədən 145 yeni yaradılmış, müasir texnika ilə təchiz olunmuş üzümçülük-şərabçılıq müəssisəsi və xüsusilə, məşhur Qarabağ cins-cıdır atları yetişdirən Ağdam atçılıq sovxozu, 135 kolxoz və 31 təsərrüfatarası müəssisə dağıdılmışdır. Bununla yanaşı, 1365 avtomobil, 3425 əkin və qoşqu traktoru, taxıl və pambıq yığan kombaynlar, 7296 hidroqurğu, 62 su nasosu və suvarma aqreqatları, 1200 km təsərrüfatlararası suvarma kanalı, 645,5 min ha kənd təsərrüfatına yararlı torpaq, 185,5 min ha əkin sahəsi, 40 min ha cavan üzüm plantasiyası sıradan çıxarılmış, hər il orta hesabla 79,4 min ton taxıl, 20,5 min ton pambıq, 324, 3 min ton üzüm, 23,5 min ton kartof, və b. bitkiçilik məhsulları işğal nəticəsində toplanmamış, 313,1 min başdan çox iri buynuzlu mal-qara, o cümlədən 111,2 min baş inək və camış, 1 milyon 98 min qoyun və keçi qarət edilmiş və Azərbaycanın hüdudlarından kənara sürülüb aparılmış, həmçinin 20 min ton ət, 75,5 min ton süd, 846 ton illik heyvandarlıq məhsulları itirilmişdir. Azərbaycanın yay otlaqlarının 70%-i işğal zonasında qalmışdır.

Qeyd etmək lazımdır ki, hələ münaqişədən əvvəl Azərbaycan dövləti dağ rayonlarının, o cümlədən, Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) məhsuldarlıq qüvvələrinin inkişaf etdirilməsi haqqında qərar qəbul etmişdir. Bununla bağlı olaraq, DQMV və hazırda Ermənistanın işğalı altında olan digər rayonların ərazisində geniş miqyaslı tikinti işlərinə başlanılmışdır. Burada güclü tikinti təşkilatları yaradılmış, bölgəyə yeni maşın mexanizmləri və nəqliyyat vasitələri gətirilmişdir. Yerlərdə güclü tikinti materialı müəssisələri, o cümlədən,

DQMV-də mərmər zavodu tikilmişdir. İşğal nəticəsində yeni tikintilər üçün gətirilmiş bütün bu maddi-texniki baza məhv edilmiş və nəzərdə tutulan layihələr həyata keçirilməmişdir.

Bundan əlavə, Azərbaycanın cəbhəyanı və Ermənistan ilə sərhədyanı rayonlarına da külli miqdarda birbaşa zərər vurulmuşdur. Belə ki, Ermənistan ilə həmsərhəd olan rayonların bir çox məntəqələri tamamilə dağıdılmış, dinc əhali isə öz doğma yurdlarını tərk etməyə məcbur olmuş, bu rayonlarda olan sosial-iqtisadi, mədəniyyət müəsisələri, sənaye və kənd təsərrüfatı obyektləri məhv edilmişdir. Ümumiyyətlə, Ermənistanın silahlı təcavüzü nəticəsində Azərbaycanın Naxçıvan Muxtar Respublikasına, Ağstafa, Ağcabədi, Qazax, Tovuz, Gədəbəy, Tərtər, Beyləqan rayonlarına külli miqdarda zərər vurulmuşdur.

Ümumiliklə, Ermənistanın silahlı təcavüzü nəticəsində işğal edilmiş Azərbaycan ərazilərində 900-dən artıq yaşayış məntəqəsi (şəhər, qəsəbə, kənd və s.), ümumi sahəsi 9,1 mln $m^2$ olan 150 minə yaxın yaşayış evi və mənzil, 4366 sosial-mədəni təyinatlı obyekt, 7000 ictimai bina, 2389 sənaye və kənd təsərrüfatı obyekti, 1025 məktəb, 855 uşaq bağçası, 4 sanatoriya-müalicə kompleksi, 798 səhiyyə müəssisəsi, o cümlədən 695 xəstəxana və digər tibb müəssisəsi, 927 kitabxana, 1510 mədəniyyət müəssisəsi, 598 rabitə obyekti dağıdılaraq məhv edilmişdir. Bundan əlavə, 5198 km avtomobil yolu, 348 körpü, 286 km dəmir yolu xətti, 116 dəmir yolu körpüsü, 224 su anbarı, 7568 km su xətti, 2000 km qaz kəməri xətti, 76940 km elektrik xətti dağıdılmışdır.

Göründüyü kimi, Ermənistanın silahlı təcavüzü nəticəsində bölgədə fövqəladə humanitar vəziyyətin yaranması, Azərbaycan xalqının tarixi milli mədəniyyət abidələrinə, regionun təbii sərvətlərinə və ekoloji durumuna bərpa edilməsi mümkün olmayan dərəcədə dəymiş ziyanlarla bərabər, ölkəyə külli miqdarda sosial-iqtisadi zərər vurulmuşdur.





## 7. Ermənistanın işğalı nəticəsində Azərbaycana dəymiş maddi zərərin ümumi miqdarı

Ermənistanın silahlı təcavüzü və 20% Azərbaycan ərazisinin işğalı nəticəsində on minlərlə Azərbaycan vətəndaşı həlak olmuş, güllə və qəlpə yaraları nəticəsində müxtəlif dərəcəli əlilə çevrilmiş və şikəst olmuşdur. Bununla yanaşı, təcavüz nəticəsində yüz minlərlə vətəndaş öz doğma yurdundan didərgin düşərək, öz hüquq və azadlıqlarından məhrum edilmiş məcburi köçkün halına düşmüş, ölkədə fövqəladə humanitar vəziyyəti yaranmış, minlərlə azərbaycanlı indiyədək və itkin düşmüş hesab edilir. Təcavüzün nəticələri heç bir Azərbaycan ailəsinə təsirsiz ötüşməmiş, demək olar ki, hər bir Azərbaycan ailəsinin üzvü Dağlıq Qarabağ müharibəsinin qurbanına çevrilmişdir. Belə bir şəraitdə, ölkədə yaranmış psixoloji və mənəvi durumu hər hansı bir vahid ilə qiymətləndirmək qeyri-mümkündür.

Bununla yanaşı, təcavüz nəticəsində Azərbaycan xalqının milli mədəniyyət abidələri qəddarcasına dağıdılmış və dünya xalqları mədəniyyətinin tərkib hissəsi olan Azərbaycan mədəni irsinə əvəzolunmaz zərər vurulmuşdur. Bu abidələrin qiymətlərini və onların dağıdılaraq məhv edilməsi nəticəsində Azərbaycan xalqına dəymiş mənəvi zərərin miqyasını təyin etmək praktiki olaraq mümkün deyil.

Silahlı təcavüz zamanı və o dövrdən keçən müddət ərzində işğal altında olan Azərbaycan ərazilərində Ermənistanın cinayətkar fəaliyyəti nəticəsində regionun təbii sərvətləri talan edilmiş, bu ərazilərdə mütəmadi olaraq yanğınlar törədilmiş, regionun flora və faunasına, onun bioloji müxtəlifliyinə, bölgənin ekoloji durumuna bərpa edilə bilməyəcək zərər vurulmuşdur. Ermənistanın cinayətkar fəaliyyəti nəticəsində bölgəyə vurulmuş bu zərəri hazırda tam dolğunluğu ilə qiymətləndirmək mümkün deyil.

Silahlı təcavüz və işğal nəticəsində Azərbaycan əhalisinə vurulmuş mənəvi zərərlə yanaşı, ölkəyə çox böyük miqdarda

maddi zərər dəymişdir. Bu zərər özü isə iki hissədən ibarətdir - bilavasitə müharibə gedişatında dəymiş maddi zərər və müharibədən sonrakı illərdə dəymiş maddi zərər.

Azərbaycanın BMT-də Daimi Nümayəndəliyinin BMT Baş Katibinə ünvalandığı 25 oktyabr 1996-cı il tarixli məktubunda göstərilir ki, ilkin və axıra qədər müəyyən olunmayan məlumatlara görə Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticəsində vurulmuş maddi zərərin ümumi dəyəri on milyardlarla ABŞ dolları təşkil edir [2]. İslam Konfransı Təşkilatının sənədlərində də bu rəqəm **60 mlrd. ABŞ dolları həcmində** göstərilir. 13-14 Mart 2008-ci ildə keçirilmiş İslam Konfransı Təşkilatının on birinci Zirvə Görüşündə ("Müsəlman Umması 21-ci əsrdə") qəbul olunmuş "Üzv ölkələrə, İKT üzvü olmayan ölkələrə və müsəlman icmalarına iqtisadi yardım göstərilməsinə aid fəaliyyət haqqında" 2/11-E (IS) saylı qətnaməsinin Azərbaycana aid olan hissəsində qeyd edilir ki, **Ermənistan tərəfindən işğal edilmiş ərazilərdə Azərbaycana dəymiş iqtisadi zərərin həcmi 60 mlrd. ABŞ dollarıdır** [56].

Qeyd edilməlidir ki, Azərbaycana vurulmuş (1994-cü il üçün qiymətlə) 60 milyarddan artıq maddi zərərin 30 milyarddan çoxu keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti inzibati ərazisinin işğalı nəticəsində Azərbaycana dəymiş iqtisadi zərərdir. Yalnız onu göstərmək kifayətdir ki, təkcə keçmiş DQMV inzibati ərazisinə aid olan Şuşa rayonunun işğalı nəticəsində təxmini hesablamalara görə Azərbaycana 4.257.474.000 (**dörd milyard iki yüz əlli yeddi milyon dörd yüz yetmiş dörd min**) ABŞ dolları həcmində maddi zərər dəymişdir [57]. Xüsusilə vurğulanmalıdır ki, qəsbkarlar tərəfindən dağıdılaraq məhv edilmiş 248 tarixi abidənin, Azərbaycan şairi və dövlət xadimi M.P.Vaqifin məqbərəsinin, Daşaltı Dövlət Təbiət Yasaqlığının, Paleontoloji abidə olan Xan mağarasının dəyərinin hər hansı pul vahidi ilə qiymətləndirməsinin mümkünsüzlüyü səbəbindən, bu tarix və mədəniyyət incilərinin qiyməti Şuşa rayonunun işğalı nəticəsində dəymiş maddi zərərin göstərilən həcmində öz əksini tapmamışdır (**Bax**: Əlavə 1— *Müəllif*).





Təkcə Dağlıq Qarabağ regionuna bitişik olan, lakin bu regiona daxil olmayan 7 işğal edilmiş Azərbaycan rayonuna birbaşa vurulmuş maddi zərərin dəyəri 1994-cü il üçün qiymətlə 28,066 milyard (**iyirmi səkkiz milyard altmış altı milyon**) ABŞ dolları təşkil etmişdir. Belə ki, işğal nəticəsində vurulmuş birbaşa maddi zərər rayonlar üzrə ABŞ dolları ilə (1994-cü il qiymətlə) aşağıdakı kimi olmuşdur: Kəlbəcər rayonu - 1.774.000.000 (**bir milyard yeddi yüz yetmiş dörd milyon**) $ [58]; Ağdam rayonu - 6.100.107.000 (**altı milyard yüz milyon yüz yeddi min**) $ [59]; Füzuli rayonu - 4.742.936.050 (**dörd milyard yeddi yüz qırx iki milyon doqquz yüz otuz altı min əlli**) $ [60]; Qubadlı rayonu - 1.485.627.000 (**bir milyard dörd yüz səksən beş milyon altı yüz iyirmi yeddi min**) $ [61]; Cəbrayıl rayonu - 3.450.000.000 (**üç milyard dörd yüz əlli milyon**) $ [62]; Zəngilan rayonu - 3.414.170.000 (**üç milyard dörd yüz on dörd milyon yüz yetmiş min**) $ [63]; Laçın rayonu - 7.099.526.500 (**yeddi milyard doxsan doqquz milyon beş yüz iyirmi altı min beş yüz**) $ [64] (**Bax**: Əlavə 2— *Müəllif*).

Bundan əlavə, Ermənistanın silahlı təcavüzü nəticəsində Azərbaycanın cəbhəyanı və bu dövlətlə sərhədyanı rayonlarına da külli miqdarda birbaşa maddi zərər vurulmuşdur. Bu zərərin miqdarı 1994-cü il üçün qiymətlə 1.389.233.284 (**bir milyard üç yüz səksən doqquz milyon iki yüz otuz üç min iki yü səksən dörd**) ABŞ dolları təşkil etmişdir. Belə ki, müvafiq rayon icra hakimiyyətinin verdiyi məlumatlara görə işğal nəticəsində vurulmuş birbaşa maddi zərər rayonlar üzrə ABŞ dolları ilə (1994-cü il qiyməti ilə) aşağıdakı kimi olmuşdur: Tərtər və Ağdərə rayonları – 799.295.100 (**yeddi yüz doxsan doqquz milyon iki yüz doxsan beş min yüz**) $ [65]; Qazax rayonu – 327.529.464 (**üç yüz iyirmi yeddi milyon beş yüz iyirmi doqquz min dörd yüz altmış dörd**) $ [66]; Tovuz rayonu – 189.873.420 (**yüz səksən doqquz milyon səkkiz yüz yetmiş üç min dörd yüz iyiymi**) $ [67]; Ağcabədi rayonu – 22.420.050 (**iyirmi iki milyon dörd yüz iyirmi min əlli**) $ [68]; Ağstafa rayonu - 1.998.950 (**bir milyon doqquz yüz doxsan səkkiz min doqquz yüz əlli**) $ [69];

Beyləqan rayonu – 3.812.500 (**üç milyon səkkiz yüz on iki min beş yüz**) $ [70]; Gədəbəy rayonu – 44.303.800 (**qırx dörd milyon üç yüz üç min səkkiz yüz**) $ [71] (**Bax**: Əlavə 3– *Müəllif*).

Qeyd etmək lazımdır ki, göstərilən məlumatlar Dağlıq Qarabağ müharibəsi zamanı Naxçıvan Muxtar Respublikasına dəymiş maddi zərəri özündə əks etdirmir. Məlum olduğu kimi, hələ müharibədən əvvəlki dövrdən indiyədək Naxçıvan Muxtar Respublikası Ermənistan tərəfindən blokadaya alınmış və Muxtar Respublikaya qarşı silahlı hücumlar həyata keçirilmiş və iki yaşayış məntəqəsi işğal edilmişdi, hazırda Naxçıvan MR-in bir yaşayış məntəqəsi işğal altında qalmaqdadır. Bundan əlavə, blokada nəticəsində Naxçıvan MR-nın istehlak malları, təbii qaz və neft məhsulları ilə təchizatında ciddi çətinliklər meydana çıxmış, Azərbaycan hökuməti ölkənin bu bölgəsindəki çətinlikləri aradan qaldırmaq üçün xeyli miqdarda əlavə vəsaitlər sərf etmişdir. Odur ki, Azərbaycanın Naxcıvan Muxtar Respublikasına da Ermənistanın təcavüzü nəticəsində çoxsaylı insan tələfatı ilə yanaşı, böyük maddi zərər vurulmuşdur. Lakin bu zərərin dəqiq miqdarı təqdim edilən araşdırmada öz əksini tapmamışdır.

Beləliklə, Ermənistanın silahlı təcavüzü və işğalı nəticəsində Azərbaycana vurulmuş (1994-cü il üçün qiymətlə) 60 milyarddan artıq maddi zərərin 28,066 milyard (**iyirmi səkkiz milyard altmış altı milyon**) ABŞ dolları keçmiş DQMV ilə qonşu olan və hazırda işğal altında olan 7 rayona, 1.389.233.284 (**bir milyard üç yüz səksən doqquz milyon iki yüz otuz üç min iki yüz səksən dörd**) ABŞ dolları isə cəbhəyanı və Ermənistanla həmsərhəd olan rayonlara vurulmuşdur ki, bu da Naxcıvan Muxtar Respublikasına vurulmuş maddi zərərin həcmi nəzərə alınmamaqla 29,455 milyard (**iyirmi doqquz milyard dörd yüz əlli beş milyon**) ABŞ dollarından artıqdır.

Qeyd etmək lazımdır ki, 1994-cü ildən 2011-ci ilədək dollar inflyasiyaya məruz qalmış, onun dünya bazarında alıcılıq qiyməti dəyişərək, bir neçə dəfə aşağı düşmüşdür. Odur ki, Ermənistanın işğalı nəticəsində Azərbaycana vurulmuş birbaşa





maddi zərərin dəyəri dünyanın ehtiyat valyutası olan dolların 1994-cü ildəki qiyməti ilə 60 milyard dollar təşkil edirdisə, bu miqdar dolların dünya bazarında 1994-cü ildən 2011-ci ilədək alıcılıq qiymətinin dəyişməsi nəzərə alınmaqla yenidən hesablanmalıdır.

Dolların dünya bazarında alıcılıq qiymətinin göstəricilərindən biri kimi dünya bazarında qızılın qiyməti göstərilir. Bu göstəricidən istifadə etdikdə, dünya bazarında 1994-cü ildən etibarən qızılın qiymətinə nəzər salmalıyıq. Qızılın giyməti XX əsrin 90-cı illərinin ikinci yarısından 2001-ci ilin sonunadək, demək olar ki, sabit qalmışdır və 2001-ci ildə onun bir unsiyasının qiyməti 276,50 dollar təşkil etmişdir. Lakin 2002-ci ildən başlayaraq dünya bazarında qızıl bahalaşmağa, dollar isə, əksinə, qiymətini itirməyə başlamışdır və 2011-ci ilin birinci yarısında qızılın bir unsiyasının dəyəri orta hesabla 1500 ABŞ dolları məbləğində olmuşdur. Göründüyü kimi, 2002-ci ildən başlayaraq 2011-ci ilədək dünya bazarında qızılın bir unsiyası 5 dəfədən artıq bahalaşmış, dollar isə müvafiq olaraq inflyasiyaya məruz qalaraq, 5 dəfədən artıq öz alıcılıq qiymətini itirmişdir [72]. Beləliklə, 1994-cü ildə Ermənistanın silahlı təcavüzü və işğalı nəticəsində Azərbaycana dəymiş bilavasitə maddi zərərin dəyəri 60 milyard olmuşdursa, 2011-ci il qiymətləri ilə həmin zərərin miqdarı 300 milyard dollardan artıq təşkil edir.

Bununla bərabər qeyd etmək lazımdır ki, Azərbaycana vurulmuş maddi zərərin miqdarı ilbəil artmışdır. Belə ki, işğala qədər keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti inzibati ərazisində Azərbaycanın ümumdaxili məhsulunun təxminən 15%-i formalaşırdı. İşğal olunmuş digər 7 rayon isə Azərbaycanın ümumdaxili məhsulunun təxminən 10%-i formalaşdırırdı. Odur ki, Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalı nəticəsində Azərbaycan hər il təxminən özünün ÜDM-nun 25%-ni itirir.

Qeyd edilənləri nəzərə aldıqda, işğala qədər Azərbaycan Respublikasının ümumdaxili məhsulunun formalaşmasını **T = A + O** formulu ilə göstərmək olar. Burada **T** - Azərbaycanın

tam ÜDM-u, **O** - hazırda işğal altında olan ərazilərində formalaşan ÜDM və **A** - Azərbaycanın işğala məruz qalmamış ərazilərində formalaşan ÜDM.

Sadə hesablamalar əsasında **O**=0,25**T** olduğunu nəzərə alsaq, **O=A/3** alırıq. Hesablamalardan göründüyü kimi, Ermənistanın işğalı nəticəsində Azərbaycan hər il işğala məruz qalmamış ərazilərində formalaşan ümumdaxili məhsulun üçdə birini itirir. Dövlət Statistika Komitəsinin rəsmi məlumatları əsasında 1995-2010-cu illər üzrə Azərbaycan Respublikasında formalaşan ÜDM əsasında aldığımız formul ilə işğal nəticəsində itirilmiş ÜDM hesablamaq olar və bu hesablamaların nəticələri aşağıdakı cədvəldə göstərilir.

**CƏDVƏL.** Ermənistanın silahlı təcavüzü və işğalı nəticəsində Azərbaycan Respublikasının 1995-2010-cu illər ərzində itirdiyi mənfəətin miqdarı (milyon ABŞ dolları ilə)

| İllər | İşğal edilməmiş ərazilər üzrə ÜDM, A, milyon ABŞ dolları* | İşğal edilmiş ərazilər üzrə itirilmiş ÜDM, O, milyon ABŞ dolları |
|---|---|---|
| 1995 | 2415,2 | 805,1 |
| 1996 | 3180,8 | 1060,3 |
| 1997 | 3960,7 | 1320,2 |
| 1998 | 4446,4 | 1482,1 |
| 1999 | 4583,7 | 1527,9 |
| 2000 | 5272,8 | 1757,6 |
| 2001 | 5707,7 | 1902,6 |
| 2002 | 6235,9 | 2078,6 |
| 2003 | 7276,0 | 2425,3 |
| 2004 | 8680,4 | 2893,5 |
| 2005 | 13238,7 | 4412,9 |
| 2006 | 20983,0 | 6994,3 |
| 2007 | 33050,3 | 11016,8 |
| 2008 | 46258,2 | 15419,4 |
| 2009 | 43016,0 | 14338,7 |
| 2010 | 51799,9 | 17266,6 |
| CƏMİ (1995-2010-cu illər üzrə) | | 86702,0 |

* – Bu sütunda göstərilən rəqəmlər Azərbaycan Respublikası Statistika Komitəsinin rəsmi məlumatlarıdır [73].

Göründüyü kimi, Ermənistanın işğalı nəticəsində 1995-2010-cu illər ərzində Azərbaycan 86.702.000.000 (**səksən altı milyard yeddi yüz iki milyon**) ABŞ dolları məbləğində mənfəətdən məhrum olmuşdur.

Qeyd edilməlidir ki, Azərbaycan dövləti Ermənistan tərəfindən ərazilərin işğalı nəticəsində yaranmış fövqəladə humanitar vəziyyətin aradan qaldırılması istiqamətində ciddi səylər göstərmiş və ardıcıl olaraq bu istiqamətdə müxtəlif layihələr həyata keçirmişdir. Belə ki, indiyədək Azərbaycanın ayrı-ayrı şəhər və rayonlarında qaçqın və məcburi köçkün ailələri üçün 67 yeni qəsəbə salınmış, 100 min nəfərdən çox məcburi köçkün yeni evlərə köçürülmüşdür. 130 təhsil, 50-yə yaxın səhiyyə, onlarla rabitə müəssisəsi və mədəniyyət ocağı tikilib istifadəyə verilmişdir. Bundan əlavə, uzun illərdir ki, bu kateqoriyadan olan vətəndaşların komunal xərclərinin ödənilməsi dövlət tərəfindən həyata keçirilir, onlara dövlət tərəfindən subsidiyalar ödənilir. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin verdiyi məlumata görə, 13 may 2011-ci ilədək Azərbaycan hakimiyyəti tərəfindən qaçqın və məcburi köçkünlər üçün 4,684 milyard (**dörd milyard altı yüz səksən dörd milyon**) ABŞ dolları (3,7 milyard manat) məbləğində vəsait xərclənmişdir. Bu xərclərin 740 milyon ABŞ dolları beynəlxalq humanitar təşkilatlar tərəfindən, digər hissəsi isə (3,944 milyard dollar) Azərbaycanın dövlət büdcəsindən və Dövlət Neft Fondunun hesabından ayrılmışdır [74].

İşğal nəticəsində Azərbaycanın təbii sərvətlərinə və ekologiyasına vurulmuş zərərin miqdarı da həddindən artıq böyükdür. Hərbi əməliyyatlar gedişatında və ərazilərin işğalı nəticəsində Azərbaycanın təbiətinə əvəzolunmaz zərər yetirilmişdir. Azərbaycanın işğal olunmuş ərazilərində flora və fauna nümunələrinin təbii yaşayış mühiti məhv edilməkdədir. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təxmini hesablamalarına görə, Ermənistan tərəfindən






işğal edilmiş ərazilərdə təbii sərvətlərin talan edilməsi, təbii landşaftın, nadir bitki və heyvanlar aləminin məhv edilməsi və ətraf mühitin ekoloji tarazlığının pozulması nəticəsində Azərbaycana 2011-ci ilədək 40,15 milyard (**qırx milyard yüz əlli milyon**) ABŞ dollarından (31,72 mlrd. AzN) artıq məbləğdə ziyan dəymişdir [55].

Nəhayət, Ermənistanın silahlı təcavüzü və işğalı nəticəsində Azərbaycana vurulmuş birbaşa sosial-iqtisadi zərərin 300 milyard ABŞ dollarından, ölkənin 1995-2010-cu illər ərzində itirdiyi mənfəətin 86,702 milyard ABŞ dollarından, işğal edilmiş ərazilərdə Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində ölkədə yaranmış fövqəladə humanitar vəziyyətin aradan qaldırılması məqsədilə qaçqın və məcburi köçkünlər üçün sərf edilmiş xərclərin 4,684 milyard ABŞ dollarından, işğal altında olan ərazilərdə Azərbaycanın təbii sərvətlərinin dağıdılaraq talan edilməsi və ətraf mühitin ekologiyasına vurulan zərərin 40,15 milyard ABŞ dollarından artıq olmasını nəzərə alaraq, Azərbaycana dəymiş maddi zərərin ümumi miqdarını müəyyənləşdirdikdə görürük ki, onun məbləği çox böyükdür və 2011-ci ilin əvvəllərinə olan məlumatlara əsasən 431,536 milyard (**dörd yüz otuz bir milyard beş yüz otuz altı milyon**) ABŞ dolları təşkil edir.

Eyni zamanda qeyd etmək lazımdır ki, göstərilən məbləğ özündə işğal nəticəsində Azərbaycana vurulmuş maddi zərərin tam miqdarını əks etdirmir. Belə ki, 1995-2010-cu illər üzrə Azərbaycanın itirmiş olduğu mənfəətin məbləği hesablanarkən bu illər ərzində ABŞ dollarının dünya bazarında inflyasiyası nəzərə alınmamışdır. Bundan əlavə, işğal altında olan ərazilərdə təbii sərvətlərə və ətraf mühitin ekologiyasına vurulan zərərin miqdarı Azərbaycan tərəfində olan rəsmi məlumatlar əsasında hesablanmışdır və şübhəsiz ki, bu məlumatlar işğalçı tərəfin dünya ictimaiyyətindən gizli saxladığı cinayətkar əməllər nəticəsində formalaşmış zərəri bütövlüklə özündə əks etdirmir. Üçüncü bir tərəfdən, münaqişə həll edilməyincə və Azərbaycan işğal edilmiş ərazilərdə öz dövlət müstəqilliyini

bərpa etməyincə Azərbaycanın itirmiş olduğu mənfəətin miqdarı artmaqda davam edəcək. Digər bir tərəfdən və ən başlıcası, göstərilən məbləğ Azərbaycanın milli-mədəniyyət abidələrinə vurulmuş zərəri özündə əks etdirmir və bu zərərin miqdarını hesablamaq, demək olar ki, mümkünsüzdür. Nəhayət, göstərilən məbləğ Azərbaycana vurulmuş maddi zərərin ümumi miqdarıdır, bu məbləğ qaçqın və məcburi köçkünlər də daxil olmaqla, bütövlükdə Azərbaycan tərəfinə vurulmuş mənəvi zərəri özündə əks etdirmir və bu zərərin hesablanması üçün xüsusi tədqiqatların aparılmasına ehtiyac vardır. Beləliklə, aydın olur ki, bütün faktorlar nəzərə alınarsa, işğal nəticəsində Azərbaycana vurulmuş zərərin ümümi miqdarı daha da böyük olar.

Qeyd edilənlər göstərir ki, Ermənistanın silahlı təcavüzü və işğalı nəticəsində Azərbaycana vurulmuş zərərin yuxarıda göstərilən hesablamaları ilkin xarakter daşıyır. Bu hesablamalar tam dolğunluğu ilə Azərbaycana dəymiş maddi və mənəvi zərərləri özündə əks etdirmir və digər, o cümlədən məlum səbəblərə görə hələlik Azərbaycan tərəfinə məlum olmayan bir sıra amillər nəzərə alınarsa, bu zərərin daha da böyük olması şübhə doğurmur.





## 8. Ərazilərin işğalı nəticəsində vurulmuş zərərə görə Azərbaycanın Ermənistandan təzminat alma hüququ

Ermənistanın silahlı təcavüzü və işğalı nəticəsində Azərbaycan külli miqdarda maddi və mənəvi zərər dəymişdir. Bu zərərin miqdarının dəqiqləşdirilməsi və onun ödənilməsi probleminin həll edilməsi bütövlükdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin mühüm aspektlərindən biridir. Bununla yanaşı, işğal nəticəsində Azərbaycana dəymiş maddi və mənəvi zərərin ödənilməsi ilə bağlı problemin bir neçə praktiki əhəmiyyəti vardır.

*Birincisi,* Ermənistanın təcavüzü nəticəsində Azərbaycana vurulmuş zərərin miqdarını müəyyən etməyə imkan verir. Müasir beynəlxalq hüquqa görə Azərbaycan Respublikası ona dəyən ziyanın ödənilməsi barədə iddia qaldırmaq və müvafiq təzminatlar almaq hüququna malikdir (Bu hüququn həyata keçirilməsi mexanizmi artıq başqa bir problemdir).

*İkincisi,* Ermənistan tərəfindən Azərbaycana qarşı irəli sürülə bilən iddiaların müəyyən dərəcədə qarşısını alır. Belə ki, Azərbaycanı tərk etmiş ermənilər iddia edirlər ki, guya, Azərbaycanda onların qalmış əmlakının dəyəri 70 mlrd. təşkil edir. Bundan əlavə bu rəqəmə onlar guya vurulmuş mənəvi zərərə görə daha 30 mlrd. ABŞ dolları əlavə edirlər [75]. Ermənistanda fəaliyyət göstərən "Qaçqınlar və beynəlxalq hüquq" vətəndaş cəmiyyəti şəbəkəsinin 2011-ci ilin dekabrında təqdim etdiyi məruzədə isə Azərbaycanı tərk etmiş erməni qaçqınlarına dəymiş birbaşa maddi zərərin 56 mlrd. ABŞ dolları olduğu iddia edilir. Məruzədə Azərbaycandan olan erməni qaçqınların Azərbaycan əhalisinin 7-8%-ni təşkil etdiyi və onların torpaqların özəlləşmə prosesində iştirak etmədikləri vurğulanaraq, Azərbaycan torpaqlarının 8%-nin erməni qaçqınlara verilməsinə və ya onlara mövcud bazar qiymətinə uyğun olaraq,

kompensasiyanın ödənilməsinə iddialı olduqları bildirilmişdir. Eyni zamanda məruzədə Azərbaycanda özəlləşdirilməmiş təşkilatların, xüsusən də Dövlət Neft Şirkətinin gəlirlərindən də ermənilərə kompensasiya ödənilməsi kimi iddia irəli sürülür. Məruzədə Azərbaycanda neft-qaz istehsalı və ixracı sahəsində fəaliyyət göstərən xarici şirkətlər və qarışıq kapitala malik olan şirkətlərin də erməni qaçqınlara kompensasiya ödəmələri iddiası da öz əksini tapıb. Məruzədə həmçinin erməni qaçqınlara xüsusi olaraq vurulmuş mənəvi zərərin miqdarının hesablanmasının zəruriliyi də göstərilir (!) [76]

*Üçüncüsü*, işğal nəticəsində Azərbaycana dəymiş maddi və mənəvi zərərin ödənilməsi probleminin gündəmə gətirilməsi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında Azərbaycan tərəfinin sübutedici bazasının ədalətli olmasını bir daha təsdiq edir və gücləndirir. Bu isə Ermənistanla aparılan informasiya və diplomatiya müharibəsində vacib amillərdən biridir.

Ermənistan Azərbaycana qarşı silahlı təcavüz etdiyinə və Azərbaycan ərazilərini işğal etdiyinə görə beynəlxalq-hüquqi məsuliyyət daşıyır. Belə ki, BMT Baş Assambleyasının 14 dekabr 1974-cü ildə qəbul etdiyi "Təcavüzün tərifi" adlı 3314(XXIX) saylı qətnaməsinin 5-ci maddəsində göstərilir ki, "təcavüzkar müharibə beynəlxalq sülhə qarşı cinayətdir və təcavüz aktı beynəlxalq məsuliyyət doğurur [77].

Təcavüz aktının törədilməsi soyqırım, irqi ayrı-seçkilik, etnik təmizləmə, aparteid, humanitar facia və s. kimi cinayət əməlləri kimi BMT Nizamnaməsi və digər vacib beynəlxalq sənədlərin pozulmasına yönəlib və dünya birliyi dövlətləri tərəfindən beynəlxalq cinayət kimi tövsif edilir. Məhz bu səbəbdən təcavüz cinayəti soyqırım cinayəti, müharibə cinayətləri və insanlığa qarşı cinayətlərlə bərabər Roma Statutunun 5-ci maddəsinə əsasən Beynəlxalq Cinayət Məhkəməsinin yurisdiksiyasına aid edilmişdir [78].

Qeyd edilməlidir ki, bu beynəlxalq cinayət əməllərinin törədilməməsi öhdəlikləri bütövlükdə dünya birliyi dövlətləri





üçün xüsusi kateqoriyalı öhdəliklər xarakteri daşıyır. Bu öhdəliklərin pozulması bütövlükdə dünya birliyi dövlətlərinin ümumi maraqlarının pozulması ilə müşayiət edilir. Odur ki, bu öhdəliklər bütün tərəflər qarşısında olan öhdəliklərdir və dünya dövlətləri bu öhdəlikləri pozmuş dövləti məsuliyyətə cəlb etmək hüququna malikdirlər.

Beləliklə, Ermənistanın Azərbaycana qarşı silahlı təcavüz etməsi, Xocalı şəhərində soyqırım cinayətləri törətməsi, işğal edilmiş ərazilərdə etnik təmizləmə siyasəti həyata keçirməsi bu dövlətin tək Azərbaycan qarşısında deyil, bütövlükdə dünya birliyi dövlətləri qarşısında beynəlxalq-hüquqi məsuliyyətini doğurmuşdur.

Eyni zamanda təcavüz və işğal nəticəsində Azərbaycana konkret maddi və mənəvi zərər vurulmuşdur və bu zərərə görə işğalçı dövlət kimi Ermənistan Azərbaycan qarşısında məsuliyyət daşıyır. Qeyd edildiyi kimi, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20%-i işğal edilmiş və bir milyona yaxın insan qaçqın və məcburi köçkün olmuş, Azərbaycanın əhalisinə, ərazisinə, iqtisadiyyatına, mədəniyyətinə, ekologiyasına, bitki və heyvanat aləminə böyük miqdarda maddi və mənəvi zərər vurulmuşdur. Yuxarıda göstərildiyi kimi, ilkin hesablamalara görə işğal nəticəsində Azərbaycana vurulmuş maddi zərərin ümumi miqdarı 431,536 milyard (**dörd yüz otuz bir milyard beş yüz otuz altı milyon**) ABŞ dolları təşkil edir.

Aydındır ki, Ermənistanın Azərbaycana vurduğu maddi və mənəvi zərər belə zərərin tam həcmdə ödənilməsi zərurətini yaradır. Belə ki, beynəlxalq hüquqa görə məsuliyyət daşıyan dövlət özünün hüquqazidd əməli ilə digər dövlətə vurmuş olduğu ziyanı tam həcmdə ödəməlidir.

Qeyd edilməlidir ki, müasir beynəlxalq hüquqda zərərin ödənilməsinin müəyyən formaları mövcüddur. Bu formalar bir tərəfdən zərərin tam ödənilməsi vəzifəsini, digər tərəfdən isə belə ödəmənin həyata keçirilməsi üsullarını əks etdirir. Bu məsələlər tam aydınlığı ilə BMT Baş Assambleyasının 12 de-

kabr 2001-ci ildə qəbul etdiyi 56/83 saylı "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti" adlı qətnaməsinə eyni adlı əlavədə göstərilmişdir. Sənədin 28-ci maddəsində göstərilir ki, beynəlxalq hüquqazidd əməllər dövlətin beynəlxalq məsuliyyətinə səbəb olur ki, bu da hüquqi nəticələr doğurur. "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti"nin 31-ci maddəsinə əsasən, məsuliyyət daşıyan dövlət beynəlxalq hüquqazidd əməllər nəticəsində vurduğu zərəri ödəməlidir və bu zərər beynəlxalq hüquqazidd əməllər nəticəsində vurulmuş bütün ziyanlardan, o cümlədən maddi və ya mənəvi ziyanlardan ibarətdir. "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti"nin 34-cü maddəsində beynəlxalq hüquqazidd əməllər nəticəsində vurulmuş zərərin ödəmə formaları müəyyən edilib. Bu maddədə göstərilir ki, "beynəlxalq hüquqazidd əmələ görə vurulmuş zərərə görə tam ödəmə formaları restitusiya, kompensasiya və satisfaksiya formalarında ola bilər. Bu formalar həm ayrı-ayrılıqda, həm də də bir-biri ilə bağlı istifadə edilə bilər" [79].

Bu müddəa eyni zamanda BMT Baş Assambleyası tərəfindən 16 dekabr 2005-ci ildə qəbul edilmiş 60/147 saylı "Beynəlxalq humanitar hüququn ciddi pozuntuları və insan hüquqları sahəsində beynəlxalq normaların ciddi pozuntularının qurbanları üçün zərərin ödənilməsi və hüquqi müdafiə hüququna aid əsas prinsiplər və rəhbəredici müddəalar" adlı qətnamə ilə bir daha təsdiq olunmuşdur. Bu qətnamənin "Vurulmuş zərərin ödənilməsi" adlı IX fəslinin 18-ci bəndində göstərilir ki, beynəlxalq hüquqa və ölkələrin milli qanunvericiliyinə görə, və həm də konkret halları nəzərə alaraq, insan hüquqları sahəsində beynəlxalq normaların ciddi pozuntularının və beynəlxalq humanitar hüququn ciddi pozuntularının qurbanlarına və pozuntunun ciddiliyinə və hər bir hala müvafiq müəyyən olunmuş qaydada zərərin tam və effektiv ödənilməsi restitusiya, kompensasiya, reabilitasiya, satisfaksiya və baş vermiş hadisənin təkrarlanmaması zəmanəti formalarında ola bilər [80].

Aydındır ki, təkcə hüquqazidd əməlin törədilməsinə qədər





mövcüd olan vəziyyətin bərpa edilməsi tam ödəmə üçün kifayət deyil. Belə ki, bu cür əməllər tək maddi zərərin vurulması ilə məhdudlaşmır, onlar eyni zamanda əlavə mənəvi zərərin vurulması ilə müşayiət olunur. Odur ki, BMT Baş Assambleyasının 56/83 saylı "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti" qətnaməsinə əlavənin 31-ci maddəsinə əsasən məsuliyyət daşıyan dövlət beynəlxalq hüquqazidd əməllərə görə vurduğu zərəri ödəməlidir və bu zərər hüquqazidd əməllər nəticəsində vurulmuş istənilən maddi və mənəvi ziyanı özündə əks etdirir. Bundan başqa, həmin "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti"nin 34-cü maddəsinə əsasən beynəlxalq hüquqazidd əməllər nəticəsində meydana gəlmiş hüquq pozuntularının nəticələrini bütövlükdə aradan qaldırmaq üçün ödəmə ya ayrı-ayrı formaların və ya bütün formaların tətbiq edilməsini tələb edə bilər. Bu pozulmuş beynəlxalq öhdəliyin xarakterindən, həmçinin vurulmuş zərərin növündən və miqdarından asılıdır. Ödəmə formasının seçilməsi eyni zamanda zərərçəkmiş tərəfin əsaslandırılmış istəyindən asılıdır.

BMT Baş Assambleyasının "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti" qətnaməsinə əlavənin 35-ci maddəsində göstərilir ki, beynəlxalq hüquqazidd əməllərə görə məsuliyyət daşıyan dövlət restitusiyanın həyata keçirilməlidir. Belə ki, restitusiya hüquqazidd əməlin törədilməsinə qədər mövcüd olan vəziyyətin bərpa edilməsini özündə ehtiva edir. Bu isə restitusiya vasitəsilə əvvəlki maddi vəziyyətin və qeyri-maddi hüquqların bərpa edilməsi deməkdir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistanın hüquqazidd əməli nəticəsində Azərbaycana vurulmuş zərərin restitusiya formasında ödənilməsi bütün işğal olunmuş Azərbaycan ərazilərinin qaytarılması, Ermənistan əsirliyində saxlanılan azərbaycanlıların azad edilməsi, onların insan hüquqlarından istifadə edə bilməsi, məcburi köçkünlərin əvvəlki yaşayış yerlərinə qayıda bilməsi, əmlakının qaytarılması və s. deməkdir. Bundan əlavə, restutisiya Ermənistan tərəfinin

Dağlıq Qarabağın bu ölkəyə birləşdirilməsi ilə bağlı Ali Sovetin qəbul etdiyi qərarın, Ermənistanın dövlət müstəqilliyi aktında Dağlıq Qarabağın bu dövlətin ərazisi elan edilməsi və digər qanunsuz qəbul edilmiş bütün normativ aktlarının ləğv edilməsini də özündə ehtiva edir. Eyni zamanda, işğal edilmiş Azərbaycan torpaqlarında işğalçı Ermənistan tərəfi ilə bağlanmış müqavilələr əsasında xarici şirkətlərin təsərüfat fəaliyyəti ilə məşğul olunmasına qadağan qoyulması tələbinin yerinə yetirilməsi də restitusiya çərçivəsində həyata keçirilən tədbirlərdən olmalıdır.

Kompensasiya beynəlxalq hüquqazidd əməl nəticəsində vurulmuş zərərin maliyyə şəkildə ödənilmə formasıdır. BMT Baş Assambleyasının "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti" adlı qətnaməsinə əlavənin 36-cı maddəsinə əsasən beynəlxalq hüquqazidd əmələ görə məsuliyyət daşıyan dövlət özünün qanunazidd əməli nəticəsində vurduğu zərəri restitusiya ilə ödənilməyən hissədə kompensasiya yolu ilə ödəməyə borcludur. Kompensasiya əldən verilmiş gəlir də daxil olmaqla, belə zərərin ödənilməsinə yönəlib. Beləliklə, kompensasiya vurulmuş zərərin restitusiya ilə ödənilmədiyi halda tətbiq edilə bilər. Kompensasiya maliyyə baxımından qiymətləndirilə bilən hər bir zərəri, o cümlədən müəyyən edilə bilən əldən verilmiş mənfəət də daxil olmaqla, ödəmə formasıdır. O, vurulmuş zərərə görə tam ödəməni təmin etməyə yönəlməlidir və beynəlxalq praktikada zərərin ən çox rast gəlinən ödənilməsi formasıdır. Bu müddəa müəyyən edir ki, kompensasiyanın miqdarı əmlaka zərərin vurulduğu vaxtdakı dəyəri deyil, onun kompensasiya ödənilməsi vaxtında olan qiyməti miqdarında ödənilməlidir.

Göründüyü kimi, kompensasiya vurulmuş zərərə görə müstəqil ödəmə forması və ya restitusiyaya əlavə qismində çıxış edə bilər. Baxmayaraq ki, hüquq pozuntusu halında, ilk növbədə, restitusiya məsələsi meydana gəlir, restitusiyanın həyata keçirilməsi bir çox hallarda mümkün olmur və ya tam ödəməni təmin etmir. Əgər zərər çəkmiş dövlət kompensasiyaya





üstünlük verirsə, bu halda restitusiya xaric oluna bilər. Kompensasiyanın vəzifəsi tam ödəmənin təmin edilməsindən ibarətdir. Ümumiyyətlə, vurulmuş zərər deyəndə, dövlətin özünə vurulmuş zərərlə yanaşı onun vətəndaşlarına, təşkilatlarına və kommersiya strukturlarına vurulmuş zərər nəzərdə tutulur. Odur ki, zərər çəkmiş dövlət, həm də onun vətəndaşlarının sağlamlığına vurulmuş zərərə görə müəyyən kompensasiyanın ödənilməsini tələb etmək hüququna malikdir. Onu da qeyd etmək lazımdır ki, birbaşa vurulmuş fiziki və maddi itkilərlə yanaşı, həm də mənəvi və psixoloji zərərə görə də, məsələn, doğma və yaxınların itirilməsinə, əzablara, təhqirlərə, mülki əhalinin qanunsuz həbsdə saxlanılmasına, işgəncələrə, şikəstetməyə və s. görə kompensasiya verilməlidir.

Qeyd edilməlidir ki, beynəlxalq hüquqazidd əməllərə görə kompensasiya, onun həcmi və miqdarına vaxtın təsirinə dair sual yarana bilər. Praktika göstərir ki, uzun sürən vaxt keçdikdə belə kompensasiya hüququ itirilmir. Digər tərəfdən dəymiş itkilər kompensasiyanın miqdarını müəyyən etmək üçün əsas meyardır. Əsas əhəmiyyəti əmlakın dəyərinin, əldə edilməmiş mənfəətin, əlavə xərclərin kompensasiya edilməsi daşıyır. Beynəlxalq hüquqazidd əməlin nəticəsində özgəninkiləşdirilmiş və ya ləğv edilmiş əmlakın dəyəri, bir qayda olaraq, onun ədalətli bazar qiyməti əsasında müəyyən edilir. Xüsusi xarakterli əmlaka aid, misal üçün, mədəni mülkiyyətə aid məsələ daha çətin həll edilir. Müəssisənin dəyərinin qiymətləndirilməsində onun təmiz balans qiymətinin, yəni, onun aktivləri və öhdəlikləri arasında fərqin müəyyən edilməsi üsulu istifadə olunur.

Ətraf mühitə vurulmuş zərərə görə kompensasiyanın verilməsinin öz xüsusiyyəti var. Belə ki, zərər çəkmiş dövlət tərəfindən ekoloji zərərin nəticələrinin aradan qaldırılması və ya ləğv edilməsi gedişatında aparılmış ağlabatan xərclərin və ya zədələnmiş əmlakın dəyərinin azaldılmasına görə kompensasiyanın ödənilməsi zəruri hesab olunur. Bundan əlavə, onu da nəzərə almaq lazımdır ki, dövlətlərin məsuliyyəti

haqqında "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti"nin 36-cı maddəsinə aid şərhin 15-ci bəndində qeyd olunur ki, hərdən "utilitar əhəmiyyət daşımayan dəyərlər" adlanan bioloji rəngarənglik, təbii landşaftın gözəlliyi və s. kimi ekoloji dəyərlərə vurulmuş faktiki zərər heç də əmlaka vurulmuş zərədən az real və ödənilməli olmalı deyil, baxmayaraq ki, bəlkə də, miqdar cəhətdən onun hesablanması daha çətin ola bilər".

Beynəlxalq hüquqda bu sahəyə aid normaların formalaşması və inkişafı Küveytə qarşı təcavüz nəticəsində vurulmuş zərərin İraq tərəfindən ödənilməsinə dair məsələlərin həllində BMT Təhlükəsizlik Şurasının və BMT Kompensasiya Komissiyasının fəaliyyəti ilə bağlıdır. Belə ki, BMT Təhlükəsizlik Şurasının 687 saylı 3 aprel 1991-ci il tarixli qətnaməsinin 16-cı bəndində qeyd edilir ki, Küveytə hüquqazidd təcavüz və onun işğalı nəticəsində meydana gəlmiş bütün itkilərə, o cümlədən ətraf mühitə vurulmuş zərərə və təbii resursların azalmasına görə beynəlxalq hüquq üzrə İraq məsuliyyət daşıyır. Bu qətnaməyə əsasən BMT-nin Kompensasiya komissiyası konkret olaraq, "ətraf mühitə vurulmuş zərər və təbii resursların azalması" anlayışlarını əhatə edən zərərin müxtəlif növlərini göstərdi. Qeyd edilənlər ətraf mühitə vurulmuş zərərə görə məsuliyyətin artırılması tendensiyasını əks etdirir və bu hal ətraf mühitə vurulmuş zərərin azaldılmasında dövlətlərin ümumi marağını müəyyən edir.

"Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti"nin 37-ci maddəsinə əsasən beynəlxalq hüquqazidd əməllərə görə məsuliyyət daşıyan dövlət bu əməllər nəticəsində vurulmuş zərərin restutisiya və ya kompensasiya ilə ödənilə bilməyən hissəsi qədər satisfaksiya təqdim etməlidir. Satisfaksiya pozuntuların etiraf edilməsindən, təəssüf edilməsindən, rəsmi üzr istənilməsindən və ya digər müvafiq formadan ibarət ola bilər. Qeyd edilməlidir ki, satisfaksiya halında pul şəklində ödəmələr də mümkündür və bu halda belə ödəmələr mənəvi zərərin ödənilməsi forması şəklində olur.






Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair satisfaksiya Ermənistan tərəfinin Azərbaycana qarşı təcavüz faktını etiraf etməsi, Azərbaycan torpaqlarının işğalı faktını etiraf etməsi, Xocalıda törədilmiş soyqırımı etiraf etməsi, Azərbaycan xalqı qarşısında rəsmi üzr istəməsi formalarında ola bilər. Öz hərəkətləri ilə beynəlxalq hüquqazidd əmələ gətirib çıxarmış şəxslərin cəzalandırılması da satisfaksiyanın bir forması ola bilər.

Xüsusilə vurğulamaq lazımdır ki, beynəlxalq hüquqazidd əməllərə görə ödəmələrin müəyyənləşdirilməsi zamanı ən çətin məsələlər ödənilən zərərin miqdarının və belə zərərin qiymətləndirilməsi qaydalarının müəyyən edilməsində yaranır. Bu qaydalar pozulmuş öhdəliklərin xarakterindən, tərəflərin davranışının qiymətləndirilməsindən və bir sıra digər amillərdən asılı olaraq əhəmiyyətli dərəcədə bir-birindən fərqlənir. Müasir praktikanın təhlili göstəriri ki, bir çox hallarda dövlətə vurulmuş ziyan bu dövlətə qarşı təcavüz və bu dövlətin ərazilərinin işğal edilməsi nəticəsində, bu dövlətin digər əmlakına zərərin vurulması nəticəsində, ətraf mühitin çirkləndirilməsi, o cümlədən transsərhəd çaylara və s. dəymiş zərərin aradan qaldırılması ilə bağlı xərclərin aparılması nəticəsində baş verir.

Bundan əlavə, beynəlxalq praktikada hər hansı dövlətin beynəlxalq hüquq pozuntusu nəticəsində zərər çəkmiş dövlət ona vurulmuş zərərə görə təzminatın məbləğindən faiz almaq hüququna malik olması öz əksini tapmışdır. Belə ki, "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti"nin 38-ci maddəsinə əsasən, beynəlxalq hüquq pozuntusu nəticəsində vurulmuş zərərin tam ödənilməsinə nail olmaq məqsədilə həmin zərərin məbləğinə faiz hesablanır. Sənəddə göstərildiyi kimi, faizin dərəcəsi və hesablanması metodu o formada müəyyən edilir ki, vurulmuş zərərin tam ödənilməsinə nail olunsun. Habelə, faizlər vurulmuş zərərin əsas məbləğinin ödənilməsinə başlanılmalı olduğu tarixdən ödəniş öhdəliyinin yerinə yetiriləcəyi tarixə qədər hesablanır. Beləliklə, zərərçəkmiş dövlət ona vu-

rulmuş zərərə görə belə zərərin nəticələrinin aradan qaldırılması məqsədilə təzminat məbləğindən faiz almaq hüququna malikdir. Misal olaraq göstərmək lazımdır ki, 1991-ci ildə İraqın silahlı təcavüzü nəticəsində Küveytə vurulmuş zərərlə bağlı məsələlərin kompleks şəkildə həllinə nail olmaq üçün BMT Kompensasiya Komissiyası yaradıldı. BMT Kompensasiya Komissiyasının İdarə Şurasının faiz haqqında məsələyə həsr olunmuş qərarında göstərilir ki: "1. İşi udmuş iddiaçılara kompensasiya qismində verilmiş əsas məbləğdən istifadə etmək imkanının itirilməsini kompensasiya etmək üçün kifayət olan faiz dərəcəsi üzrə faizlər zərər yaranmış tarixdən ödəniş edilən tarixə qədər verilməlidir... 3. Faizlər kompensasiyanın əsas məbləği ödənildikdən sonra verilməlidir."

BMT Kompensasiya Komissiyasının İdarə Şurası müxtəlif şəxslər, korporasiyalar və hökumətlər tərəfindən daxil olmuş 1550871 iddia ərizəsi əsasında İraqın Küveytə silahlı təcavüzü nəticəsində vurulmuş zərəri 52 467 108 060 (əlli iki milyard dörd yüz altmış yeddi milyon yüz səkkiz min altmış) ABŞ dolları məbləğində müəyyən etmişdir [81]. BMT Kompensasiya Komissiyasının verdiyi məlumata görə 28 oktyabr 2010-cu il tarixinə qədər kompensasiya ediləcək məbləğin 30,7 milyard ABŞ dolları ödənilib [82].

Göründüyü kimi, Azərbaycanın Ermənistanın beynəlxalq hüquqazidd əməlləri nəticəsində vurulmuş maddi və mənəvi zərərə görə təzminat almaq hüququ var və bunun üçün müvafiq beynəlxalq-hüquqi mexanizmlər mövcuddur. Azərbaycanın ona dəymiş zərərin müqabilində müvafiq təzminat almaq hüququna malik olması beynəlxalq təşkilatların qərarlarında da təsdiqlənmişdir. Misal üçün, 13-14 Mart 2008 il Dakar, Seneqal Respublikasında keçirilmiş On Birinci Zirvə Görüşündə ("Müsəlman Umması 21-ci əsrdə"), "İslamın müqəddəs yerlərinin qorunması haqqında" 2/11-C (İS) saylı qətnaməsinin 4-cü bəndində İKT "Azərbaycanın ona dəymiş ziyanın müqabilində təzminat almaq hüququna malik olduğunu hesab edir və bu təzminatın ödənilməsi üçün Ermənistanın tam





məsuliyyət daşıdığını təsdiq edir". Eyni məzmunlu müddəalar İKT-nin digər sənədlərində də öz əksini tapmışdır. Məsələn, "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" 10/11-P (IS) saylı qətnaməsinin 22-ci bəndində qeyd olunur ki İKT: "Azərbaycanın məruz qaldığı zərərlərə görə müvafiq kompensasiya hüququ olduğunu hesab edir və bu zərərlərə görə adekvat kompensasiya ödənilməsi məsuliyyətini Ermənistanın üzərinə qoyur".

Beləliklə, aydındır ki, Azərbaycana vurulmuş maddi və mənəvi zərərin ödənilməsi problemi Ermənistanın təcavüzünün nəticələrinin aradan qaldırılmasının və bütövlükdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesinin vacib aspektlərinin biridir.

# Nəticə

Aparılmış tədqiqat və təhlilləri ümumiləşdirərək, aşağıdakı nəticələrə gəlirik:

1. Ermənistan əsassız ərazi iddialarını reallaşdırmaq məqsədilə Azərbaycana qarşı silahlı təcavüz etmiş, 20% Azərbaycan ərazisini, o cümlədən keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətini (DQMV) və digər 7 rayonu işğal etmişdir. Ermənistan dövləti Azərbaycana qarşı silahlı təcavüz etməklə beynəlxalq sülhə qarşı cinayət əməli törətmişdir. Təcavüz cinayətkarlığı insanlığa qarşı cinayət hesab edilir və Ermənistan həyata keçirdiyi silahlı təcavüz aktına görə beynəlxalq-hüquqi məsuliyyət daşıyır.

2. Azərbaycana qarşı silahlı təcavüz zamanı Ermənistanın silahlı qüvvələri tərəfindən 20 mindən çox insan öldürülmüş, 50 mindən çox insan yaralanmış və şikəst edilmiş, minlərlə insan itkin düşmüş, məhkəməsiz edamlar və mülki əhalinin kütləvi qırğını, girov götürülməsi, onlardan icbari işlərdə istifadə olunması halları baş vermişdir. Hərbi əsirlər və girovlar işgəncələrə və digər qeyri-insani rəftarlara məruz qalmış, yaralılar və xəstələrə adi tibbi yardım belə göstərilməmişdir. Beləliklə, Ermənistanın Azərbaycana qarşı apardığı təcavüzkar müharibə zamanı beynəlxalq humanitar hüquq normaları kobud şəkildə pozulmuşdur.

3. Ermənistan silahlı qüvvələri 1992-ci il fevralın 25-dən 26-a keçən gecə Xocalı şəhərində soyqırım cinayəti törətmişdir. Şəhərin işğal zamanı dinc əhalinin 613 nəfəri, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca xüsusi amansızlıqla, işgəncələrlə öldürülmüş, insanların başları kəsilmiş, gözləri çıxarılmış, hamilə qadınların qarınları süngü ilə deşik-deşik edilmişdir. Qanlı aksiya zamanı 1275 insan əsir götürülmüş, 150 insan itkin düşmüş, 487 insan şikəst olmuşdur. Kütləvi qırğınlar zamanı 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə bir valideynini itirmişdir, 56 insan işgəncələr verilərək öl-




Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzünün nəticələri





## Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzünün nəticələri







Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzünün nəticələri







## Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzünün nəticələri







Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzünün nəticələri







Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzünün nəticələri







Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzünün nəticələri







## Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzünün nəticələri









dürülmüşdür. Xocalı şəhəri məhv edilərək yer üzündən silinmişdir. Xocalı faciəsi Ermənistanın rəsmi dövlət strukturları tərəfindən əvvəlcədən planlaşdırılmış, şəhər sakinləri olan etnik azərbaycanlıların tamamilə və ya qismən məhv edilməsinə yönəlmişdi. Bu cinayətlər Azərbaycan xalqına qarşı soyqırım cinayətləri olaraq, insanlığa qarşı cinayətlər kateqoriyasına aiddir.

4. Azərbaycana qarşı silahlı təcavüzdən əvvəl Ermənistan ərazisində yaşayan 250 mindən artıq etnik azərbaycanlı öz tarixi torpaqlarından deportasiya edilmiş və qaçqın qismində Azərbaycan ərazisində məskunlaşmışdır. Ermənistan işğal etdiyi ərazilərdə azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirmiş və bu əraziləri monoetnik zonaya çevirilmişdir. İşğal edilmiş ərazilərindən 760 mindən artıq yerli azərbaycanlı əhali çıxarılaraq məcburi köçkünə çevrilmişdir. Nəticədə 1 milyondan artıq azərbaycanlı öz tarixi vətənlərindən, evlərindən didərgin salınaraq, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Həmin kateqoriyaya aid olan insanlar Azərbaycanın 62 şəhər və rayonunda müvəqqəti məskunlaşdırılmışlar. Beləliklə, etnik azərbaycanlıların Ermənistan ərazilərindən deportasiyası və Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü insan hüquqlarının kütləvi və kobud şəkildə pozulması ilə müşayiət olunmuş, Azərbaycanda fövqəladə humanitar vəziyyət yaranmışdır.

5. Ermənistanın silahlı təcavüzü və işğalı nəticəsində Azərbaycana külli miqdarda maddi zərər vurulmuşdur. İşğal edilmiş Azərbaycan ərazilərində 900-dən artıq yaşayış məntəqəsi, ümumi sahəsi 9,1 mln $m^2$ olan 150 minə yaxın yaşayış evi və mənzil, 4366 sosial-mədəni təyinatlı obyekt, 7000 ictimai bina, 2389 sənaye və kənd təsərrüfatı obyekti, 1025 məktəb, 855 uşaq bağçası, 4 sanatoriya-müalicə kompleksi, 798 səhiyyə müəssisəsi, 927 kitabxana, 1510 mədəniyyət müəssisəsi, 598 rabitə obyekti və digərləri dağıdılaraq məhv edilmişdir.

İşğal nəticəsində Azərbaycan xalqının milli mədəniyyət abidələri dağıdılmış və mədəni irsinə misli görünməmiş zərər

vurulmuşdur. Azərbaycanın işğal altında olan ərazilərində planlı şəkildə ətraf mühitə əvəzolunmaz ziyan vurulmuş, bir çox nadir bitki növləri tamamilə məhv edilmiş, əkin sahələri yararsız hala salınmış, təbii sərvətləri qeyri-qanuni istismar edilərək talan edilmişdir.

Ermənistanın işğalı nəticəsində Azərbaycana külli miqdarda zərər vurulmuşdur. İşğal nəticəsində Azərbaycana vurulmuş maddi zərərin həcmi, ilkin araşdırmalara əsasən, 2011-ci ilin əvvəllərinə 431,592 milyard (**dörd yüz otuz bir milyard beş yüz doxsan iki milyon**) ABŞ dollarından artıq təşkil edir və işğal aradan qaldırılmayanadək ilbəil artacaq.

Beynəlxalq hüquq normalarına və beynəlxalq silahlı münaqişələrin tənzimlənməsi praktikasına əsasən işğala son qoyulması özündə işğalçı dövlət tərəfindən işğala məruz qalmış dövlətə vurduğu zərərə müvafiq olaraq təzminatın ödəməsini də ehtiva edir. Odur ki, Azərbaycan ərazilərinin işğalına son qoyulması, həm də işğalçı dövlət olan Ermənistanın Azərbaycana vurduğu zərər müqabilində təzminat ödəməsi məsələsinin gündəmdə saxlanılmasını aktual edir.

6. BMT Təhlükəsizlik Şurasının 822(1993), 853(1993), 874(1993), 884(1993) saylı qətnamələrində, Avropa Şurası Parlament Assambleyasının 1416(2005) saylı qətnaməsində, Avropa Parlamentinin 20 may 2010-cu ildə qəbul etdiyi "Avropa İttifaqının Cənubi Qafqaz üzrə Strategiyası" adlı qətnaməsində, İslam Konfransı Təşkilatının (indiki İslam Əməkdaşlıq Təşkilatı), ATƏT-in və digər beynəlxalq təşkilatların çoxsaylı sənədlərində Azərbaycanın ərazilərinin işğal edilməsi, yüz minlərlə Azərbaycan vətəndaşının məcburi köçkünə çevrilməsi və Azərbaycanda humanitar böhran vəziyyətinin yaranması faktları təsbit edilmişdir. Beynəlxalq təşkilatların sənədlərində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində ərazi bütövlüyü dəstəklənmiş, Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsindən və digər rayonların ərazilərindən silahlı qüvvələrin qeyd-şərtsiz çıxarılması, məcburi köçkünlərin öz vətənlərinə qayıtmaq və təhlükəsiz yaşamaq hüquqlarının təmin edilməsi tələb edilmişdir.





Eyni zamanda vurğulanmalıdır ki, beynəlxalq ictimaiyyət yalnız münaqişə ilə bağlı müxtəlif sənədlər qəbul etməklə kifayətlənmiş, bu sənədlərdə öz əksini tapmış müddəaların reallaşdırılması istiqamətində heç bir praktiki iş görməmiş, təcavüzkar dövlət olan Ermənistana qarşı heç bir sanksiya tətbiq etməmiş, bu dövlətə qarşı heç bir təzyiq göstərməmiş, hətta işğalçı Ermənistanla işğala məruz qalmış Azərbaycan arasında heç bir fərq qoymamışdır. Bundan əlavə, beynəlxalq təşkilatlar bir çox hallarda "Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi", "Ermənistanın işğalı və həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlının qaçqın və məcburu köçkün halına düşməsi" və s. kimi ifadələr işlətməkdən belə yan keçməyi daha üstün tuturlar.

Şübhəsiz ki, dünya ictimaiyyətin işğal altında olan ərazilərin azad edilməsi və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində dövlət suverenliyinin təmin edilməsi, qaçqın və məcburi köçkünlərin pozulmuş hüquqlarının bərpa edilməsi, onların öz vətənlərinə qayıtmaq və təhlükəsiz yaşamaq hüquqlarının təmin edilməsi məsələlərinə biganə yanaşmaları Azərbaycan vətəndaşlarını ciddi narahat edir və onların narazılığının getdikcə artmasına səbəb olur.

Nə üçün dünya ictimaiyyəti işğalçı Ermənistan dövlətinə qarşı sanksiyalar tətbiq etmək istəmir? Nə üçün dünya ictimaiyyəti Ermənistanın işğalçılıq və işğal edilmiş ərazilərdə həyata keçirdiyi etnik təmizləmə cinayətlərinə göz yumur? Nə üçün dünya ictimaiyyəti işğalçı Ermənistandan beynəlxalq hüququn imperativ prinsiplərinə riayət edərək işğal etdiyi əraziləri qeyd-şərtsiz azad etməyi tələb etmək və bu istiqamətdə BMT Nizamnaməsində təsbit olunmuş mexanizmlərdən istifadə etmək əvəzinə, ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə Azərbaycan və Ermənistan prezidentlərinin danışıqları çərçivəsində tərəfləri kompromis əldə etməyə çağırır? Görəsən, Azərbaycan Ermənistan ərazilərini işğal etmiş olsa

idi, dünya ictimaiyyəti indi Ermənistana göstərdiyi münasibəti Azərbaycana da göstərərdimi? Azərbaycan ictimaiyyəti tərəfindən haqlı olaraq bu qəbilədən olan sualları daha tez-tez səsləndirilir və onlara obyektiv cavab axtarılır.

Bəlkə, dünya ictimaiyyətinin Ermənistanın silahlı təcavüzünə, onun Azərbaycan ərazilərini işğal etməsinə və indiyədək həmin əraziləri işğal altında saxlamasına, yüz minlərlə Azərbaycan vətəndaşının hüquqlarının kütləvi və kobud şəkildə pozulmasına biganə münasibət nümayiş etdirməsinin səbəbi işğalçı Ermənistanın xristian, işğala məruz qalmış Azərbaycanın isə müsəlman dövləti olmasıdır. Bu fikir hazırda Azərbaycan ictimaiyyətində özünə yer tapmaqdadır və son dövrlər cəmiyyətdə bu fikrin tərəfdarlarının sayı getdikcə artmaqdadır. Belə meyllərin artması, sözsüz ki, Azərbaycan cəmiyyətində dünya ictimaiyyətinə, əsasən də inkişaf etmiş Qərb ölkələrinə inamın azalmasına, onların etibarlılığına şübhələrin artmasına gətirib çıxarır. Odur ki, dünya ictimaiyyəti tezliklə işğalın aradan qaldırılması, qaçqın və məcburi köçkünlərin öz vətənlərinə qaytarılması və təhlükəsiz yaşamaq hüquqlarının təmin edilməsi istiqamətində praktiki səylərini artırmalı, ikili standartlara son qoymalıdır.






## ƏLAVƏ 1.

### Şuşa rayonu üzrə Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılmış və məhv edilmiş obyektlər haqqında MƏLUMAT

| Sıra № | Dağıdılmış və məhv edilmiş obyeklər | Ölçü vahidi | Ümumi miqdarı | Ümumi dəyəri (ABŞ dolları), 1994-cü il üçün qiymətlərlə |
|---|---|---|---|---|
| 1. | İşğal edilmiş və ya dağıdılmış yaşayış məntəqələri | ədəd | | |
| | şəhərlər | ədəd | 1 | |
| | qəsəbələr | ədəd | 1 | |
| | kəndlər | ədəd | 37 | |
| 2. | Yaşayış evləri, mənzillər | ədəd | 6800 | 1.020.000.000 |
| 3. | Sənaye obyektləri | ədəd | 35 | 179.000.000 |
| 4. | Kənd təsərrüfatı obyektləri (texnika, nəqliyyat və s.) | ədəd | 183 | 50.000.000 |

| | | | | |
|---|---|---|---|---|
| | cins maldarlıq təsərrüfatları | ədəd | 1 | 5.000.000 |
| | iribuynuzlu heyvanlar | baş | 9500 | 13.300.000 |
| | xırdabuynuzlu heyvanlar | baş | 30000 | 6.000.000 |
| | quşlar | ədəd | 26000 | 234.000 |
| | arı ailəsi | ailə | 1000 | 200.000 |
| 5. | Texnika, nəqliyyat, mexanizmlər və s. | ədəd | 1050 | 50.400.000 |
| 6. | Rabitə obyektləri, teleməkəz | ədəd | 15 | 93.000.000 |
| 7. | Səhiyyə müəssisələri | | | |
| | xəstəxanalar | ədəd | 1 | 18.200.000 |
| | poliklinikalar | ədəd | 1 | 2.000.000 |
| | "Şuşa" sanatoriyası | ədəd | 1 | 100.000.000 |
| | "Şəfa" turist bazası | ədəd | 1 | 5.000.000 |





| | | | | |
|---|---|---|---|---|
| | uşaq sanatoriyası | ədəd | 1 | 10.000.000 |
| | meşə sağlamlıq məktəbi | ədəd | 1 | 3.000.000 |
| | təcili tibbi yardım stansiyası | ədəd | 1 | 2.000.000 |
| | sanitar-epidemioloji stansiyası | ədəd | 1 | 1.000.000 |
| | stomatoloji poliklinika | ədəd | 1 | 1.200.000 |
| | apteklər | ədəd | 5 | 500.000 |
| | optika mağazası | ədəd | 1 | 50.000 |
| | kənd sahə xəstəxanaları | ədəd | 2 | 350.000 |
| | kənd həkim ambulatoriyaları | ədəd | 6 | 300.000 |
| | feldşer-mama məntəqələri | ədəd | 11 | 440.000 |
| 8. | Tədris müəssisələri (məktəblər, TPM texnikumlar, institutlar) | ədəd | 37 | 362.000.000 |

| | | | | |
|---|---|---|---|---|
| 9. | Məktəbəqədər müəssisələr (bağçalar) | ədəd | 7 | 14.000.000 |
| 10. | Mədəniyyət müəssisələri | | | |
| | kitabxanalar | ədəd | 31 | 6.200.000 |
| | klublar və mədəniyyət evləri | ədəd | 30 | 15.000.000 |
| | muzey eksponatları | ədəd | 5000 | 35.000.000 |
| | rəsm qalereyasının eksponatları | ədəd | 1500 | 6.000.000 |
| | teatr | ədəd | 1 | 5.000.000 |
| | uşaq incəsənət və musiqi məktəbləri | ədəd | 8 | 14.000.000 |
| | mədəniyyət və istirahət parkları | ədəd | 3 | 15.000.000 |
| | kinoteatrlar | ədəd | 2 | 8.000.000 |
| 11. | Avtomobil yolları | km | 300 | 450.000.000 |
| 12. | Dəmir yolu xətləri | - | - | |





| | | | | |
|---|---|---|---|---|
| 13. | Körpülər (avtomobil, dəmir yolu və s.) | ədəd | 25 | 75.000.000 |
| 14. | Su anbarları | ədəd | 2 | 4.000.000 |
| 15. | Magistral su xətləri (kanalları) | km | 550 | 82.500.000 |
| 16. | Elektrik xətləri | km | 850 | 25.500.000 |
| 17. | Magistral qaz boru xətləri | km | 620 | 35.300.000 |
| 18. | İstilik sistemləri | ədəd | 1 | 8.000.000 |
| 19. | Kanalizasiya sistemləri | km | 35 | 25.800.000 |
| 20. | Digər maddi dəyərlər | | | 1.510.000.000 |
| | Dəymiş ziyanın ümumi miqdarı, $ | | | 4.257.474.000 |

**Qeyd:**

1. Hazırda dağıdılmış, vaxtilə dövlət tərəfindən qorunan 248 tarixi abidə, M.P.Vaqifin məqbərəsi, Daşaltı Dövlət Təbiət yasaqlığı və Paleontoloji abidə "Xan mağarası" qiymətsizdir.

2. 19 il ərzində erməni işğalçıları tərəfindən talan və istismara məruz qalan 10000 ha əkin sahələri, 10540 ha otlaqlar, 89 ha meyvə bağları, 8359 ha meşə sahələrinin qiymətləndirilməsi mümkünsüzdür.

# ƏLAVƏ 2.

## Keçmiş DQMV inzibati ərazisinə aid olmayan işğal edilmiş Azərbaycan rayonları üzrə Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılmış və məhv edilmiş obyektlər haqqında məlumat

## Kəlbəcər rayonu üzrə Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılmış və məhv edilmiş obyektlər haqqında MƏLUMAT

| Sıra № | Dağıdılmış və məhv edilmiş obyeklər | Ölçü vahidi | Ümumi miqdarı | Ümumi dəyəri (min ABŞ dolları), 1994-cü il üçün qiymətlərlə |
|---|---|---|---|---|
| 1. | İşğal edilmiş və ya dağıdılmış yaşayış məntəqələri | ədəd | 128 | 574000 |
| 2. | Yaşayış evləri, mənzillər (şəhərlərdə, yaşayış məntəqələrində) | ədəd | 12000 | 650000 |
| 3. | Sənaye obyektləri | ədəd | 18 | 9000 |
| 4. | Kənd təsərrüfatı obyektləri (texnika, nəqliyyat və s.) | ədəd | 627 | 47000 |
| | əkinçilik sahələri | ha | 3952 | 2000 |
| | maldarlıq təsərrüfatları | ha | 55 | 3800 |
| | iribuynuzlu heyvanlar | baş | 29179 | 66600 |
| | xırdabuynuzlu heyvanlar | baş | 113254 | 14000 |
| | meyvə və üzüm bağları | ha | 500 | 1000 |
| | otlaqlar | ha | 13746 | 12000 |
| 5. | Rabitə obyektləri | ədəd | 2 | 1000 |
| 6. | Səhiyyə müəssisələri | ədəd | 76 | 7500 |
| | xəstəxanalar | ədəd | 7 | 700 |
| | poliklinikalar | ədəd | 23 | 1100 |
| | doğum evləri | ədəd | 1 | 50 |

| | | | | |
|---|---|---|---|---|
| | apteklər | ədəd | 44 | 400 |
| 7. | Tədris müəssisələri (məktəblər, texnikumlar) | ədəd | 97 | 9700 |
| 8. | Məktəbəqədər müəssisələr (bağçalar) | ədəd | 7 | 400 |
| 9. | Mədəniyyət müəssisələri | ədəd | 254 | 7600 |
| | kitabxanalar | ədəd | 141 | 2800 |
| | klublar | ədəd | 112 | 6700 |
| | muzeylər | ədəd | 1 | 500 |
| | muzey eksponatları | ədəd | 12000 | 1000 |
| 10. | Məscidlər | ədəd | 1 | |
| 11. | Avtomobil yolları | km | 625 | 62500 |
| 12. | Dəmir yolu xətləri | km | | |





| | | | | |
|---|---|---|---|---|
| 13. | Körpülər (avtomobil, dəmir yolu və s.) | ədəd | 21 | 3500 |
| 14. | Su anbarları | ədəd | 5 | 1000 |
| 15. | Magistral su xətləri (kanalları) | km | 92 | 4000 |
| 16. | Elektrik xətləri | km | 820 | 8200 |
| 17. | Magistral qaz boru xətləri | km | | |
| 18. | Meşə sahələri | ha | 39000 | 20000 |
| 19. | Digər sahələr üzrə dəymiş zərər | | | 256000 |
| | Dəymiş ziyanın ümumi miqdarı (min ABŞ dolları) | | | 1.774.000,0 |

Dəymiş zərərin ümumi miqdarı 1.774.000 min (bir milyard yeddi yüz yetmiş dörd milyon) ABŞ dolları həcmindədir.

## Ağdam rayonu üzrə Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılmış və məhv edilmiş obyektlər haqqında MƏLUMAT

| Sıra № | Dağıdılmış və məhv edilmiş obyeklər | Ölçü vahidi | Ümumi miqdarı | Ümumi dəyəri (min ABŞ dolları), 1994-cü il üçün qiymətlərlə |
|---|---|---|---|---|
| 1. | İşğal edilmiş və ya dağıdılmış yaşayış məntəqələri | ədəd | 82 | 1900000 |
| 2. | Yaşayış evləri, mənzillər (şəhərlərdə, yaşayış məntəqələrində) | ədəd | 34680 | 1560000 |
| 3. | Sənaye obyektləri | ədəd | 17 | 1655 |
| 4. | Kənd təsərrüfatı obyektləri (texnika, nəqliyyat və s.) | ədəd | 29 | 14200 |
| | əkinçilik sahələri | ha | 19672 | 1450 |
| | maldarlıq təsərrüfatları | ədəd | 5 | 7500 |
| | iribuynuzlu heyvanlar | baş | 14915 | 9147 |
| | xırdabuynuzlu heyvanlar | baş | 109911 | 10441 |
| | meyvə və üzüm bağları | ha | 10722 | 514 |
| | otlaqlar | ha | 20384 | 980 |
| 5. | Rabitə obyektləri | ədəd | 57 | 11500 |
| 6. | Səhiyyə müəssisələri | ədəd | 120 | 39980 |
| | xəstəxanalar | ədəd | 17 | 13600 |
| | poliklinikalar | ədəd | 24 | 12000 |
| | doğum evləri | ədəd | 1 | 600 |
| | apteklər | ədəd | 26 | 780 |
| | tibb məntəqələri | ədəd | 52 | 13000 |
| 7. | Tədris müəssisələri (məktəblər, texnikumlar) | ədəd | 114 | 23830 |
| 8. | Məktəbəqədər müəssisələr (bağçalar) | ədəd | 59 | 7700 |

| | | | | |
|---|---|---|---|---|
| 9. | Mədəniyyət müəssisələri | ədəd | 108 | 25000 |
| | kitabxanalar | ədəd | 57 | 13700 |
| | klublar | ədəd | 47 | 9600 |
| | muzeylər | ədəd | 4 | 1300 |
| | muzey eksponatları | ədəd | 16850 | 400 |
| 10. | Məscidlər | ədəd | 16 | 1360 |
| 11. | Avtomobil yolları | km | 266 | 39900 |
| 12. | Dəmir yolu xətləri | km | 32 | 2100 |
| 13. | Körpülər (avtomobil, dəmir yolu və s.) | ədəd | 10 | 900 |
| 14. | Su anbarları | ədəd | 3 | 550 |
| 15. | Magistral su xətləri (kanalları) | ədəd | 180 | 1980 |
| 16. | Elektrik xətləri | km | 62780 | 1100 |
| 17. | Magistral qaz boru xətləri | km | 155 | 18600 |




Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri

| | | | | |
|---|---|---|---|---|
| 18. | Meşə sahələri | ha | 986 | 147900 |
| 19. | Digər maddi dəyərlər | | | 2339850 |
| | Dəymiş ziyanın ümumi miqdarı (min ABŞ dolları) | | | 6.100.107,0 |

Dəymiş zərərin ümumi miqdarı 6.100.107,0 min (altı milyard yüz milyon yüz yeddi min) ABŞ dolları həcmindədir.

www.elkhan-suleymanov.az

## Füzuli rayonu üzrə Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılmış və məhv edilmiş obyektlər haqqında MƏLUMAT

| Sıra № | Dağıdılmış və məhv edilmiş obyeklər | Ölçü vahidi | Ümumi miqdarı | Ümumi dəyəri (ABŞ dolları), 1994-cü il üçün qiymətlərlə |
|---|---|---|---|---|
| 1. | İşğal edilmiş və ya dağıdılmış yaşayış məntəqələri | ədəd | 84 | 2.575.000.000 |
| 2. | Yaşayış evləri, mənzillər (şəhərlərdə, yaşayış məntəqələrində) | ədəd | 26208 | 1.928.656.552 |
| 3. | Sənaye obyektləri | ədəd | 45 | 45.875.000 |
| 4. | Kənd təsərrüfatı obyektləri (texnika, nəqliyyat və s.) | ədəd | 990 | 117.810.349 |
| | əkinçilik sahələri | | | |
| | maldarlıq təsərrüfatları | ədəd | 40 | |
| | iribuynuzlu heyvanlar | baş | 29689 | |
| | xırdabuynuzlu heyvanlar | baş | 55769 | |
| | meyvə və üzüm bağları | ha | 16500 | |
| | otlaqlar | ha | 69447 | |
| 5. | Rabitə obyektləri | ədəd | 39 | 1.948.690 |
| 6. | Səhiyyə müəssisələri | ədəd | 127 | 7.496.000 |
| | xəstəxanalar, həkim məntəqəsi və feldşer mama məntəqəsi | ədəd | 61 | |
| | poliklinikalar | ədəd | 2 | |
| | doğum evləri | ədəd | 1 | |
| | apteklər | ədəd | 63 | |
| 7. | Tədris müəssisələri (məktəblər, texnikumlar) | ədəd | 88 | 1.385.962 |
| 8. | Məktəbəqədər müəssisələr (bağçalar) | ədəd | 76 | 1.765.000 |



Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri

| | | | | |
|---|---|---|---|---|
| 9. | Mədəniyyət müəssisələri | ədəd | 183 | 19.568.000 |
| | kitabxanalar | ədəd | 90 | |
| | klublar, mədəniyyət evləri, teatr | ədəd | 2770 | |
| | muzeylər | ədəd | 3 | |
| | muzey eksponatları | ədəd | 1 | |
| 10. | Məscidlər | ədəd | 10 | 500.000 |
| 11. | Avtomobil yolları | km | 235.7 | 2.763.181 |
| 12. | Dəmir yolu xətləri | km | 36 | 3.900.000 |
| 13. | Körpülər (avtomobil, dəmir yolu və s.) | ədəd | 16 | 1.815.970 |
| 14. | Su anbarları | ədəd | 96 | 5.000.000 |
| 15. | Magistral su xətləri (kanalları) | km | 859 | 19.890.000 |
| 16. | Elektrik xətləri | km | 2114 | 5.290.680 |
| 17. | Magistral qaz boru xətləri | km | 210 | 2.586.666 |



Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri

| | | | | |
|---|---|---|---|---|
| 18. | Meşə sahələri | ha | 68 | 1.680.000 |
| | Dəymiş ziyanın ümumi miqdarı (ABŞ dolları) | | | 4.742.932.050 |

Dəymiş zərərin ümumi miqdarı 4.742.932.050 (dörd milyard yeddi yüz qırx iki milyon doqquz yüz otuz iki min əlli) ABŞ dolları həcmindədir.

## Qubadlı rayonu üzrə Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılmış və məhv edilmiş obyektlər haqqında MƏLUMAT

| Sıra № | Dağıdılmış və məhv edilmiş obyeklər | Ölçü vahidi | Ümumi miqdarı | Ümumi dəyəri (min ABŞ dolları), 1994-cü il üçün qiymətlərlə |
|---|---|---|---|---|
| 1. | İşğal edilmiş və ya dağıdılmış yaşayış məntəqələri | ədəd | 94 | 1 şəhər, 93 kənd |
| 2. | Yaşayış evləri, mənzillər (şəhərlərdə, yaşayış məntəqələrində) | ədəd | 6988 | 489160 |
| 3. | Sənaye obyektləri | ədəd | 8 | 6912 |
| 4. | Kənd təsərrüfatı obyektləri (texnika, nəqliyyat və s.) | ədəd | 1080 | 211867 |
| | əkinçilik sahələri | ha | 13988 | 60774 |
| | maldarlıq təsərrüfatları | obyekt | 48 | 42820 |
| | iribuynuzlu heyvanlar | baş | 25086 | 14850 |





| | | | | |
|---|---|---|---|---|
| | xırdabuynuzlu heyvanlar | baş | 25846 | 1693 |
| | meyvə və üzüm bağları | ha | 850 | 12760 |
| | Otlaqlar | ha | 17130 | 78970 |
| 5. | Rabitə obyektləri | ədəd | 32 | 6480 |
| 6. | Səhiyyə müəssisələri | ədəd | 86 | 51443 |
| | xəstəxanalar | ədəd | 4 | 26445 |
| | poliklinikalar | ədəd | 1 | 22900 |
| | doğum evləri | ədəd | 1 | 1294 |
| | apteklər | ədəd | 4 | 804 |
| 7. | Tədris müəssisələri (məktəblər, texnikumlar) | ədəd | 63 | 72960 |
| 8. | Məktəbəqədər müəssisələr (bağçalar) | ədəd | 11 | 3872 |
| 9. | Mədəniyyət müəssisələri | ədəd | 180 | 61670 |

| | | | | |
|---|---|---|---|---|
| | kitabxanalar | ədəd | 84 | 32940 |
| | klublar | ədəd | 55 | 27810 |
| | muzeylər | ədəd | 1 | 80 |
| | muzey eksponatları | ədəd | 2350 | 840 |
| 10. | Məscidlər | ədəd | 6 | 180 |
| 11. | Avtomobil yolları | km | 650 | 1800 |
| 12. | Dəmir yolu xətləri | | | |
| 13. | Körpülər (avtomobil, dəmir yolu və s.) | ədəd | 9 | 3180 |
| 14. | Su anbarları | ədəd | 2 | 1020 |
| 15. | Magistral su xətləri (kanalları) | km | 150 | 450 |
| 16. | Elektrik xətləri | km | 4830 | 2660 |
| 17. | Magistral qaz boru xətləri | km | 165 | 670 |
| 18. | Meşə sahələri | ha | 13365 | 66826 |



Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri

| | | | | |
|---|---|---|---|---|
| 19. | Yerli icra və hüquq mühafizə idarələri | ədəd | 6 | 8460 |
| 20. | Digər idarə və müəssisələr | ədəd | 95 | 22800 |
| 21. | Tikinti idarələri | ədəd | 9 | 7200 |
| 22. | Yol idarələri | ədəd | 4 | 2800 |
| 23. | Həyətyanı torpaqlar | ha | 12905 | 76190 |
| 24. | Ev quşları | baş | 1048200 | 4200 |
| 25. | Arı ailəsi | ədəd | 1210 | 267 |
| 26. | Hazır kənd təsərrüfatı məhsulları | ton | 10000 | 33660 |
| 27. | Ərazi vahidi üzrə icra nümayəndələrinin inzibati binası | ədəd | 31 | 2400 |
| 28. | Kiçik müəssisələr | ədəd | 112 | 5600 |
| 29. | Kooperativlər | ədəd | 41 | 16480 |
| 30. | Kəndli fermer təsərrüfatları | ədəd | 14 | 1120 |

| | | | | |
|---|---|---|---|---|
| 31. | Dəyirmanlar | ədəd | 18 | 890 |
| 32. | Su nasos stansiyaları | ədəd | 4 | 2100 |
| 33. | Elektrik stansiyaları və transformatorlar | ədəd | 120 | 5800 |
| 34. | Vətəndaşların ev əşyaları və minik avtomobilləri | - | - | 276870 |
| | Dəymiş ziyanın ümumi miqdarı (min ABŞ dolları) | | | 1.485.627,0 |

Dəymiş zərərin ümumi miqdarı 1.485.627,0 min (bir milyard dörd yüz səksən beş milyon altı yüz iyirmi yeddi min) ABŞ dolları həcmindədir.





## Cəbrayıl rayonu üzrə Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılmış və məhv edilmiş obyektlər haqqında MƏLUMAT

| Sıra № | Dağıdılmış və məhv edilmiş obyeklər | Ölçü vahidi | Ümumi miqdarı | Ümumi dəyəri (min ABŞ dolları), 1994-cü il üçün qiymətlərlə |
|---|---|---|---|---|
| 1. | İşğal edilmiş və ya dağıdılmış yaşayış məntəqələri | ədəd | 97 | - |
| 2. | Yaşayış evləri, mənzillər (şəhərlərdə, yaşayış məntəqələrində) | ədəd | 14000 | 700000 |
| 3. | Sənaye obyektləri | ədəd | 8 | 68400 |
| 4. | Kənd təsərrüfatı obyektləri (texnika, nəqliyyat və s.) | ədəd | 44 | 264900 |
| | əkinçilik sahələri | ha | 20426 | 92000 |
| | maldarlıq təsərrüfatları | ədəd | 180 | 27000 |

| | | | | |
|---|---|---|---|---|
| | iribuynuzlu heyvanlar | baş | 14078 | 6300 |
| | xırdabuynuzlu heyvanlar | baş | 59164 | 5900 |
| | meyvə və üzüm bağları | ha | 6462 | 51700 |
| | otlaqlar | ha | 30379 | 82000 |
| 5. | Rabitə obyektləri | ədəd | 65 | 1100 |
| 6. | Səhiyyə müəssisələri | ədəd | 83 | 170000 |
| | Xəstəxanalar | ədəd | 77 | 169000 |
| | Poliklinikalar | ədəd | 1 | 300 |
| | Doğum evləri | ədəd | 1 | 300 |
| | Apteklər | ədəd | 4 | 400 |
| 7. | Tədris müəssisələri (məktəblər, texnikumlar) | ədəd | 91 | 133250 |



Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri

| | | | | |
|---|---|---|---|---|
| 8. | Məktəbəqədər müəssisələr (bağçalar) | ədəd | 35 | 1750 |
| 9. | Mədəniyyət müəssisələri | ədəd | 149 | 149300 |
| | kitabxanalar | ədəd | 78 | 62300 |
| | klublar | ədəd | 40 | 80000 |
| | muzeylər | ədəd | 2 | 500 |
| | muzey eksponatları | ədəd | 5000 | 5000 |
| 10. | Məscidlər | ədəd | 5 | 1000 |
| 11. | Avtomobil yolları | km | 320 | 199000 |
| 12. | Dəmir yolu xətləri | km | 52 | 52000 |
| 13. | Körpülər (avtomobil, dəmir yolu və s.) | ədəd | 56 | 4000 |
| 14. | Su anbarları | ədəd | 28 | 600 |
| 15. | Magistral su xətləri (kanalları) | km | 60 km su xətti, 142 ədəd | 19000 |

| | | | | |
|---|---|---|---|---|
| 16. | Elektrik xətləri | km | 281km/ 61870 kVa | 18000 |
| 17. | Magistral qaz boru xətləri | km | 150 | 4500 |
| 18. | Meşə sahələri | ha | 4480 | 151100 |
| 19. | Tarixi və dini abidələr | ədəd | 134 | 12000 |
| 20. | Fərdi əmlak (mənzil,məişət) əşyaları | - | - | 560000 |
| 21. | Nəqliyyat vasitələri, maşın, mexanizmlər, avadanlıqar | - | - | 166000 |
| 22. | Arı ailəsi | Ədəd | 2300 | 2100 |
| 23. | Tikinti müəssisələri | Ədəd | 11 | 37000 |
| 24. | Mühəndis infrastrukturu | - | - | 72000 |
| 25. | Kəhrizlər | Ədəd | 11 | 120000 |



Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri

| | | | | |
|---|---|---|---|---|
| 26. | İctimai binalar | Ədəd | 886 | 543300 |
| | Dəymiş ziyanın ümumi miqdarı (min ABŞ dolları) | | | 3.450.300,0 |

Dəymiş zərərin ümumi miqdarı 3.450.300,0 min (üç milyard dörd yüz əlli milyon üç yüz min) ABŞ dolları həcmindədir.

## Zəngilan rayonu üzrə Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılmış və məhv edilmiş obyektlər haqqında MƏLUMAT

| Sıra № | Dağıdılmış və məhv edilmiş obyeklər | Ölçü vahidi | Ümumi miqdarı | Ümumi dəyəri (min ABŞ dolları), 1994-cü il üçün qiymətlərlə |
|---|---|---|---|---|
| 1. | İşğal edilmiş və ya dağıdılmış yaşayış məntəqələri | ədəd | 85 | 1380 |
| 2. | Yaşayış evləri, mənzillər (şəhərlərdə, yaşayış məntəqələrində qalan ev əşyaları, avadanlıqları) | ədəd | 36000 | 1260 |
| 3. | Sənaye obyektləri | ədəd | 12 | 32500 |
| 4. | Kənd təsərrüfatı obyektləri (texnika, nəqliyyat və s.) | ədəd | 2820 | 98700 |
| | əkinçilik sahələri | ha | 7900 | 5500 |
| | maldarlıq təsərrüfatları | ədəd | 31 | 12400 |
